**Kamran İmanov**

*Don bəzəyər də, ifşa edər də*
(*Servantes*)

# Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir

## və ya

# Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri

**Bakı – 2025**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin
İdarə Heyətinin sədri.

**Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri. Bakı, 2025**

Bu kitab Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 22 aprel 2025-cü il tarixində 23 aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" münasibətilə Əqli Mülkiyyət Agentliyinin və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə birgə keçirilən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri" mövzusunda konfransda etdiyi giriş sözü və eyniadlı prezentasiyası əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2025**

# Mündəricat

**Giriş sözü** ........................................................... 5

**Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri** ............................ 19

**I. Giriş** ................................................................. 19

**II. Qardman ərazisi və sakinləri haqqında qısa tarixi məlumat** ............................................... 23

**III. Bizans və Utik (Qardman) əlaqələri haqqında** ....................................... 42

**IV. Qardmanda yaşamış sabir/suvar/sevordik və digər türk mənşəli etnoslar haqqında qısa məlumatlar** ...................................... 46

**V. Qardmanda yaşamış kolanı türkləri haqqında** ................................................. 65

**VI. Əlavə** ........................................................... 78

# Giriş sözü

**Hörmətli dostlar, yüksək səviyyəli qonaqlar, Qərbi Azərbaycan icma nümayəndələri, əqli mülkiyyət sahəsində çalışan peşəkarlar, media nümayəndələri!**

Aprel ayı həqiqi mənada əqli mülkiyyətin, müəlliflik hüququnun təntənəli ayıdır. Əqli mülkiyyətin sosial-iqtisadi həyatımızda ildən-ilə artan əhəmiyyəti və nüfuzunu, yaradıcılıq əməyinin xüsusi yer tutmasını qeyd edirik.

Müasir dünyada əqli mülkiyyətin əhəmiyyəti və rolu dayanmadan artır. Belə ki, son 15 ildə əqli mülkiyyət əsasını təşkil edən qeyri-maddi aktivlərə investisiyalar maddi aktivlərlə müqayisədə 3 dəfə artıq böyüyüb. Nəticədə 2024-cü il üçün 7 trln. ABŞ dollarına çatıb. Özü də dünya üzrə verilən patentlərin üçdən bir hissəsi rəqəmli texnologiyalara aiddir və generativ süni intellektə əsaslanan patentlər güclü artım göstərir.

Nəticədə innovasiyalar inkişaf edirlər, dəyişirlər və sənaye innovasiyalarla birləşirlər. Üstəlik, aparat və proqram təminatı arasındakı fərq, sərhəd silinir.

Odur ki, bugünkü ƏM artıq müstəqil hüquqi seqment deyil, qeyri-maddi aktivlər kompleksinə çevrilir və bu yeni trend müəssisələr tərəfindən artım üçün, ölkələr tərəfindən isə inkişaf üçün istifadə olunur.

Bununla belə, kitablara və müəlliflik hüququna olan hörmət azalmır. Belə ki, dərc olunan və milli depozitariyalarda deponə olunan kitabların dünya miqyasında sayı 2,5 mln. ədədə yaxındır (məlumat tam deyil). 2021-ci ildə

2,41 mln. ədəd kitabdan Avropanın payı 53,5%, Asiya 35,0%, Şimali Amerika 8,8%, Latın Amerika, Karib hövzəsi və Okeaniya – 2,7%. Ən çox kitabların sayı Çin, Almaniya, ABŞ, Britaniya, Yaponiya və Koreya ölkələrindədir.

Beləliklə, bu tədbirin keçirilməsində məqsədimiz ƏM-ə, xüsusən kitablara və onları qoruyan müəlliflik hüququna diqqəti cəlb etmək, yaradıcılığa dəstək vermək, əqli mülkiyyət mədəniyyətinin artırılmasına xidmət etmək və şübhəsiz hay-erməniçilik saxtakarlıqlarını, uydurmalarını və yalanlarını ifşa etməkdir.

Bu tədbiri biz Qərbi Azərbaycan icması ilə birlikdə keçirdirik və bu gün bizim təşkilatlar arasında yaranan işgüzar və səmərəli təcrübəmizi rəsmi sənəd vasitəsilə xoş niyyətlərimizi təsdiq etmək fikrindəyik.

Bununla belə, aprelin sonu əqli mülkiyyət aləmində əlamətdar dövrdür – həmin günlər – UNESCO-nun elan etdiyi 23 aprel – "Ümumdünya kitab və Müəlliflik hüququ Günü"dür və ÜƏMT tərəfindən dünya üzrə qeyd edilən 26 aprel – "Beynəlxalq əqli mülkiyyət Günü"dür. Bu əlamətdar günlərin təntənəli şəkildə qeyd olunmasında Azərbaycan artıq böyük təcrübəyə malikdir: 1997-ci ildən başlayaraq, **28 ildir** ki, Kitab və Müəlliflik hüququ bayramını biz qeyd edirik və 2001-ci ildən başlayaraq, **24 ildir** ki, əqli mülkiyyətin təntənəli günləri bizim ölkədə keçirilir. Aprel ayı isə bizim tərəfdən əqli mülkiyyət ayı elan edilib və bir sıra tədbirlər həyata keçirilir.

Əqli Mülkiyyət Agentliyi aprel ayında üç beynəlxalq tədbirdə fəal iştirak edib: belə ki, aprelin 10-da Cenevrə şəhərində keçirilən ÜƏMT-nin Müəlliflik hüququ Daimi Komitəsində "Süni intellekt və əqli mülkiyyət" prezentasi-

yası ilə ölkəmizin bu sahədə atılmış addımlarla beynəlxalq cəmiyyəti tanış edib, aprelin 14-də ÜƏMT-nın IT-transformasiya böyük tədbirində və aprel ayının 21-də Moskva şəhərində ənənəvi təşkil edilən məşhur “Автор / Author – 2025” beynəlxalq konfransda əsas məruzəçilər qismində “Melodiya, harmoniya və ritmlərin başında duran yaradıcılıqdır” geniş prezentasiya-təqdimatla iştirak etmişdir.

**Ən vacibi odur ki, 9 il ənənəyə çevrilən “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir” və hər il “və ya” sözləri yeniləşən bu konfrans böyük maraqla qarşılanır və ictimai rəydə öz yerini tutur.**

Bir sözlə, aprel ayı həqiqi mənada bu sahədə çalışanlar üçün əqli mülkiyyət ayıdır. **Bu peşəkar bayram günlərinin xüsusi əhəmiyyəti mövcuddur – ikinci ildir ki, həmin günlər tam suverenliyini bərpa edən qalib xalqın və müzəffər millətin nümayəndələri, bütövlüyünü bərpa edən doğma Vətənimizin hər bir guşəsində qeyd edirlər.**

**Hörmətli dostlar!**

Heç təsadüfi deyildir ki, məşhur “Qutadqu-bilik”də qeyd olunduğu kimi, “Səadətə aparan əqldir”.

30 il ədalətin bərpasına gücünü əsirgəməyən, 44 gündə bizə qürur bəxş edən və 23 saat 43 dəqiqə şərəf və sevinc gətirən Ali Baş Komandan səadətimizi qurdu. **Bir həqiqətdir ki, zaman öz müddət kəsiyi, uzunluğu ilə deyil, dərinliyi ilə ölçülür. Zəka dərinliyi isə ictimai təsiri ilə, yaratdığı kölgəsinin həcmi və uzunluğu ilə ölçülməlidir.**

Məşhur Seneka demişdi ki, sabahkı günün sahibi olmadan gələcəyə aid planların qurulması mənasızdır.

Odur ki, gələcəkdə dəyişikliyi gözləyiriksə, gerçəkdə o dəyişikliklərə çevrilməliyik. **Və burada Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna tarixi rolu danılmazdır – o sabahın memarı olaraq hər bir ötən günü səxavətlə gələcək naminə qura bilmişdir. Hadisələrin göstərdiyi kimi, Prezident İlham Əliyev nə qədər uzaqgörən, səbirli, düşməni səhv etməyə vadar edən və həmin səhvlərdən məharətlə üstünlük əldə edən, gərəkli hadisələri yaratmağı bacaran və baş verənlərdən ustalıqla istifadə edən dahi siyasətçi olmasıdır.**

Hazırda dövlətimiz qalib ölkə olmağına baxmayaraq, sülhə doğru, Armeniya ilə sülh sazişi bağlamağın təşəbbüskarıdır. Uzağa getmədən, cənab Prezidentin 9 aprel 2025-ci il tarixində Ada Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda səsləndirdiyi fikirlərdən bir neçəsini gətirək:

*"…Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı Cənubi Qafqaza nisbətən inteqrasiya olunmuş region kimi inkişaf etməyə imkan vermədi...".*

*"…**Beləliklə, Ermənistan bu prosesin bir hissəsi ola bilərdi.** Gələcəkdə cərəyan edəcək hadisələrin düzgün hesablanılmaması və gələcək iqtisadiyyatını, "böyük Ermənistan" arzusu olan həqiqi müstəqilliyini qurban verməsi onların təqsiridir".*

*"…Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən".*

Burada Prezidentin bir fikri üzərində dayanaq – hay-ermənilərin səmimiyyətdən uzaq olduqları, ikiüzlü davranışı və revanşizm istək və arzularında görməliyik.

Misal üçün, ötən ilin aprelində və sonra fikrini təkrarlayaraq, Paşinyan parlamentdə çıxış edərək, qonşularla münasibətdə Armeniyanın keçmişini yenidən dərk etmək çağırışı edib və qeyd etdiyinə əsasən, "tarixi Armeniya" və "real Armeniya" bir-biri ilə ziddiyyətdə olduğuna görə, təhlükələr yaradır. Onun sözlərinə əsasən, dünyaya Van çarlığının mövqeyindən yox, bugünkü Armeniya dövlətinin mövqeyindən baxılmalıdır, əks halda dövlətçiliyimizin qurulmasına zərər gətiriləcək.

Yaxud, bu yaxınlarda Gümrü şəhərində partiya soydaşları qarşısında aşağıdakı  etiraf ilə çıxış edib: "Tarixi Armeniyadan real Armeniyaya keçməliyik, əks halda real Armeniya tarixi Armeniyaya çevrilə bilər".

**Lakin bunlar yalnız sözlər idi, hərəkətlər isə əksini göstərir.** Paşinyanın dedikləri ilə əməli düz gəlmir: sərhəddə atəş açılması fonunda, sülh sazişinin perspektivindən danışır, özü də ümidə əsaslanmaq yox, planlı və davamlı fəaliyyət göstərmək lazımdır, deyir. Əgər bu etiraflar səmimidirsə, bəs real Armeniya hansı səbəbdən sülh sazişinin dövlətimizin təbii olan şərtlərini həll etmir və sazişin bağlanmasını uzadır? Və ya Syunik vilayətinin Mehri rayonunda əhalisinə yönəldilən regionda kommunikasiyaların bərpası, sərhədlərin açılmasına aid olan məsələlərdə ictimai razılaşma və sosial dəstəkdən söz açır. Nə üçün siyasi iradə göstərərək, Paşinyan hakimiyyəti hüquqi öhdəlikləri götürməkdən yayınır?

**Hörmətli dostlar!**

Deyirlər ki, hər şey kitabdan başlayır və hər şey kitabdadır. Burada məşhur Lixtenberqin sözünü xatırlaya-

raq, əlavə etməliyik ki, “İnsanlar necədir, yazdıqları kitablar da elədir”.

Bir həqiqətdir ki, tarixə aid yalanlarla dolu keçmişin və müasir erməni müəlliflərinin kitabları çoxsaylı olaraq, bir-birinə istinadən, həqiqətə uyğun olmayan «faktları» tirajlayır və bununla «ermənisayağı mənbə», yəni «dəlillər» sistemi, zəncirinə yaratmaqdadır.

O ki qaldı böyük həvəslə istinad edilən qədim erməni mətnlərinə, onların əlyazmaları, orijinalları adətən tapılmır yaxud qat-qat sonrakı köçürmələr şəklində əksini tapmış olur. Bunların kökündə erməniçilik saxtakarlığı dayanır. **Lakin məşhur Servantes demişkən, «Don bəzəyər də, ifşa edər də».**

Ənənəvi 9 ildir keçirilən konfransımızın adı «Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir…» devizi altında keçirilir. Bu da heç də təsadüfi deyil.

Lakin hayların Milli EA-nın (Tarix institutu) dərc etdiyi son kitablardan biri V.Q.Tunyanın müəllifliyi ilə belə adlanır: “Историческое пристрастие Азербайджана к истории Армении: мифы и реалии” (“Azərbaycanın Armeniya tarixinə olan tarixi ehtirası (həvəsi): miflər və reallıqlar”).

Bax belə, yalan səpənlər bizi yalanda suçlayırlar.

Bir misal gətirək. Dünyanın ən zəngin arxivlərindən biri sayılan Sankt-Peterburq arxivində qədim erməni müəlliflərinin manuskriptlərinin tapılması müşkül bir işdir. 2003-cü ildə Sankt-Peterburqun 300 illiyinə həsr olunmuş «Сокровища академических собраний Санкт-Петербурга» kitabı çapdan çıxmışdı və kitabın tərtibatçı kollektivinin rəhbəri, milliyyətcə erməni olan prof. Yuriy Petrosyanın yazdığı kimi, minlərlə nüsxədə qorunub saxlanan

erməni əlyazmaları çərçivəsində bir dənə də orijinal yoxdur, əksəriyyəti, 80%-ə qədəri XVII-XVIII əsrlərə aid köçürmələrdir, bir neçəsi XIV-XV əsrlərdə köçürülənlərdir və bəlkə də onlardan birini XII əsrə aid etmək mümkündür. Erməni aliminin digər etirafına əsasən, bu arxivdə VII-XI əsrlərə aid olan türk orijinallarının sayı isə minlərlədir.

**Hörmətli dostlar!**

Əqli oğurluq ənənəsini davam etdirən və folklorun bir qolu – miflərin yaradılmasında ustalıq göstərən erməniçilik digər xalqların, xüsusən də biz azərbaycanlıların maddi və qeyri-maddi irsinə, torpaqlarına və mədəniyyətinə göz dikməkdən əl çəkmir, özününküləşdirmək, mənimsəmək, əqli oğurluq, saxtakarlıq və uydurma cəhdləri ilə çantasını «zənginləşdirir». Bunlar istər real siyasi həyatımıza, istərsə də keçmişə, tarixi hadisələrə aiddir.

**Mifologiyaya əsaslanan «böyük torpaqlar» stereotipi qonşularına qarşı ərazi iddiaları, müxtəlif növ mifologemlərdən irəli gələn «böyük erməni mədəniyyəti», «sivilizasiyanın ilk erməni ocağı» mədəni oğurluqları erməniçilik təfəkküründə «təbiilik» və «legitimlik» qazandırır. Odur ki, Azərbaycanın maddi və qeyri-maddi irsinin, mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi davam edir. Üstəlik, erməniçilik tərəfindən hazırlanan ermənilərin «müstəsnalığı», «əzabkeşliyi», «xüsusi missiyası» uydurmalarından irəli gələn stereotiplər müasir erməni identikliyini formalaşdırır, yaradılmış mifologemlər erməni siyasətçilərinin, xadimlərinin, alimlərinin, hətta kütlənin mövcud olan əxlaqına təsir göstərir.**

İki mif – Şərqi Armeniya və Qərbi Armeniya mifləri üzərində dayanaq.

Haylara məxsus olmayan armen / erməni etnonimini və Arminiya (Ermənistan) adlı qədim toponimini mənimsəyərək, hay-erməni tarixşünaslığı Türkmənçay müqaviləsinin (1828) bağlanmasından sonra Şərqi və Qərbi Armeniya, hətta uydurma "böyük Armeniya" mövcudluğuna dair tezisləri fəal şəkildə gündəmə gətirməyə başladı. **Çar Rusiyasının 1827-ci ildə işğal və Qacar şahın İranın ruslara güzəşt** etdiyi İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "Şərqi Armeniya" ərazisi elan olundu, hal bu ki, müqavilənin 16 maddəsindən heç birində bu toponim barədə tək kəlmə belə qeyd olunmamışdı.

İrəvan xanlığının torpaqlarında çar Rusiyası tərəfindən yaradılan və süni şəkildə şişirdilən yersiz olan hay-erməni ərazi iştahası Naxçıvan qəzasının, Qarabağ, Zəngəzur torpaqlarına da iddialara təkan vermiş oldu. Hətta, bolşevik obrazına girmiş ikiüzlü erməni milliyyətçiliyi və daşnak terroru sonralar bu torpaqların bir qisminin qopartmasına gətirib çıxardı. Lakin 1921-ci ildə Türkiyə və Sovet Rusiyası arasında yaradılmış Naxçıvan Muxtar Respublikasının Azərbaycanın protektoratı altına verilməsi haqqında müqavilə ilə nəticələndi. Erməni iddialarının könlünü almaq üçün isə əvvəlcə Zəngəzur qəzası, 1922-ci ildə isə Göycə (Şərur-Dərələyəz) Azərbaycandan qoparılıb Ermənistana verildi. Bu azmış kimi, bir də 1923-cü ildə Azərbaycan ərazisində Dağlıq-Qarabağ Muxtar vilayəti yaradıldı.

**Nədir Şərqi Armeniya?**

Uydurma "Şərqi Armeniya" torpaqsız Sovet Armeniyasının məhz bu yolla Azərbaycan əraziləri hesabına yaradılmasıdır.

Əvvəlcə "Şərqi Armeniya" çar Rusiyasına birləşməsi adı altında Azərbaycan ərazilərində yaradılmış bu milli er-

məni yuvası mahiyyətcə ərazilərin hərbi işğalı ilə nəticələnən təcavüzkarlıq, Sovet dövründə isə sülh yolu ilə ermənilərin ərazi iddialarını təmin edən **güzəşt** olmuşdur.

Uydurma “parçalanmış erməni torpaqları” tarixi İkinci Dünya müharibəsindən sonra aktuallaşdı, çünki, Sovet Rusiyasının Ərdahanı və Qarsı Türkiyəyə qaytarılmasını nəzərdə tutan və 1921-ci ildə imzalanan Türk-Sovet müqaviləsinə yenidən baxılmasını planlaşdıran Stalinin niyyətlərinə uyğun idi.

Bununla da, **Qərbi Armeniya** məsələsi yenidən gündəmə gəldi. Şükür, Stalinin niyyəti baş tutmadı, ancaq mövcud olmayan “Şərqi Armeniya” çərçivəsində tarixi Azərbaycan əraziləri haylar tərəfindən erməniləşdirildi, bu azmış kimi Sovet tarixi elminin dəstəyi ilə erməni tarixşünaslığı hayların bu torpaqlardakı qədimliliyinə dair yalan və uydurmaları tirajlamağa başladı. Bunun üçün qondarma hay-erməni çar sülalələri uyduruldu, “Şərqi Armeniyanın” Rusiyaya xəyali birləşməsi aspektində Kürəkçay müqaviləsinin əsasnamələri təhrif olunmağa başlandı, Qafqaz Albaniyasının tarixi, bu torpaqların əzəli sakinləri olan Azərbaycan türklərinin maddi və qeyri maddi mədəni irsi, ümumiyyətlə hay-ermənilərin bu ərazilərdə avtoxtonluğunu “sübut” edə biləcək hər bir şey saxtalaşdırılaraq, mənimsənilməyə məruz qaldı.

Bu gün də hay-erməni uydurma qədimliliyi erməniçiliyin təcavüzkar və riyakar izini sürdürür. Heç də təsadüf deyil ki, XVI-XVII əsrlərə dair **erməni xalqının tarixi adı altında Azərbaycanın Qarabağ, Gəncə, İrəvan, Naxçıvan və Zəngəzur diyarlarının tarixi təsvir olunur.** XV əsrdə patriarx taxtının Eçmiyədzinə köçürülməsindən sonra (Eçmiədzində patriarxat yeparxiyasız fəaliyyət göstərirdi, çünki yeparxiya Kiçik Asiyada qalmışdı) ermənilər bu dövrü

lovğalanaraq erməni tarixinin “Eçmiyədzin dövrü” adlandırdılar.

Bundan başqa onlar müxtəlif siyasi və elmi dairələrdə belə bir fikir yaymağa başladı ki, “Qərbi Armeniya” hələ də Türkiyənin tərkibində qalıb.

**Ümumiyyətlə, erməniçilik sayca neçə Armeniya adlı toponim işlədir?**

Armenistlərin yazı ənənəsini qoyan “erməni tarixinin atası” M.Xorenli V və ya VII əsrlərdə, bəlkə də XIV əsr-də (əslində müəlliflik və yazı tarixi sual altında qalır) yaz-dığı “Патмутюн Хайоц” (“Hayların tarixi”), “İncili” təftiş, “Xalqlar cədvəli”nə Hayk, Armenak və s. fantomları daxil edərək, hay etnosunun Sakalara, Qəmərlilərə qohumluğunu çatdıraraq, hətta Torqom (Toqarma) əcdadlarına (türk soy-kökü) çevirərək, **5 Armeniya** (1-4 və yunan) iddiasını irəli sürmüşdü. İki əsr sonra isə A.Şirakatsi öz “Aşxaratsuyts”unda (“Coğrafiya”) müəllif kimi artıq **8 Armeniya** vermişdi, **indi isə “Armeniya”ların sayı 35-ə çatıb.**

**Bəs neçə dənə “Armeniya” adlı dövlət mövcud idi?** Bugünkü dövlətləri istisna olmaqla, **heç bir dənə**. “Armeniya” adı ilə tarixdə qələmə verilən dövlətlər isə haylar yox digər xalqlar yaratdığı və başçılıq etdiyi dövlətlərdir.

Elə erməni alimlərinin etirafına əsasən, ermənilər hazırda etno-konfessional cəhətdən fərqlənən 11 subetnik qruplar təşkil edir və əlavə edim ki, bu qədər “Armeniya” olduğu halda, hansı “Armeniyanın tarixi”ndən söhbət gedəcək? Odur ki, avtoxton xalqlardan fərqli olaraq, erməni alimləri “Armeniya tarixi“ni yox, hay etnosunun tarıxini yazmaq məcburiyyəti qarşısındadırlar, ya da “Hayastan” adlı ölkəsi olmayan mifoloji Hayların tarixini yazırlar

və burada digər xalqların ərazisindən və tarixindən söhbət açırlar.

Armenistlər bundan vaz keçir, erməni yazarları Armeniyaların çoxluğuna əsaslanaraq, Aralıq, Qara və Xəzər dənizləri arasındakı "Böyük Ermənistan" xülyasını yaşatmağa çalışırlar, bu mifologem ayrı-ayrı, parça-parça olan uydurma Armeniyaları yeni bir uydurma "kompleksinə" çevirməyə dəstək verərək, buraya Türkiyə, Gürcüstan və Şimal-Cənubi Azərbaycan torpaqlarını daxil etmiş olur.

Hər bir xalqın, o cümlədən, erməni xalqının özünəməxsus tarixi var, millətin keçmişində baş verən olaylar, hadisələr, uğurlar və məğlubiyyətlər gerçəkliyinin ayrılmaz bir hissəsidir. Biz erməni xalqına qarşısı deyil, erməniçiliyə, sağlam olmayan dünyagörüşünü dəstəkləyən bədnam qonşularımızın millətçi müəllifləri ya da sifarişlə tutulmuş muzdlu xaricilər tərəfindən yazılan yalan, uydurma və böhtanlar dolu kitablara və digər yazılara qarşı çıxış edirik. Xüsusən tarixşünaslığa aid bu növ əsərlərdə əsas leytmotiv ermənilərin Cənubi Qafqazda gəlmə yox, avtoxton millət olmasına və buradan guya itirilmiş torpaqlarla bağlı ərazi iddialarına qarşı çıxış edirik.

Ümidvaram ki, bu konfrans tarixi sübutlarla, elmi dəlillərlə və danılmaz faktlarla erməni mifomaniyasını ifşa etmək missiyasının davamıdır.

**Hörmətli dostlar!**

Erməni miflərini saymaqla qurtarmaz. Onların hamısı məqsəd quruluşuna və praktiki təyinatına görə birləşərək, siyasi mifologiya kateqoriyasına aid olur. Erməni etnik aləminin mənzərəsinin bir hissəsi olan məhz bu mifologiya zahiri reallığın və burada cəmləşən əxlaq mexanizminin erməni etnosu tərəfindən qavranılması üsulunu müəyyən edir. Fikir verin. Bir neçə müasir politoloqların, o

cümlədən, **S.B.Luryenin araşdırmalarına əsasən, digər xalqlardan fərqli olaraq, erməni siyasi düşüncəsinin xüsusiyyəti geosiyasi xarakter daşıyaraq, ermənilərin yaşadığı yerlər əsasında müəyyən coğrafi xəritə qurmaq və yaşadığı yerləri özləri üçün növbəti "Ermənistan" adlandırmaqdan ibarətdir**.

Lakin erməniçilik mifomaniyası bununla bitmir. Erməniçiliyin sifarişi ilə muzdlu xarici müəlliflər tərəfindən yazılan çoxlu sayda "əsərlər" riyakarlığa əsaslanaraq, tarixi saxtalaşmaya yol açır. Uydurmalar isə qəbul edilmədiyi halda "çox əzabkeş" xalqın millətçiləri təcavüz və terrora əl atırlar.

Tanınmış avstriyalı tarixçi Erik Fayql "Erməni mifomaniya" kitabında yazdığı kimi "…Erməni terrorizminin kökləri tarixə yanlış baxımdan irəli gəlir… Müasir erməni terroristlərin unikallığı ondadır ki, tarix (daha doğrusu tarıxə öz baxışı) onlar üçün yeganə bəraətdir". Odur ki, "insanlıqdan uzaq əməllərə bəraət qazanmaq məqsədilə tarixin yenidən yazılması terrorçuluğun unikal xüsusiyyətidir". Bəli, bu həqiqətən belədir.

Çünki bəllidir ki, "bəziləri qəsdən yalan səpir, digərləri isə aldanaraq yalan yayır".

Mifomaniya, saxtakarlıq və yalanlara uyanlara erməni mənşəli tanınmış alimin bir fikrini xatırladıram.

Belə ki, söhbət Miçiqan və Çikaqo universitetlərinin professoru Ronald Qriqor Sünidən gedir "Ararata baxış. Armeniya yeni tarixdə" adlı tədqiqatında söylədiyi fikirləri eşidilsin: "Ermənilər – xüsusi xalqdır, əvvəla ona görə ki, onlar digər millətin içərisində yaşayan millətdir və, ikincisi bu xalq adətən heç bir təsəvvürü olmayan irsi ilə fəxr edir".

Tanınmış erməni aliminin etiraf-xəbərinə baxmayaraq, saxtakarlıq yuvaları artır, deməli yalanlar da çoxalır.

**Hörmətli dostlar!**

2023-cü ilin əvvəllərində Armeniyada bir ictimai struktur peyda olunub, özü də adı çox gurultuludur – "Gardman-Şirvan-Naxçıvan Ümumerməni İttifaqı". Fəallığı müxtəlif bəyanatlarla, beynəlxalq strukturlara müraciətlərlə və təbii olaraq, mediada, müsahibələrdə saxta, uydurmalara əsaslanan məlumatların yayılması və ölkəmizin daim pisləməyi ilə səciyyələnir. Məqsədi isə, bəyan etdikləri kimi, yaranan ictimai birlik 1988-1992-ci illərdə Azərbaycanın müxtəlif regionlarından Armeniyaya köçən hay-ermənilərin hüquqlarının müdafiəsi ilə bağlıdır.

Əslində isə təşkilatın yaranması 2022-ci ilin sonunda Qərbi Azərbaycanın icmasının formalaşmasına "simmetrik cavabdan" ibarətdir. Erməni müxalif mediasında qeyd olunduğu kimi, təşkilatın peyda olmaq təşəbbüsü baş nazir N.Paşinyanın təşəbbüsüdür və bu struktura başçılıq edən şəxs "Mülki saziş" hakim partiyanın üzvü, deputat, Bakıda doğulan və Paşinyanın yaxın adamı olan Vilen Qabrielyandır. Bu struktur haqqında əlavə məlumat vermək fikrində deyiləm, lakin onun başçısı haqqında bir neçə söz deməliyəm. Bu həmin Vilendir ki, bu yaxınlarda deputat mandatını qaytarmalı oldu. Səbəbi isə media nümayəndələri ilə Gümrüdə yaratdığı biabırçılıq ucbatından. Məsələ ondadır ki, hakim partiya "Mülki saziş (dialoq)" Gümrüdə Ağsaqqal Şurasına olan seçkilərdə öz nümayəndəsini keçirdə bilməyib, özü də baxmayaraq ki, hakim partiyanın mövqeyini gücləndirmək məqsədi ilə Paşinyan buraya həmin Vilen Qabrielyanı göndərmişdir. Media nümayəndələri ilə hay-küylü dava nəticəsində Qabrielyanı istefaya göndərdilər. Vilen isə öz növbəsində hakim parti-

yada mövcud olan əhval-ruhiyyənin sağlamlaşdırılması ilə məşğul olmağına vəd verib. Bu onların daxili işləridir, lakin xüsusi olaraq qeyd etməliyəm ki, bu günə qədər onun başçılıq etdiyi "Ümumerməni ittifaqı" yalnız və yalnız işlənmiş silaha – plagiata əsaslanır və Qərbi Azərbaycan icmasının qanuni və dəlillərə əsaslanan addımlarını təkrarlayır. Bunların ifşası məruzəmdə.

# Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri

## I. Giriş

Bu gün diqqəti Ümumerməni ittifaqının “özünkü”, hesab edən Qardman üzərində cəmləşdirəcəyik. Ümumerməni ittifaq “Qardman-Şirvan-Naxçıvan” ictimai təşkilat Qardman haqqında aşağıdakı məlumatı yayır:

1. Qardman – tarixi erməni ərazisidir və burada ermənilər yaşayıb, unikal mədəni mühit yaratmışlar, özü də Azərbaycan adı istifadə olmaqdan bir neçə əsr öncə.
2. Qardman torpaqlarına, Azərbaycan ərazisində qalan erməni etnosunun Dağlıq Qarabağdan şimal və şərqə uzanan tarixi yerləri daxildir, hansılar ki, 1989-1990-cı illərdə zorla hay millətindən boşaldırmışlar.

Yuxarıdakılar bədnam qonşularımız tərəfindən yaradılan təşkilat haqqında ümumi məlumatdır, bilavasitə Qardman haqqında tarixi məlumatlarda isə deyilir (tərcümə bizimdir):

“Qardman – Utik vilayətinin eyniadlı Qardman və Tavuş əyalətlərinin də daxil olduğu Mets Haykın şimal-şərqində yerləşən qədim erməni knyazlığıdır.

O qərbdən Artsax, cənub-şərqdən Şakaşenin ərazisi ilə, şimal-şərqdən Kür çayı, şimal-qərbdən isə Ağvan və Quqark ilə həmsərhəd idi. Əyaləti həm də Qardmank

və ya Qardmanadzor da adlandırırlar. Qardman qalası Qardmanın mərkəzi idi. Arşakunats (Ərsaklar) çarlığının dövründə burada Utik hakimiyyəti yerləşirdi, ona görə də inzibati cəhətdən buralar "Qardmantsots hakimiyyəti" adlanırdı. VIII əsrin əvvəllərində erməni çarı II Aşot Qardmanı öz mülklərinə birləşdirdi. Qardman VIII əsrin əvvəllərində Zəkəryan knyazlarının kiçik qolu olan Vaqramyanların erməni hökumətinin tərkibində idi. Bizim dövrümüzdə bu yerdə Qardmanın əmlakı qurulmuşdur. Qardmanın Məlik-Şahnəzariləri Varand Məlikliyinin hakim sülaləsindən olurdular. Onların iqamətgahı Oskanapat kəndi idi (buna görə də məliklilər çox vaxt Oskanat adlandırırlar). Erməni Məlik-Şahnazaryan nəslinin ərazi və torpaq hüquqları XIX əsrin əvvəllərində Qardman və ona bitişik ərazilərin Rusiya imperiyasına birləşdirilməsindən sonra yaranıb **(şəkil 1).**

Aydındır ki, Qardmanın tarixi və coğrafi cəhətdən qərbdən erməni Tavuşu, cənubdan isə tarixi Artsaxla bağlı idi.

Qardman ərazisi indi iki rayona bölünür: Gədəbəy (Ermənistan Respublikası ilə həmsərhəd olan ən dağlıq hissə) və Şəmkir (Kür çayına qədər uzanan düzəngah hissə).

**Bununla belə, hələ ötən əsrin ilk onilliklərində tarixi Qardman ədalətsiz şəkildə Azərbaycan dövlətinin tərkibinə daxil edilmiş, Qardmanın erməni yaşayış məntəqələri isə onilliklər ərzində Azərbaycan haki-**

**miyyətinin ayrı-seçkilik siyasətinə məruz qalmışdır** (kursiv bizimdir).

Qardman 1988-1992-ci illərdə mövcud olmuş erməni xristian mədəni irsi ilə zəngindir. Qardmanın erməni əhalisinin deportasiyası və depopulyasından sonra o, ciddi yox olmaq təhlükəsi altındadır".

**Burada sitat bitir və mən bu yazıda hansı cümlənin həqiqətə uyğun olmasında çətinlik çəkirəm.** Bu məlumatları vermək məqsədilə 19 mənbəyə istinad olunur və bunların 18-i hay-erməni müəllifləridir. Odur ki, yalanları ifşa etmək üçün ardıcıl olaraq, əsasən hay-erməni müəlliflərinin etiraflarına və tanınmış klassik mənbələrə, qədim mətnlərə əsaslanacağıq.

Öncə Qardman ərazisi haqqında bəzi tarixi məlumatlar verməliyik.

# Girdiman knyazlığı




## Şəkil 1.

Mənbə: [https://az.wikipedia.org/wiki/Girdiman_knyazl%C4%B1%C4%9F%C4%B1](https://az.wikipedia.org/wiki/Girdiman_knyazl%C4%B1%C4%9F%C4%B1)

# II. Qardman ərazisi və sakinləri haqqında qısa tarixi məlumat

Ondan başlayaq ki, söhbət qədim Albaniya ərazisindən getməlidir **(şəkil 2).**

**Albaniya və qonşu ölkələr**
**(VI əsr — VIII əsrin əvvəlləri) Uti**




**Şəkil 2**

Mənbə: *https://az.wikipedia.org/wiki/Uti; https://az.wikipedia.org/wiki/Qafqaz_Albaniyas%C4%B1;*
*Tərtib edəni: İ.S.Süleymanov*

Albaniyanın Qardman adlı tarixi ərazisinə dair salnamələrdə qısa-qısa (natamam) məlumatlar qalmışdır və biz çox vaxt bu məlumatları tez-tez yenidən yazılan və redaktə edilən və çox vaxt bir-biri ilə ziddiyyət təşkil edən qrabar mətnlərindən əldə etmiş oluruq.

Bu vəziyyəti erməni xadimləri istifadə edərək, Qardman ərazisini tarixi erməni ərazisi elan etməyə sövq edir və bunun üçün həmin ərazi haqqında saxta və yoxlanılmamış məlumatlar hazırlanmışdır.

Ehtimal olunur ki, ərazinin özü Şəmkir-Gədəbəy bölgəsinin dağlıq hissəsində – Zəyəm və Şəmkir çaylarının hövzəsində yerləşirdi.

Lakin bizdə Qardman ərazisinin adı ilə bağlı olan, lakin Şəmkir-Gədəbəy bölgəsinin dağlıq hissəsindən bir qədər uzaqda yerləşən Qardaban şəhəri (Gürcüstan) və Girdiman çayı (Ağsu rayonu) kimi toponimlər də mövcuddur **(şəkil 3 və 4).**

## Girdiman dövləti




**Şəkil 3**

Mənbə: [https://www.azerbaijans.com/content_362_az.html](https://www.azerbaijans.com/content_362_az.html)




**Şəkil 4**

Mənbə*:*
[https://commons.wikimedia.org/wiki/File:Az%C9%99rbaycan_Fiziki-co%C4%9Frafi_rayonla%C5%9Fma.png](https://commons.wikimedia.org/wiki/File:Az%C9%99rbaycan_Fiziki-co%C4%9Frafi_rayonla%C5%9Fma.png)

Təbii ki, bu məlumatlar çaşqınlıq yaradır və müxtəlif spekulyasiyaların yaranmasına səbəb olur. Məlumat üçün əlavə edək ki, eyniadlı Qardman şəhəri bir zamanlar qədim Xorəzmdə də mövcud olub (Abu Abdullah əl-Müqəddəsi ("Ahsan at-taqasim fi ma'rifat al-aqalim" – İqlimlərin tanınması üçün ən yaxşı bölgü").

**Öncə qeyd edək ki, Qardman adının fonoloji quruluşu, onun Qardaban və Girdıman kimi qalan transkripsiyaları, eləcə də qədim Xorəzmdəki Qardman şəhərinin mövcudluğu, bu coğrafi terminin erməni, həmçinin qafqazdilli etimologiyasını istisna edir.**

Ən çox ehtimal olunur ki, "Qardman" sözünün etimologiyası müəyyən mənada orta fars və ya daha çox türkdilli dil qatı ilə bağlıdır.

Qardman ərazisinin adı erməni tarixçisi **Faust Bizanslının (Favstots Buzandasi)** kitabında bir neçə dəfə keçir. Orada bu ərazinin knyazları Kiçik Arsakilər dövründəki daxili müharibə ilə əlaqədar bir neçə dəfə xatırlanır.

**Qardman ərazisi və onun sakinləri haqqında qısa tarixi məlumatlardan, erməni xronoloqu M.Xorenli və alban tarixçisi Musa Kalankatukludan öncədən istinad edək və həmin qədim mətnlər vasitəsilə Ümumer-məni ittifaqının Qardman haqqında yazılarını ifşa edək, yalanlarını açıqlayaq.**

İlk növbədə qeyd edək ki, **M.Xorenli** erməni etnosuna aid kitabında qeyd olunur ki, **"utiylər tayfası və qardmanlar, çavdilər və qarqarlar knyazlıqları Sisakın nəsilləri idilər"**, **yəni Üç Oxdan, Sisak-dan sak kökənli idilər.**

Orada həmçinin qeyd olunur ki, Sisak insanları, yəni Üç Ox, "Alvan düzənliyini, onun dağlara baxan tərəfini, Yerasx çayından Xnarakert adlanan qalaya qədər miras almışlar" (miras kimi əldə etmişlər).

**Yəni Üç Oxun bu sak tayfaları Kür-Araz hövzəsinin geniş ərazisini tuturdular ki, buraya coğrafi olaraq Şəmkir-Gədəbəy bölgəsi, eləcə də Qardaban şəhəri və Girdıman çayı daxildir.**

Böyük Arsakın qardaşı parfiyalı Valarşak Sisakın nəslindən olan və ölkəninin Albaniya adını alan şərəfli igid Aranı bütün alban diyarına hökmdarlığa təyin edir. Bu məlumatları **Xorenlinin** ardından digər müəlliflər də (**Vardan, Asolik və s.**) təkrarlayırlar.

**Xorenli** hekayəsində Qardman vadisi qeyd olunur. Bu vadidən Mesrop Maştots Balasakandan qayıdır, burada o, "anarxiya dövründə cücərmiş bütpərəstlik bidətini" kökündən çıxardı və "inadkarları hunların ərazisinə sürüklədi".

Yəni, xristian təlimini qəbul etməyənlər hunların ərazilərinə sürgün edilir.

Bu yazı hissəsi, **Balasakan sakinlərinin dini qavrayışları hunların dini baxışları ilə eyni olduğunu göstərir**.

Bu hadisələrdən sonra **Mesrop Maştots** Qardman vadisinə yönəlir "çünki ona xəbər çatır ki, orada da eyni bidətin davamçıları var".

Yəni, yenə də aydın olur ki, **Balasakan və Qardman sakinləri hunlarla eyni dini inancları paylaşırdılar** və onlarla qohum idilər (bu barədə **M.Kalankatuklunun "Alban tarixi"** kitabında maraqlı məlumatlar var).

**Xorenlinin** kitabına görə, Maştos Qardman sakinlərini, o cümlədən, onun Hurs adında hakimini xristianlaşdırır. Daha sonra eyni səbəbdən Quqarka və Taşirə gedir.

Xorenlinin kitablarının bütün nəşrlərində qeyd olunur ki, Valarşak məhz cəsarətli və şücaətli **Aranı** on minbaşı təyin etmişdir və məhz Arandan utililər, **qardmanlar**, tsavdilər və qarqarlar tayfaları törəmişdir.

**Aran** adı türk mənşəlidir və **Erən** adlı hun padşahı ilə uyğun gəlir. Bu ad **Yeliseyin (Eqişe) "Ermeni müharibəsi haqqında söz"** əsərində, Sünik knyazı Vasak və

Balasakan çarının onunla **(Erən)** sasanilərə qarşı müharibədə ittifaqından bəhs edilən hissədə keçir.

Şübhəsiz ki, bu qədim türk adı Erän/Äran – zadəgan, igid kişidir. Aran adının bu türk etimologiyası **Xorenlinin və Kalankatuklunun** mətnlərində də yer alır, onlar onu "igid, cəsur kişi" adlandırır.

**M.Kalankatuklu** yazdığı albanların tarixində onu da qeyd etmişdir ki, "Uti, **Qardman**, Tsavdei, Qarqar knyazlıqlarının tayfaları" Arandan qaynaqlanır, ölkələrinin, yəni Albaniyanın adını məhz onun adından almışdır.

Albanların tarixində Albaniya ərazilərinin hökmdarları, o cümlədən, **Qardman** hökmdarı tərəfindən imzalanan kilsə şərtləri və qanunlarının qəbul edildiyi Aluen kilsəsindən bəhs edilir.

**M.Kalankatuklunun alban tarixində Qardman yepiskopluğunun Albaniya taxtına bağlı olması barədə dəqiq məlumatlar var.**

Bu, ilk növbədə Albaniya tarixinin ikinci kitabının 7-ci fəslində bəhs edilən, erməni katolikosu İonanın (Yovannesin) Albaniya katolikosu Ter-Abasa və alban yepiskoplarına göndərişidir.

Müraciəti yalnız erməni katolikosu deyil, erməni yepiskopları da imzalamışdır. Bu göndərişdə Albaniya və **Ermənistan** yepiskopluqları sadalanır. Albaniya yepiskopluqları aşağıdakılardır-Baxalat, Kapalak, Amaras, Balasakan, Şaki, **Qardman**, Mets Kolmank.

Bundan əlavə, **Şaki (Sisakan) də Albaniya yepiskopluğu kimi qeyd olunur.** Erməni yepiskopluqları isə bunlardır: Taron (Şimali Suriya), Tayk (Ərzurum-Ərzincan), Vanand (Qars), Rştunik (Van gölünün cənubu), Moks (Van gölünün cənub-qərbi).

Göründüyü kimi, **bütün erməni yepiskopluqları Cənubi Qafqazdan kənarda yerləşir. Bu göndəriş VI ə. ikinci yarısındakı hadisələrlə əlaqəlidir.**

M.Kalankatuklunun (M.K.) alban tarixində Mihranilərin əvvəlcə **Qardman**, sonra isə bütün Albaniyanı ələ keçirməsi barədə də məlumat var. Bizans imperatorunun Cavanşir Mehraniyə göndərdiyi məktubda o, **Qardmanın** hakimi, Albaniya knyazı və şərq kənarının hökmdarı kimi təqdim olunur.

M.Kalankatuklu kitabında qeyd olunur ki, "Sevada ləqəbli, cəsur və uğurlu kişi olan Sahak **Qardman** qavarlarına və Kusti Parnesə sahib olmuşdur".

Mənbələrdən aydın olur ki, **Sevada ləqəbli Sahak, erməni ədəbiyyatının sevordiklər kimi adlandırılan subar mənşəli idi.**

Təxminən bu dövrdə **Uti vilayətinin hakimi Stepan Klip və ya Kon (835-ci ilə qədər) idi ki, onlar da suvar idi. Qardman ərazi kimi Uti vilayətinə daxil idi. Bu ərazi Suvar-Sevordiklərin, türk-xristianların idi.**

M.Kalankatuklunun bildirdiyinə görə, **Sahak Sevada** Uti vilayətindən **Qardmanı**, Arsaq vilayətindən Kusti və Parnas ərazilərini, həmçinin Ararat vilayətinin Tsoroqet (Şirak) ərazisini öz hakimiyyəti altına almışdı.

**Sevordiklər/Sabir/Suvarlar haqqında daha dolğun məlumatı aşağıda verəcəyik.**

Sahak Sevada, Syunik İşxanı və Baqratunin çar evi ilə qohumluq əlaqələrinə malik idi. Bundan başqa, o Aşot Baqratuniyə qarşı döyüşmüşdü.

Sahak Sevadanın nəslindən olan şəxslər X əsrdə Qafqaz Albaniyasının çarları olmuşdular **(İoann Senekerim və Filip).**

Bu barədə **M.Kalankatuklu** yazırdı (III, 22) və verdiyi məlumata əsasən, Senekerim çoxdan süqut etmiş Albaniya çarlığının hökmdarı olmuşdu, farslar (ehtimal ki, Şimali və Cənubi Azərbaycanı idarə edən Səlarilər) və yunanlar (Bizans maqistri David) tərəfindən tac və taxt ilə dəstəklənmiş, həmçinin patriarx tərəfindən rəsmi olaraq hakimiyyətə gətirilmişdi.

Bizi maraqlandıran dövrdə (X əsrin ortalarında) **Sahak Sevadanın** əvvəlki sadalanan mülkləri **Senekerimin** hakimiyyəti altında idi.

**Senekerim** Qardman ərazisinə, onun mülkiyyətinə daxil olan, Kosti-Parnas və Sodk **məntəqələrində** yerləşən Parisos və Noravank monastırlarına nəzarət edirdi.

Senekerim mahiyyətcə **Qardman** və Kosti-Parnasın fatehi Sahak Sevadanın nəvələrinin ən böyüyü idi. Onun atası Sevada "Syunik tarixində" "Albaniyanın böyük və şanlı şahzadəsi", qayınatası Smbat isə Sünikin ilk kralı kimi təqdim olunur.

Qeyd etmək lazımdır ki, məşhur alim **Sukerman** tamamilə düzgün şəkildə vurğulayır ki, "İbn Haukalanın siyahısında iki Senekerim qeyd olunub: birincisi Sevadanın (İbn Savid) oğlu, Al-Rubanın sahibi olaraq tanınır, ikincisi isə, nəslinin qeyd olunmadığı, Xaçenin sahibi olaraq göstərilir, bu isə, Xaçenin Senekerim, Sevadanın oğlunun mülkünə daxil edilməsinə səbəb olmuşdur.

**Sukermanın** fikrincə, ikinci Senekerim şahzadə Qriqorun oğludur. Eyni zamanda qeyd olunub ki, Sahak Sevadanın nəsillərindən olan Senekerim (gələcək şah) **Qardman**, Kosti-Parnas, Sodkanın sahibi olub, onun qardaşı Apu Alinin nəsilləri isə Xaçin və ehtimal ki, Qəlakuninin bir hissəsinə sahib olub.

**Burada faktoloji materialların verilməsini dayandırıb, bir neçə vacib suala cavab axtarmaq istəyirəm.**

**Birincisi, əgər Qardman** hay-erməni yurdudursa, onda burada xristianlıq yayılarkən hansı səbəblərə görə erməni qədim mənbələri yerli əhalinin inanclarının qonşu olan hunların inanclarına yaxın olduğunu göstərmişlər, özü də "inadkarları" hunların ərazisinə sürüklədirdilər?

**İkincisi**, bəllidir ki, hay-ermənilər "sevordiklər" tayfa adı altında türk qəbiləsi qəbul olunan sabir/savir/suvar/subar tayfasını adlandırırdılar və bu xalqın bu torpaqlarda yaşamağı və hökmranlığı hansı məntiqlə hay-erməni qədim torpaqları kimi qələmə verilə bilər?

Xatırladım ki, biz sevordiklərin kökləri haqqında tədqiqatlar aparıb, əsərlərimizdə geniş məlumat yaymışıq.

Faktoloji materialları davam edək və şərhlər verək

Tanınmış albanşünas **Trever** yazmışdı ki, Gürcüstan **salnamələrinə** görə, 628-ci ildə İrakli Albaniyada **Qardman** ərazisində olub, burada güya ki, Albaniya knyazı Varaz-Qriqorinin **vəftiz edilməsi** ilə məşğul olub. **M.Kalankatuklu** bununla bağlı heç bir məlumat vermir.

Digər tanınmış alim **M.İ.Artamonovun** fikrincə, bu o səbəbdən izah edilir ki, Varaz-Qriqorun **vəftiz edilməsi**, yəni onun xalkedonitizmə keçməsi, pravoslav, ortodoks olması monofizit katolikos Viro üçün, çox xoşagəlməz bir hadisə olmalı idi və həmin illərin tarixi böyük ehtimalla öz dövrünün yazarı olan Viro tərəfindən yazılaraq, onları ürəyinə yatmayan hadisəni işıqlandırmamış, onun yazılarını da **M.Kalankatuklu** istifadə edib, həmçinin işıqlandırmamışdır.

Qeyd edək ki, xristianlıq Albaniya əhalisi arasında böyük çətinliklə yayılırdı; burada o, **Armeniya** və **Kartlida** olduğu kimi dərin köklər salmamışdı; hətta üç əsr sonra,

VII əsrdə, hələ də öz qədim tanrılarına ibadət edən insanlar var idi, bu barədə **M. Kalankatuklu** yazır.

VII əsrdə, yəni Qriqorisin təbliğatlarından üç əsr sonra, Albaniya hökmdarı Varaz-Qriqorun və "bütün xalqının" **Qardmanda** Bizans imperatoru İrakli tərəfindən yenidən xristianlığa qəbul edilməsi baş verir, bu barədə "Sumbat Xronikası" xəbər verir.

**VII ə. sonlarına doğru isə, məlum olduğu kimi, islam erası, islamın yayılması başlanır.**

Eyni tipli təkrarlama Albaniyanın **Qardman** ərazisində başqa bir qədim oğuzlar diyarı olan Xorəzmdə də mövcud olub. Xorəzmdə – bu klassik sak ərazisində "Qardman" adında bir şəhər var idi.

Bu fakt, Qardman sözünün etimologiyasına gəldikdə, Albaniyanın **Qardman** torpaqlarının adının nə erməni, nə də Qafqaz dilləri ilə əlaqələndirilə bilməyəcəyini göstərir. İlk növbədə, Qardman toponiminin həm Albaniyada, həm də Xorəzmdə təkrarlanması vacib bir faktdır, çünki göründüyü kimi, Albaniyanın bir çox toponimləri Türkistanda təkrarlanır.

**Bir neçə əlavə söz Qardman anlayışının etimologiyası haqqında.**

Nəzərə almalıyıq ki, -man formantı, proto-türk dilində enklitik şəkilçi kimi çıxış edirdi və sonradan həm qəbilə – tarixi adlarda, həm də şəxsi adlarda, eləcə də bəzi spesifik isimlərdə (**orman – meşə, duman – duman)** isim əlavəsi kimi transformasiya olmuşdur. Bu isim əlavəsi **karaman, turkman, kuman** kimi etnonimlərdə, həmçinin türkcə **Toraman** adında da mövcuddur. Məlumat üçün qeyd edək ki, eftalitlərin xaqanlarından birinin adı **Toraman** idi – qanunu təsdiqləyən şəxs (töre). **Ən əsası, bu formant erməni və Qafqaz dillərində qeydə alınmır.**

Lakin, Qardman knyazlığının adının etimologiyasının dəqiq müəyyən edilməsi çətinlik yaradır. Çünki, türk dilində kard/gart kökü ilə etimologiya variantları az deyil. **Qardman sözünün qədim türk dilindən çıxan mənalarından biri yaşlı (və ya ağsaçlı) insan kimi verilir.** Ancaq yenə də bir neçə mümkün etimologiya mövcud ola bilər.

Qədim erməni yazarı – Egişenin aşağıdakı yazısı (məktub şəklində) mövcuddur.

O bu məktubu marzpan Sebuxtun adına göndərmişdi. Sebuxt, Vasakın məsləhətləri ilə ruhlanaraq və digər bir inandığı mənbədən aldığı, baş komandanın həqiqətən də çox kiçik bir ordu ilə irəlilədiyini təsdiqləyən doğru məlumatlarla, bütün qüvvələrini topladı, Cor ölkəsini tərk edib, Kür adlanan böyük çayı keçmək üçün tələsdi. O, erməniləri Gürcüstan sərhədində, Albaniya çarlarının qış iqamətgahı olan **Xalxal** şəhəri yaxınlığında qarşıladı. Farslar burada düşərgələrini qurmuşdular və erməni ordusu ilə döyüşə hazırlaşırdılar.

Bu sətirlərə şərh verərək, qeyd edək ki, **Xalxal Qardman ərazisində yerləşirdi və Egişenin alban çarlarının qışlaq iqamətgahı barədə verdiyi məlumatlar maraqlıdır.** Eyni adlı toponimlər bu gün də Azərbaycanda mövcuddur və təbii ki, şəhərin etimologiyası erməni dili ilə heç bir əlaqəyə malik deyil. Adətən bu cür, serpantinlərin və dairəvi cığırların olduğu dağlıq ərazilər adlandırılırdı. Bu halda, **Xalxal sözü xal– dairə, dairəvi hərəkət mənasını verən kökün reduplikiasiyasıdır.** Bu gün Quba rayonunda, Xınalıq yolunda Xalxal adlanan dik bir ərazi mövcuddur.

Həmçinin **Qardmanda yerləşən Hunan şəhərinin adı və ya erməni mənbələrində Hunarakert, türklərlə bağlıdır.**

Q.Qeybullayev "Azərbaycanlıların etnogenezinə dair" yazısında ki kimi, **Peçeneq-kollarla** bağlı olaraq, bu ərazidə olan erkən orta əsrlərə aid **Kolb** toponimi də qeyd olunmalıdır.

**M. Xorenli (II kitab, 8-ci fəsil) I əsrin ortalarına aid hadisələrlə bağlı olaraq, Gürcüstanla həm-sərhəd ərazinin hardasa Tsob, Dzor və Kanqark rayonlarının yaxınlığında yerləşən Kolb dairəsini qeyd edir.**

Favst Buzand (IV kitab, 50-ci fəsil) Dzor və Qardman dayirələri yaxınlığında **Kolb** gavarını (dairə) da qeyd edir. Qeyd edilən Dzor (erməni dilində "uçurum") Akstafaçay çayının dərəsi ilə əlaqələndirilir, Qardman isə Şəmkir rayonu və hazırkı Gürcüstanın Qardabani rayonunun bir hissəsini əhatə edirdi.

Daha sonra, VII əsrə aid "Erməni coğrafiyası"ında Quqark vilayətində, Uti bölgəsinin qərbində (bu, Urartu mənbələrində Etiuni və Sevan gölü hövzəsində yerləşən Utidir) həmin mənbəyə görə gürcülərin nəzarətində olan 9 bölgədən biri kimi və **Taşir (**türk dillərində taş – "qaya", "daş" və er – "yer" ümumi mənada, yəni "qayalıq, daşlıq yer"), həmçinin Kangar və Artagan kimi bölgələrlə yanaşı olan **Kolbopor -Kolb** və erməni dilində por "uçurum" adlı ərazi qeyd olunur. Daha sonra, XVIII əsrdə Arakel Davrijetsi Gürcüstanda Kolbay yolunu xatırladır, hansı ki, Paşiaçuq (Başiaçıg), yəni İmeretiya bölgəsinə aparır.

Bundan əlavə, V əsrə aid qədim erməni mənbələrində (Qazax–Ağstafa bölgəsində), Qardman ərazisində yerləşən **Xalxal** şəhəri **"Uti bölgəsi"** daxilində göstərilir.

Qeyd etmək lazımdır ki, erkən orta əsrlərdə Albaniyada iki Qardman bölgəsi mövcud olmuşdur. Onlardan biri ilkin olaraq Şəmkirçay və Kürəkçay çaylarının hövzəsində, yəni indiki Şəmkir və Gədəbəy rayonları ərazisində yerləşirdi. Digəri isə Dağlıq Şirvanda, Qirdımançay çayının hövzəsində yerləşirdi. Bu ərazi ilk dəfə XII əsr şairi Fələki Şirvaninin şeirlərində (1107–1147) qeyd olunmuşdur.

Maraqlıdır ki, Şəmkirçayın bir qolu ermənilər tərəfindən Krtman adlandırılmışdır. Məsələn, XIII əsr Stepanos Episkopdan oxuyuruq: “1220-ci ildə tatarlar gürcüləri Krtman çayı sahilində məğlub etdilər”. Buna görə də, erməni mənbələrindəki, Qardman əslində Qərbi Albaniyanın Qardmanıdır. Bu bölgə Favst Buzand tərəfinfən (IV kitab, fəsil 50) və “Albanların Tarixi” in (I kitab, fəsil 27) də qeyd edilir, hansında ki, "Mesrop Maştotsun Qardman hökmdarı Xurs vasitəsilə bu bölgənin əhalisini xristianlığa dəvət etməsi” haqqında məlumat verilir (II kitab, fəsil 3).

**Erkən orta əsrlərdə Qardman knyazlığı mövcud olmuş və hansı ki, Cavanşirin hakimiyyəti dövründə bütöv Albaniyanı əhatə etmişdir. Qardman qalası da həmin ərazidə yerləşirdi. Lakin Qardman dövləti zəiflədikdən sonra bu ərazi müvəqqəti ermənilərə keçmişdir** və bu səbəbdən ərəb coğrafiyaçısı İbn Xordadbeh yazır ki, “Girdman qalası ermənilərə aiddir”.

Bu qala Qardman çayının sol sahilində, Şəmkir çayının axını üzərində yerləşirdi, harada ki, XIX ə. sonlarına qədər Qrtman adlandırılan xarabalıqlar nəzərə çarpırdı. Bilindiyi qədəri ilə, mənbələrdə sonuncu dəfə bu Qardman XIII–XIV ə. Rəşid əd-Dinin yazılarında “Dəşte-Qardman” (“Qardman düzənliyi”) kimi qeyd olunmuşdur.

X.Hyubşmanın ardınca V.F.Minorski yazırdı ki, erməni Qardmanı Şəmkir çayında yerləşirdi. Lakin bu tədqiqatçıların alban ərazisi olan Qardmanı niyə erməni ərazisi adlandırdıqları aydın deyil. S.T.Eremyana görə, bu ərazi Azərbaycan SSR-in indiki Qazax rayonunun ərazisidir. Xarabalıqları Qızqalası adı ilə tanınan digər Qardman qalası, Kür və Xram çaylarının qovuşduğu yerdə yerləşirdi.

Ərəb mənbələrində bu qala Xunan-Tiflis yolu üzərində olan "Qala ibn Kandaman" (köçürənlərin səhvi "Kardaman" formasında qeyd edilmişdir) adı ilə tanınır. Bu qala qədim erməni mənbələrində 371-ci il hadisələri ilə bağlı qeyd edilir. **Favst Buzand yazır ki, Muşeq Mamikonian Albaniyadan Uti, Şakaşen, Qardmandzor və Koltu aldı (IV kitab, fəsil 50). Göründüyü kimi, Qardman məhz alban ərazisi idi, çünki o, Albaniyadan alınmışdı.**

Bir neçə söz **Qardman ərazisinin sərhədləri haqqında.**

Qeyd etmək lazımdır ki, Qardman ərazisinin ilkin sərhədləri məlum deyil. Bununla belə, bu adın günümüzə qədər Gürcüstan SSR-dəki Qardaban toponimində qorunub saxlanmasına dair şübhə yoxdur. Buradan belə nəticəyə gəlmək olar ki, Gürcüstanın indiki Qardaban rayonunun bir hissəsi o dövrdə Qardman ərazisinə daxil idi və bu bölgə müəyyən dövrlərdə Ermənistana da tabe olmuş ola bilər.

Qeyd edildiyi kimi, Qardman qalası Gürcüstan və Albaniya sərhədində yerləşirdi və onun xarabalıqları **Qız Qalası** adı ilə tanınır. Ərəb mənbələrində bu şəhər "Qala ibn Kandaman", yəni "Kardaman qalası" kimi qeyd olunmuşdur, hansı ki, Strabonun qeydlərindəki Sandoban toponimi ilə əlaqələndirilə bilər.

**Bəs, qardmanlılar etnik cəhətdən kimlər idi?**

Qardmanlılar – Qərbi Albaniyanın Qardman ərazisinin sakinlərinin adıdır. M. Kalankatuklu bu qardman-lıları eramızın ilk əsrlərində Albaniya çarı Aranın nəslin-dən hesab edir (I kitab, IV fəsil). Bəs qardmanlılar etnik mənsubiyyət baxımından kim idilər?

Yuxarıda qeyd olunduğu kimi, Sakasena Gəncə-Qazax bölgəsini əhatə edirdi və VII əsrdən etibarən Qazax-Ağstafa ərazisini əhatə etməklə Qardman ərazisinin və knyazlığının tərkibinə daxil idi, harada ki, **albanlarla** yanaşı, **utilər və saklar** da yaşayırdılar. Yuxarıda həmçinin qeyd edilmişdir ki, Gürcüstanla sərhəd bölgədə – Qazaxda, V ə. mənbəsində **"kanqarların torpağı"** qeyd olunur ki, deməli, burada kanqarlar da məskunlaşmışdılar.

Nəhayət, IX ə. ərəb coğrafiyaşünası Əl-Kufi VII əsr hadisələri ilə bağlı **Kasax** şəhərini qeyd edir. **Qazax** toponimi şübhəsiz ki, **türk mənşəli qazax etnonim**i ilə bağlıdır və bu, həmin ərazilərdə qazaxların – yəqin ki, gürcü mənbələrində qeyd olunan qədim qıpçaqların məskunlaşdığını göstərir.

VI ə. sonlarında Sasanilər şahı Xosrov Ənuşirəvanın qohumu Mihran 30 min ailə ilə birlikdə Qərbi Albaniyanın Qardman ərazisinə köçdü. Onlar burada Qardman knyazlığını yaratdılar və bu knyazlıqdan məşhur Qardman hökmdarı Cavanşirin nəslindən olan Mihranilər çıxdı (M. Kalankatuklu, II kitab, XVII fəsil).

M.Kalankatuklunun "mihr tayfası" ifadəsi mövcuddur (III kitab, X fəsil). Bu köçkünlər Albaniyada xristianlığı qəbul etdilər, lakin onların etnik mənsubiyyəti dəqiq məlum deyil. Onların əvvəlcə farsdilli olduqları güman edilir.

F.Məmmədova yazır: "Mihranilər iki nəsildən çox olmayaraq, fars olaraq qaldılar, sonra isə xristianlığı qəbul

etdilər albanlaşdılar”. 1727-ci il mənbəyində müasir Tovuz bölgəsində hansı ki, Qardman ərazisinə daxil idi, “Mihran” (nahiye) dairəsi qeyd olunub, Bərdə bölgəsində isə azərbaycanlı əhalisi olan “Mihrevan” adlı kənd mövcud olub.

Beləliklə, **Qardmanın ilkin əhalisini albanlar, saklar, kanqarlar və qazaxlar təşkil edirdi** və buna görə də “Albaniya tarixi”ndə (I kitab, IV fəsil) Qardman əhalisinin Aran nəslindən gəldiyi və yəni avtoxton olduğu bildirilir.

Bu kontekstdə **Ş.V.Smbatyanın Qardmanı “Böyük Ermənistanın Uti bölgəsinin şimal-qərb dairəsi”** hesab etməsi anlaşılan deyil, həmçinin ifşa etdiyimiz **Samvel Karapetyanın “Северный Арцах” kitabı (M., Яуза-Каталог, 2018 г.,** bax: K.İmanov “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan torpaqlarına hay-erməni iddialarının davam etdirilməsi haqqında”), hansında ki, müəllif Şimali Artsaxı haylara məxsus olmayan “Artsaxın davamı” kimi təqdim edir.

Maraqlıdır ki, “Albaniya tarixi”ndə yalnız Mihranilərin erməni ailələri ilə qohumluq bağları qurduğu qeyd olunur (III kitab, XXIII fəsil). Bu cür qeyd yalnız o halda mümkün ola bilərdi ki, Qardman əhalisi erməni olmasın.

Mənbələrdə həmçinin bir sıra türk mənşəli toponimlər də yer alır – Kanqar, Qazax, Kol, Kava (Kayadan), Kavazan (müasir Göyəzən dağı), Qaq, Tavaratapa və bir çox başqaları.

Burada qeyd etmək lazımdır ki, albanlarla türklər arasındakı əlaqələr daha əvvəl də mövcud olmuşdur. M.Kalankatuklunun “Albaniya tarixi”ində Arsvelan nəslinin “Böyük Xosrovun dövründə (erməni çarı, 211–259-cu illər

– L.Q.) Basil ölkəsindən gələn cəsur bir kişi ilə qohumluq bağları qurduğu" qeyd olunur (I kitab, 8 fə-sil).

Başqa bir yerdə müəllif yazır ki, alban knyazı Cavanşir "17 kişi ilə çayın o biri sahilinə – (yəni Kür çayından şimala – Q.Q.) keçərək, hunların düşərgəsinə gəlir və özünə çar qızını həyat yoldaşı seçir" (II kitab, fəsil 26). Eyni zamanda, "alban nahararlarının bütpərəstlərlə qohumluq bağları qurduqları üçün lənətləndiyi" qeyd edilir (II kitab, fəsil 32).

Beləliklə, albanlarla türklərin evlilik bağları alban türklərinin yeni gələn türklərlə konsolidasiyası amillərindən biridir. Burada "yad qadınlar" ifadəsi, şübhəsiz ki, bütpərəst türklərin qızlarına aiddir.

Bu da o deməkdir ki, türk tayfaları Albaniyada qarışıq şəkildə yaşayırdılar, bu isə onların alban-müsəlmanlarla daha sürətli konsolidasiyasına səbəb olmuşdur.

Eyni mənbədə vurğulanır ki, "Vraz Trdat, Qardman knyazı, xristian dininə mənsub olaraq öz adamlarına deyirdi ki, bundan sonra onlarla (yəni, Albaniya türkləri ilə) qohum olmağı rüsvayçılıq saymayacağıq".

Bir məsələyə də diqqət yetirək.

Qardmanın hökmdarı Xurs idi. Maraqlıdır ki, Xaçbulaqda (Daşkəsən rayonu) xaç "müqəddəs yer" yerləşirdi ("Xaç" ümumilikdə hər hansı bir ibadətgahı ifadə edir) və harada ki, əfsanəyə görə, Qardmanın hökmdarı Xurs dəfn olunmuşdur.

Keçmişdə bu yer həm ermənilər, həm də azərbaycanlılar tərəfindən müqəddəs sayılırdı. Bu fakt göstərir ki, xaça ibadət edən azərbaycanlılar islamı qəbul etməzdən əvvəl xristian olmuş və albanların bir hissəsi kimi etnik olaraq, alban adını daşımışlar. Xurs – tanınmış addır. Belə ki, 450-451-ci illər hadisələri ilə əlaqədar olaraq Alban

bölgəsinin Lpina hakimi Xursun da adı çəkilir. Bu ad həmçinin türk mənşəlidir. Xəzərlərin Zirtkik (yəni Zirteqin) Xursan adlı bir sərkərdəsi olmuş və o, Albaniyaya yürüş etmişdir. Xurs şəxsi adı isə xurs etnonimi ilə əlaqəlidir.

## III. Bizans və Utik (Qardman) əlaqələri haqqında

Yazılanları ifşa etmək üçün Bizans imperiyasının başçısı K.Baqryanorodnıyın (Parfirogenet) b.e.ə. 912-959-cu illərdə yazdığı "Seremoniyalar (Mərasimlər) kitabı"na müraciət edək, xüsusi nəzərə alaraq, həmin yazıya hay-erməni saxtakarlığını (təftişini) tətbiq etmək mümkün olmayıb. Bu əsərin II kitabının 48-ci fəslində imperator gələcək xələflərinə qonşu dövlətlərə müraciətlərin nümunəvi formasını verir. Bu yazının rus dilinə tərcüməsi olmadığı səbəbindən ingilis dilindəki "Xarici dövlətlərə yazılı formada istifadə olunan müraciət" hissəsindən istifadə edirik.

Maraqlıdır, ki, burada üç Sevordik arxontlarına (hökmdarlarına) nümunələr göstərilir, özü də "Armeniya" ünvan işarəsi olmadan, halbuki, bunlardan öncə gedən müraciətlərdə "Armeniya" coğrafi göstəricisi işlənilir və bunlar erməni qriqorian dünyası (qrupu) kimi təqdim edilir.

**Sevordiklər kimlərdir?**

Məşhur albanşünas Sukerman həmin yazıya şərh verərkən, öz kitabında "Travaux et Memories" (fransız dilində) qeyd edir ki, Sevordiklər dövlətlərinin Armeniya çarına heç bir tabeliyi olmayıb, ancaq Sevordiklərin xristian olduğunu təsbit edir. Bununla yanaşı, o yazır ki, bu səbəbdən onlar "erməni qrupuna daxil edilmişdilər və həmin dövr (IX-X əsr) Kürün şimalında çarı və çaydan cənubda

böyük knyazı olan Qafqaz Albaniyası şərti birlik toplumu kimi göstərilir (yəni dağılmaq üzrə idi)”.

**Beləliklə, Albaniyanın Uti vilayətində yerləşən Sevordiklərin arxontlarına (hökmdarlarına) ünvanlanan diplomatik yazışmalarda “Armeniya” ön-sözünün olmaması onların nə etnik, nə konfessional, nə də siyasi cəhətdən Armeniya ilə bağlı olmadıqlarını, Albaniyaya da daxil olmadırlarını və tamamilə müstəqil olduqlarını göstərir.**

**Bizans sarayının diplomatik yazışmalarında Sevordiklərin ünvanlarının ayrıca göstərilməsi Utik ərazisindəki bu tayfa birləşməsinin dominant rolunu və əhəmiyyətini göstərir (yeri gəlmişkən, burada Dədəvəng (Xudavəng) daxil olmaqla, bir sıra xristian monastır kompleksləri yerləşir) və bu amil sonrakı araşdırmalarımızın predmeti olacaqdır**.

Konstantin Porfirogenetin diplomatik yazışmalarında qeyd olunan Sevordik-suvarların yaşadığı Utikə diqqət yetirəcəyik və Sevordiklərin inancları və onlardan qalan maddi və mədəni irsi araşdıracağıq. Bu məsələləri təhlil edərkən, nəzərə alacağıq ki, **birincisi**, əksər kilsə və monastırlar türk-xristian əhalisinin üstünlük təşkil etdiyi bölgələrdə inşa edilmişdir və **ikincisi**, onlar konfessional olaraq, bir çox hallarda ilkin vəziyyətdə qriqorian-monofizit deyil, diofizit, daha doğrusu, pravoslav olmuşlar, xalkidonitlər idi. Burada xristian türklərin yaşadığı ərazidə yerləşən Dədəvəng (Xudavəng) monastırı var idi.

Xüsusən Suvarlar/Savirlər, Sabirlər/Subarlar, erməni salnaməçilərinə görə, Sevordiklər və ərəb mənbələrində – Savardiya (Siyavurdiya) erməni xalq etimologiyasına görə, "qara oğullar" (sev – qara, ordi – oğul) deməkdir. **Erməni mənbələri Uti vilayətinin sakinlərini – utiləri**

**Sevordiklər adlandırırdılar, sevordiklər isə xristian türkləri olmuşlar, özü də "Uti sakinləri – Sevordiklər ermənilərin xarici düşmənləri arasında tanınırlar**". Ərəb coğrafiyaçısı əl-Məsudinin qeydlərinə əsasən, "...Kür çayı axır ...Tiflisin sərhəd vilayətinə çatır, onu ortadan kəsib keçir. Sonra ermənilərin bir qolu olan Siyavurdiya torpaqlarından axır". Məşhur alim Sukermanın qeyd etdiyi kimi, onlar Utinin Alban vilayətində yerləşdilər, ilk dəfə Şəmkirdə qarşılaşırlar, "lakin bu, heç bir halda zəbt deyil".

Əlavə edək ki, tarixi dəlillərə görə, Dədəvəng (Xudavəng) monastırı Kol (Kolanılar) türk tayfalarının etnonimi ilə əlaqəli olan Mets Kolmank (Böyük Kolmanlar) torpağında, Utikdə yerləşmişdir.

Mənbələrə görə, erkənxristianlıq dövründə Cənubi Qafqazdakı türklərin sayı olduqca təsiredici idi. Belə ki, Bizans müəllifi Menandr Protektor məlumat verir ki, imperator II Tiverin (582-ci ildə vəfat edib) dövründə "Roma sərkərdələri Albaniyaya hücum etdilər, Savirlər və digər xalqlar arasından girovlar götürdülər" və bu qeyd yalnız türk-savirlərin Albaniyanın özündə böyük təsirinə, sayına və gücünə dəlalət edir. Üstəlik, xüsusi olaraq adı çəkilən Savirlərdən əlavə, mənbələrdən belə çıxır ki, digər türk qrupları **kəngərlər, abdal-eftalitlər, avarlar, onoğurlar, saroğurlar, utiqurlar, barsillər, bulqarlar** və s. Olmuşdur.

Aydındır ki, islamdan əvvəlki dövrdə Cənubi Qafqazdakı türklərin heç də hamısı xristianlığı qəbul etməmişlər, lakin böyük hissəsi xristian olmuşlar. Elə həmin Menandr məlumat verir ki, imperatorun narazılığı ilə əlaqədar "Roma hərbi rəisləri yenə də Albaniyaya girdilər, **savirləri və albanları Kir** çayının bu tərəfində məskun-

laşmağa və bundan sonra Roma ölkəsində qalmağa məcbur etdilər". Bu nə deməkdir? Bu, o deməkdir ki, romalılar albanların və savirlərin hərbi müqavimətinin qarşısını almaq istəyində idilər və həmçinin **hər iki tayfa Albaniyanın hakim əhalisi olmuşdur** (**V-VI əsrlərdən** söhbət gedir).

Ərəb salnaməçisi ibn-Haukaldan qalan bir məlumatda göstərilir ki, hansısa bir **hökmdar Senaxerib ibn-Suvar Qarabağın Xaçın adlı diyarı da daxil olmaqla, Albaniya ərazisinin bir hissəsinin hökmdarı olmuşdur**. Xaçın hökmdarlarının vilayətində Dədivəng, Gəncəsar və digər monastırlar var idi. Elə həmin ərazidə albanların tarixinin müəllifi M.Kalankatuklunun doğulduğu Kalankatuk kəndi yerləşirdi.

# IV. Qardmanda yaşamış sabir/suvar/sevordik və digər türk mənşəli etnoslar haqqında qısa məlumatlar

**Sabirlər-suvarlar (sevordiklər) haqqında söhbət açaraq, K.Porfiregentin diplomatik yazışmasında xatırlanan Sabirlər-suvarlar (sevordiklər) və digər türk mənşəli etnoslar haqqında daha dolğun məlumat verəcəyik.**

Subarey tayfalarının (suvar, sabir) tarixi Şumer mədəniyyəti və ondan əvvəlki dövrlərin ən qədim dərinliklərinə qədər gedib çıxır. Bunun üzərində çox qısa şəkildə dayanaraq, qeyd edək ki, mütəxəssislərin fikrincə, Ubeid mədəniyyətinin daşıyıcıları subareylər olmuşlar, onlar Şumerin şimalında Subar ölkəsində yaşayırdılar. Görünür bu səbəbdən Şumerlər hesab edirdilər ki, onların tarixi iki icmadan – Eredu (sırf Şumer yaşayış məskəni) və Subardan başlanmışdır. Belə güman edilir ki, eramızdan əvvəl IV minilliyin əvvəllərində şumerlər subarlarla qarışdılar, subarların qalan hissəsi şimalda yaşamağa davam etdilər, Şumerlər onları Subar, özlərini isə Subar xalqı adlandırırdılar.

Daha sonra Subarların yaşayış zonası Yuxarı Dəclə boyunca, Şimali və Mərkəzi Zaqros torpaqları çərçivəsində idi və Akkad dilində Subartu-Şubartu adlanırdı. Bəzi məlumatlara görə, eramızdan əvvəl III minilliyin sonunda Bibliyada Xoreylər olaraq tanınan xurrilərlə qarışdılar və o vaxtdan bəri Mesopotamiya mənbələrində Subarey / Şubarey adlandılar.

Professor C.Kempbellə görə, subarlar elə hattilərin (xetteylər) özüdür və onların yaşayış arealının genişəndirilməsi Kedorlaomer, yuxarıda qeyd olunduğu kimi, “Su-

bartu adamları adını almış ”Xubur-Subarti adlı sülalə tərəfindən birinci Hatt imperiyasının yaradılması ilə bağlıdır. **C.Kempbell hatt-subarları “Socho” və ya Sakların ulu əcdadları hesab edirdi. Hattiləri isə turanlı qəbilə hesab edirdi.**

Beləliklə, qeyd etmək vacibdir ki, subareylər hattilər və saklarla qohum tayfadır (C.Kempbell, “Hittitlər. Onların kitabələri və tarixi”, Monreal, Toronto, Williamsoon&Co., 1890). Hatların (xetteylərin) və Sakların (Skiflərin) qohumluq mənşəyi barədə nöqteyi-nəzər prof. R.Fessendendə də (Reginald Aubrey Fessenden, “The deluged civilization of the Caucasus Isthmus”, Boston, T.J.Russel Print, 1923) göstərilir. Ətraflı məlumatlar nəşr olunmuş bir sıra digər kitab və broşurlarda da əldə edilə bilər (K.İmanov, "Qafqaz Albaniyası və tarixi-coğrafi aspektdə genetik analiz", B., Əqli Mülkiyyət Agentliyi, 2016, 2019-cu illər, həmçinin "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya “Armeniya” ərazisinin əsl sakinləri haqqında”, B., Əqli Mülkiyyət Agentliyi, 2018, 2019-cu illər).

Bu məlumatlarla kifayətlənib Qafqaza, bu ərazilərdəki qonşu bölgələrə və subarlara keçək.

Qafqazda və Qara dəniz bölgəsindəki Sabir-Suvar tayfaları ən qədim zamanlardan xatırlanır. Antik dövrlərin mənbələrindən başlasaq, onda Herodotda suvarlar saspirlər (Σάσπειρες) kimi keçir və kolxlar və midiyalılar arasında lokallaşdırılır. Yunan müəllifi Eliy Herodianda (eramızın II ə.) onlar "**Sapirlər** və ya **Saspirlər**" kimi xatırlanırlar. Apolloniy Rodossun "Arqonavtika" (e.ə. III ə.) əsərində onlar **sapir**lər (Σαπειρες) olaraq keçirlər və müəllif qürurlu epiteti tətbiq edərək, Qara dənizin cənub-şərq onlara sahillərində – behirlərlə kolxlar arasında yerləşdirir.

Diodor Siciliyalı Argonavtların yürüşünü təsvir edərək, Kolxida çarlarının saraylarının ucaldığı Subaris (Συβαριν) adında şəhəri qeyd edir. Apolloniy Rodosdan yuxarıda gətirilən hissədə çar şəhəri Kolxidanın adı Kutaye (Κυται-Cytea) olaraq verilmişdir, ehtimal ki, bu xettlərin adı ilə bağlı ola bilər: qeyd edildiyi kimi, erkən Subarlar bir zamanlar Xett Konfederasiyasına daxil olmuşlar.

Türkiyənin Ərzurum vilayətindəki tarixi İspir (Gürcü dilində Speri-სპერი, ermənicə Sper-Սպեր) bölgəsinin adı Sapirlərlə bağlıdır. Bu ərazilər Assuriya mənbələrində Kimmerlərin torpaqları kimi təsnif olunur, yəni daha sonralar Subarlar Mesopotamiya mətnlərində Kimmerlər adlanır. Bu yerlərdə olan Ksenofont (M.ö V-IV əsrlər) öz Anabazisində Sapir adını çəkmir, lakin həmin ərazidə, daha dəqiq desək, Arpasu (Αρπασο)/Arpaçay (Axurian) çayı hövzəsində skifinləri qeyd edir. Onlar isə hər ehtimala görə Herodotun saspirləridir. Bu da onunla təsdiq olunur ki, sonrakı antik müəllif Prokopiy Kesariyski (eramızın VI ə.) Fasis çayı hövzəsindəki (müasir Çorox) "Savir adlanan hunlar"ı sadalayır və hansılar ki, Herodotun saspirləri və Apolloniyin sapirləridir.

İordanda (VI ə.) Savirlər artıq ən qüdrətli Hunlar kimi çıxış edirlər. Bizanslı Stefan (VI ə.) “Sapirlər – Ponti vilayətində indi “β” hərfi vasitəsilə “Sabirlər” adlandırılan xalqdır” qeydini edərək, əhəmiyyətli bir istinad edir. Roma-Bizans müəlliflərinin bir çoxu Sabir-Subarey (Savrlar, Saubrar, Saurlar) tayfalarını, Anadolu da daxil olmaqla, Avrasiyanın müxtəlif yerlərində qeydə almışlar.

Bizanslılar və sasanilər onları çox tez-tez öz müharibələrində istifadə edirdilər. Sonralar bizanslılar və onların ətrafında yaşayan xalqlar Dunay ətrafı ərazilərdə yaşayan bu subarların bir hissəsini türk, ölkələrini isə Türkiyə

adlandırdılar. Onlar haqqında Bizans imperatoru Konstantin Porfirogenetin (IX əsr) "İmperiyanın idarə edilməsi" əsərində bəzi vacib məlumatlar vardır. O yazırdı ki, Dunay ətrafı türkləri hələ "bilinməyən səbəbdən savart-asfallar çağırılırdılar".

Porfirogenet tərəfindən sadalanan yeddi türk-sabart tayfalarından ikisi fin-uqor, beşi isə türk mənşəli idi. Pannoniya türk-subarlar erkən macarların, yəni madyarların əsas özəyini təşkil edirdilər.

Tarixi məlumatlar göstərir ki, əvvəlcə Ərsak və Utikdə məskunlaşmış subarların (savirlərin) bir hissəsi indiki Macarıstan ərazisinə köç etmişlər. Bu baxımdan xatırlamaq yerinə düşər ki, macar – **madyarların yerli macar dilində Macarıstanın adı Magyaro<u>rsag</u> kimi tələffüz edilir və yazılır**. Burada "Ərsaq" və "Orsag" terminləri arasındakı oxşarlıq açıq şəkildə gözə çarpır. Üstəlik, “Magyarorsag” “Magyarorszag” şəklində, yəni “s” hərfinə rus dilindəki “ts” hərfi kimi tələffüzü gücləndirən “z” əlavə etməklə, yazılır, daha doğrusu, səsləndikcə yazılır. “Magyarorszag” sözünü iki hissəyə böldükdə: “Magyar + orszag”, tərcümədə isə “Macarıstan ölkəsi (ölkələri)” alınır.

Görünür, böyük Pliniy (b.e. I əsri) və Pomponiya Mela (b.e. I əsri) tərəfindən eramızın əvvəlində Qara dəniz ətrafı bölgədə yaşayan skif-sarmat tayfaları arasında qeyd olunan türklər elə həmin savir-subarlar və ya onların qollarından biri olmuşdur. Çünki Pliniy və Melasapirləri heç bir yerdə qeyd etmirlər, baxmayaraq ki, həmin müəlliflərin hər ikisi Şərqi Avropanın skif-sarmat tayfalarının bütün adlarını diqqətlə sadalamağa çalışırlar.

Bir halda ki, sabirlər/savirlər İordanda "qüdrətli hunlar" kimi xatırlanırlar, qısaca olaraq sabirlərin Hun ittifa-

qındakı iştirakı barədə öz mülahizələrimizi bildirəcəyik. Savirlər haqqında ilk məlumatın 463-cü il Priskov tarixi və ya Prisk Paniyskinin təsvirində olması barədə tarixşünaslıq ədəbiyyatında mövcud olan fikirləri yanlış və həqiqətdən uzaq hesab edirik. Yuxarıda qeyd edildiyi kimi, savirlər Qafqazda Ptolemey tərəfindən "Coğrafiya" əsərində Aorslar və pagiratlardan sonra qeydə alınmışlar, savirlər daha əvvəlki mənbələrdə də qeyd olunurlar.

İordanda Hun konfederasiyasının özəyində altsiaqirlər və savirlər olduğu vurğulanır, V əsrdə isə Prisk Paniyskiyə görə, savirlər fars-bizans müharibələrinin fəal iştirakçıları olmuşlar.

**Müəyyən bir tarixi mərhələdə savirlərin hakim qüvvəyə çevrildiyi dönəmdə Hun İttifaqının hansı tayfalar daxil idi?**

Menander Protektor, Qeysəriyyə Prokopiy, Feofilakt Simokattının verdikləri məlumatlara görə, Hun ittifaqının əsas tayfaları utiqur, kutriqur və onoqurlar olmuşlar. A.N.Bernştam "Hunlar tarixinin oçerki"ndə (L-d, 1951 il) hesab edirdi ki, Hun-Avar ittifaqı ilə əlaqəli əsas tayfa birləşmələri uturqurlar, kuturqurlar, sabirlər, daha sonra bolqarlar (Şərqi Avropa üçün) və eftalitlər və ya ağ hunlar (Orta Asiya üçün) olmuşlar.

V.V.Radlova istinad edən Bernştama görə, bütün müxtəlif növ uyqurlar – kuturqurlar, uturqurlar, saraqurlar və onoqurlar – əslində Uyğur tayfalarının (burada "gur" əsas, "kut" (xoşbəxt), "ut" (od və ya ot)) qolları və parçalarıdır. "Uturqurlar və kuturqurlar hun-kimmerlər adlanırdılar və Hun tayfasının iki qolunu təşkil edirdilər". Uturqurların yaşayış arealı Donun Azov dənizinə töküldüyü yerdən Kimmeriya Bosforuna qədər olan torpaqlar, Kuturqurlarınkı isə Tissa ilə Dunay arasında olmuşdur.

Bernştam da Y.Klaprota istinad edərək ("Tableaux historiques de l'Asie", Paris, 1825) yazmışdır ki, "Sabirlər və ya  Savirlər bir neçə soydan bir "millət" halına gəlmişlər".

V əsrin ortalarında (eramızın 456-cı ili) Şimali Qafqazda yaşayan Savirlər Onuqurların birbaşa tabeliyi altında olan Avar Kaqanatlığının tərkibinə daxil olmuşlar. V.V.Bartold isə Suvarları Bulqarların bir hissəsi hesab edirdi (Seçilmiş əsərləri, V. I-IV cildlər).

453-cü ildə Atillanın ölümündən və Hun İttifaqının Qafqazda tayfalara bölünməsindən sonra hunlar və bulqarların qalıqlarının daxil olduğu Savir konfederasiyasının hökmranlığı  başlandı. Onlar "hun-savirlər", "hunlar" və "savirlər adlanan hunlar" kimi tanınırdılar və bölgədə ən güclü tayfalardan biri oldular, Dərbənd keçidindən ötərək Ermənistana basqın etdilər və Qalatiya, Kappadokiya və Pontu qarət etdilər. Onların ordusu 120 min nəfərdən ibarət idi [Feofan İspovednik, "Xronoqrafiya"].

Artıq qeyd etdiyimiz kimi, Suvarlar Xəzər ətrafının şimal-qərbində  yaşayırdılar və Hunlarla qaynayıb qarışırdılar. Q.Qeybullayev hesab edir ki, Suvarlar Albaniyaya bir neçə dalğada nüfuz etmişlər: birincisi – erkən (Şaberan / Şabran toponimi) dövrlərdə – V əsr, ikincisi – VI-VII əsrlərin ikinci yarısında (Qumilyov Suvarların 552-ci ildə Albaniyanı tutduğunu yazmışdı). A.Y.Krymskiyə görə, Suvarlar Qəbələ rayonunda və Albaniyanın şimal-qərbində yaşayırdılar. Albaniyadakı Suvarlar xristianlığı qəbul etdilər (bax: ərəb müəlliflərinin Şaberanda xristianların yaşadıqlarına dair məlumatı). Belə fərz edirlər ki, Şabranın meydana gəlməsi Savromatlar – Sarmatlar arasında olan Suvarlara aiddir (K.Kremen Savromat etnoniminin Savar / Suvar etnonimindən əmələ gəldiyini yazmışdır).

**VI əsrin ortalarında Sabirlər, Qafqazın ən qüdrətli və çoxsaylı xalqı olaraq, bütün Şimali Albaniyanı, daha doğrusu, Şirvan və Aranı tutdular.** Dərbənd-Qəbələ onların məskənlərinin mərkəzi oldu və burada 100 ildən çox qaldılar (Mernert, "Şərqi Avropanın çöl zonasındakı köçəri tayfalar", "SSRİ tarixi oçerkləri", M., 1958-ci il).

Qeyd etmək yerinə düşər ki, Albaniyada əvvəlcə Hun tayfaları (II-IV ə.), daha sonralar Onoqur birliyi adlanan tayfalar və ya Onoqurlar başda olmaqla Hun-Bulqar ittifaqına daxil olan tayfalar (IV əsrin sonları, V əsrin ikinci yarısının ortalarına qədər) və nəhayət, Sabir birliyinin tayfaları (V əsrin ikinci yarısı - VI əsr) yerləşmişlər.

Bəlli olduğu kimi, 657-659-cu illərdə Qərbi Türk Xaqanlığı süqut etdi, Dağıstanın şimal-şərq ətəklərində isə paytaxtı Varaçan olan Suvar dövləti meydana gəldi (inersiyaya əsasən, erməni mənbələri onu Hunlar Çarlığı, ərəb salnaməçiləri isə Cidan adlandırmağa davam etdilər).

Varaz-Trdat Qafqaz Albaniyası taxtına oturduqdan dərhal sonra (670-706-ci illər) knyaz Alp-İlutuerin başçılıq etdiyi Hun-savirlərin çoxsaylı qoşunları Albaniyaya soxuldular və Qafqaz dağlarının ətəklərindəki bölgələri və Kapalak qavarını viran qoymağa başladılar. Alp-İlutuer özü Kürü keçib Uti qavarına getdi, mal-qaranı qovub aparmağa, əsirləri qarət etməyə və aparmağa başladı. Sonra Hun-savirlər Lpinka sərhədləri yaxınlığındakı vadidə düşərgə qurdular. Varaz-Trdat barışıq təklifləri ilə etibarlı adamını onun yanına göndərdi və barışığa nail oldu, Hun-savirlər isə öz ölkələrinə qayıtdılar [29. II kitab, M.Kalankatuklu "Aluank ölkəsinin tarixi"].

737-ci ildə ərəb sərkərdəsi Mervan erməni knyazı Aşotun köməyi ilə Hunlar torpağında yürüş etdi və paytaxt Varaçanı ələ keçirdi [Gevond Vardapet, "Xəlifələrin tarixi"], [Böyük Vardan "Ümumi Tarix"]. Burada “Dağıstan hunları” dedikdə sabirlər nəzərdə tutulurdu.

Hunlar artıq vahid bir etnos və vahid bir hərbi ittifaq deyildilər: ətalət üzrə onları savirlər adlandırırdılar və belə hesab edilir ki, onların paytaxt şəhəri Balancar-Varaçanın 737-ci ildən sonra öz mövcudluğunu dayandırmışdır. Savirlər Dona getdilər, bulqarların bir hissəsi isə Volqaya getdi və burada Volqa Bulqarıstanın özəyini təşkil etdi, qonşu tayfalar üzərində siyasi nəzarət funksiyası da ona keçdi. Eyni zamanda, VIII əsrin sonunda bulqarların böyük bir qrupu Don çöllərində yerləşib qaldı. IX əsrin sonu X əsrin əvvəllərində Volqa bulqarlarının Elteberi Barsillərə və Savirlərə də nəzarət etməyə başlayır [33. A.V.Komar “I minilliyin II yarısının Orta Volqa bölgəsinin erkən orta əsr köçəri abidələrinin xronologiyası haqqında müzakirəyə”, Samara, 2010-cu il].

VIII əsrdə hərbi-siyasi vəziyyət getdikcə daha çox Xəzər dövlətinin xeyrinə dəyişir, o, həm Suvar, həm də Bolqarlara xərac təyin edir. Paytaxtı Terekin aşağı hissəsində, Səməndərdə olan Suvar ölkəsi Xəzər federasiyasına çevrilir. Daha sonra (IX əsrin ikinci yarısı) İbn Xordadbeh Suvar çarlığını şimalda, İtilin yuxarı hissəsində qeyd edir.

**Erməni mənbələrində Sevordiklər kimi xatırlanan Albaniyada məskunlaşan Suvarlara gəlincə, onların ən kompakt hissəsi xristianlığı qəbul edərək, Utikdə yerləşdi və V.F.Minorskinin ifadəsincə, (“Şirvan və Dərbəndin tarixi”, Ararat, 1897-ci il), "ermənilərin xarici düşmənləri arasında mövcud oldular".**

Qeyd etmək lazımdır ki, tarixi salnamələrdə Xəzərləri tez-tez suvarlar adlandırırdılar (Ligeti LA magyar. 345.1.; Nemeth Gy.A honfoglalo. 192.1.; Bartha AA magyar. 519.1.; Erdelyi İ.A magyar. 25-26.1.), bu da Subar tayfalarının özlərinin Xəzər Kaqanatlığında çoxsaylı olmasından və təsirindən xəbər verirdi (Honfoglalo. 192.1.; Bartha A.A. magyar. 519.1.; Erdelyi İ.A. magyar. 25-26.1.). Etnikon "sabartlar"ı ("savartlar") IX əsrin ikinci yarısının ərəb tarixçisi Balazuri ərəbcə "**as-savardiya**" (təqribən 892-ci il): Z A.I.S. 220-221, 233-234), erməni qaynaqlarındakı "**Sevordik**" etnikonu, eləcə də Macar Anonim mənbəsindəki Latın antroponimi "**Zuard**" (SRA. İ.P 41, 75, 77, 78, 80, 90, 92, 93) və XIII əsr müəllifi Şimon Kezai (İbid, R. 160, 167). ilə eyniləşdirir.

Aydındır ki, Subar-Sabirlərin Anadolu və Qafqazdakı tarixi izi çox güclü olmuşdur. Bunlar həqiqətən sonradan Avrasiyanın geniş ərazilərinə yayılan qüdrətli Hun tayfaları olmuşlar. Hətta Bizanslıların dövründə də onlar Anadoluya qayıdaraq orada yerləşdilər.

Subarlar özləri Azərbaycan tarixində və bölgə türklərinin etnogenezində mühüm rol oynamışlar. **Hər halda, qrabar mətnlərində Sevordik kimi keçən Albaniya vilayətinin ikinci adı Uti məhz Suvar tayfaları ilə bağlıdır. Erməni mənbələri onları tez-tez hon adlandırırlar. Bizans müəllifi Menander Protektorda Savirlər Albaniyanın ən çoxsaylı tayfası kimi təqdim olunur. O, qeyd edir ki, "Tiveriy dövründə Romalı sərkərdələr Alvaniyaya hücum etdilər, Savirlər və digər xalqlar arasından girov götürdülər və Bizansa qayıtdılar".**

Onlar Albaniya ərazisində, Qazax-Qarabağ bölgəsində və massaget-maskutların ərazisində Kürdən Dərbəndə qədər geniş şəkildə məskunlaşdılar. Plutarxın

bəhs etdiyi azad Araz ətrafı tayfaların Subarey mənşəli olması mümkündür. Eyni adlı şəhər Türküstanda da mövcud olmuşdur. Maskut vilayətindəki tarixi Şabran şəhəri də öz adını onlardan götürmüşdür. Maraqlıdır ki, Bizanslı Ssuda Teofan Bizanslının salnamələrindən bir parça misal gətirərək, qeyd edir ki, "Tanaidin şərqində qədim dövrlərdə Massagetlər adlandırılan Türklər yaşayır. Farslar öz dillərində onları kermixionlar adlandırırlar.

**Erkən antik müəlliflərin skif-sabirləri, sonrakı antik müəlliflərin hun-sabirləri əslində elə orta əsr müəlliflərinin bəhs etdikləri Türk tayfası olan subar-sabirlərdir.**

Bəzi Türkoloqların təsəvvür etdikləri kimi Subar Türklərin dili Çuvaş dilinə yaxın deyildi. **Mahmud Kaşğari onların ləhcəsini aydın şəkildə belə təsnifləşdirir: "Bulqar, Suvar, Bajanak və daha sonra Rumun ətrafına qədər olan ləhcəyə gəldikdə, bu, bir növ kəsilmiş sonluqlarla türkcədir". Mahmud Kaşğarinin subarlarla bağlı qeydlərinə əsasən, onların ləhcəsi Oğuz və qərbi qıpçaq ləhcələri arasında olmuşdur**.

**Orta əsr Subarlarının ən güclü qolları Qarabulaq (Qara Bulqarlar) və Karamanlar tayfalarıdır.** Qafqazın Qara-bulaq adlı toponimlərinin çoxu (Qarabağdakılar da daxil olmaqla) Subar-Sabirlərin eyniadlı qolunun adı ilə bağlıdır. Qarabulaqlılar Çerkezlər, Kabardinlər və Vaynax xalqlarının etnogenezində əhəmiyyətli iz buraxmışlar. Sonrakı orta əsrlərdə xristian inancını qəbul etmiş Subar-Sabirlərin çox hissəsi rumınlar, Balkan xalqları, yunanlar, ermənilər və s. arasında əriyib yox olmuşlar. Onların ilk madyarların əsasını təşkil etdikləri barədə yuxarıda qeyd olunmuşdur.

Bəllidir ki, Karamanlı Karamanda (Konya, Ermenak) və Mərkəzi Anadoluda (Kappadokiya) yaşayan və pravoslav dininə sitayiş edən türkdilli etnik bir qrupdur.

Karamannaməyə və 1423-cü il Oğuznamə müəllifi Yazıdcıoğluna əsaslanan belə bir versiya var ki, Karamanidlər 1230-cu ildə monqol basqınları səbəbindən Arrandan Sivasa köç edən Afşarlardan (yəni Oğuzlardan) gəlmişlər. Həmçinin hesab edirlər ki, onlar Salur və ya Bayandur soyundan törəmişlər.

Bu baxımdan, suvarlar / savirlər və Qaramanlar arasındakı etnik əlaqənin olmasına dair bir faktı burada qeyd etmək yerinə düşür. Erməni tərəfinin Çarekvank adlandırdığı Vəng Gədəbəy rayonunda, Söyüdlü kəndindən 7-10 km aşağıda, Şəmkir çayının sahilinə yaxın bir yerdə yerləşir. Yerli əhali bu ibadətxananı Maysara adlandırır. "Çarek" sözünün erməni dilindən tərcüməsi bizə bəlli deyil.

Ola bilər ki, bu söz "çar" kökündən olan və mənaca "pis, zalım, arıq, qüsurlu, məkrli, bədbəxt, cani" və s. mənalarda işlədilən törəmə sözdür. Erməni tərəfinin iddiasına görə, monastır öz adını Vəngin özündən xeyli yuxarıda yerləşən eyni adlı Çarek qalasından götürmüşdür. Xalq arasında bu qalaya Namərd-qala da deyirlər ki, bu da ermənicə "çar" sözü ilə həmahəng səslənir. Bəllidir ki, bu, Uti ərazisidir, utilərin – sevordiklərin (suvarların) qədim yaşayış məskənidir.

Bu monastırın tikilməsi ilə bağlı Arakel Davrijetsidə (Təbrizli) maraqlı məlumatlar vardır: "...və Şamxor [Şəmkir – K.İ.] dərəsindən olan Karamanents adlı bir knyaz ailəsindən [nəslindən] olan yepiskop David – Böyük biyabanlığa gələrək burada yaşadı. Sonra oradan gedərək Şamxor [Şəmkir – K.İ.] dərəsinə gəldi və burada Çarekaqet adlanan sovməətikdi, burada bu günə qədər də onun

çoxsaylı məsləkdaşları yaşayırlar və çox sərt qanunları və qaydaları mövcuddur, yepiskop David isə orada vəfat etmiş və dəfn olunmuşdur. Və orada yaşayan və Tanrıya pənah gətirən, eləcə də oradan gedən çoxlu-çoxlu insanlar başqa yerlərdə **sovməələrin** və monastırların əsasını qoydular".

Erməni tərəfinin məlumatlarına görə, sözügedən yepiskop XVII əsrdə yaşayıb və monastır da o dövrdə tikilmişdir. Belə çıxır ki, hələ o dövrdə Qardman-Utik-Sevordikdə etnik köklərini yaxşı xatırlayan xristian Qaramanlar yaşayırdılar. Arakelin verdiyi məlumata görə, həmin David Tatev monastırında oxuyub. Ancaq erməni mətnlərində bu mərkəz tat məbədi kimi qeyd olunur. Maraqlıdır ki, azərbaycanlıların köhnə nəsli bu monastırı "Tat Evi" adlandırırdı. Yəni Tatev adının özü Azərbaycan (türk) mənşəlidir, daha doğrusu, erməni Tat evinin və ya tərki-dünya biyabanlığın türk versiyasıdır.

Qaramanlı xalqının mənşəyi haqqında başqa bir versiya da var.

Başqa bir versiyaya görə, onlara dil yaxınlığı olan qıpçaq türklərinin bir hissəsi Karamanlı xalqının tərkibinə daxil olmuşdur, daha doğrusu, onların, eləcə də Borçalı azərbaycanlılarının qıpçaq mənşəli olması ehtimal edilir.

Bu gün yunanlar arasında yaşayan Karaman xristianları öz türk mənşəyini xatırlayırlar. Məşhur yunan nəsli Karamanlis hələ Bizans dövründə yunan xristianlığını qəbul etmiş karamanların törəmələridir. Daha çox armin-karavlaxlar (aromınlar, karavlaxlar, kutsovlaxlar, makedon rumınları və s.) kimi tanınan bugünkü Balkan Qarabulaxların bir hissəsi dillərini dəyişdirsələr də, təsərrüfat işlərində bu günə qədər köçəri maldarlıq fəaliyyətini davam etdirir və bununla qismən də olsa özünəməxsusluqlarını

qoruyub saxlaya bilmişlər. Bir vaxtlar böyük bir xalq olan Balkan armin-karavlaxlar bu gün Makedoniya, Albaniya, Yunanıstan, Bolqarıstan, Serbiya, Rumıniyada səpələnmiş halda yaşayırlar.

Hun tayfaları olan utirqurlar və kutirqurlar da subarsavilərin qolları olmuşlar. Prokopiy Qeysəriyyə qeyd edirdi ki, Meotiddə yaşayan utirqurlar və kutirqurlar əvvəllər kimmerlər adlanırdılar.

Sonuncu adların yaranması onunla əlaqədardır ki, hunların hökmdarlarından birinin Utirqur və Kuturqur adlı iki oğlu var idi. Atalarının ölümündən sonra onlar yeni utirqurlar və kutirqurlar tayfasını yaratdılar. **Alimlər belə hesab edirlər ki, utirqurlar və kutirqurlar qədim bolqarların (bulqarlar) etnik tərkib hissələrini təşkil etmişlər.** Həmçinin qeyd edək ki, Bizans və Şərq müəlliflərinin fikrincə, xəzərlər və bulqarlar elə eyni xalq olmuş, eyni dildə danışmışlar.

“...Hun tayfalarının çoxu saqinlərin arxasında məskunlaşdı. Buradan uzanan ölkə Evlisiya adlanır; onun həm sahilboyu, həm də və daxili hissəsi "Meotiy Bataqlığı" adlanan yerə və "Bataqlığ"a tökülən Tanais (Don) çayına qədər barbarlar tərəfindən tutulmuşdur. Bu "Bataqlıq" özü Evksinski Ponta tökülür. **Bizans tarix elminin avtoriteti Qeysəriyyəli Prokopiy yazırdı ki, Azov dənizi və Don çayının sahillərində qədim dövrlərdə kimmerlər adlandırılan, indi isə utiqurlar çağırılan tayfalar yaşayır...".**

“Qədimdə **kimmeriyalılar** adlandırılan həddən artıq çoxlu hunlar bir az əvvəl bəhs etdiyim yerləri tutmuşdular və bir çar onların hamısının başında dururdu. Bir vaxtlar onlar üzərində bir çar hökmdarlıq edirdi və onun iki oğlu var idi, onlardan biri **Utiqur**, digərinin adı isə **Kutriqur** idi.

Onların atası öz həyatının günlərini bitirəndən sonra oğlanlar hakimiyyəti öz aralarında böldülər və hərə öz rəiyyətlərini öz adı ilə adlandırdılar...”.

**M.Kaşğari və Rəşid ad-Dinə görə, utiqor bolqar tayfaları oğuz türklərinin bir hissəsi sayılırdılar.**

Yuxarıda qeyd edilmişdi ki, Uti vilayətinin adı erməni mənbələrində Sevordik kimi keçir, bu da subareylərin adı ilə bağlıdır. Göründüyü kimi, Utiqur hunlarının adı həm də Uti vilayətinin adı ilə uyğun gəlir. Qur və ya quz hissəciyi qədim türk leksikasında *nəsil quruluşu* kimi tərcümə olunur.

Konstantin Porfirogenet Pannoniya türk-subarların soy bölgülərinin bütün adlarını verir: “Birincisi bu, Xəzərlərdən qopan, yuxarıda adı çəkilən **Kavarlar** soyu, ikincisi **Neki** soyu, üçüncüsü **Meqeri**, dördüncüsü **Kurtu** qermat, beşinci – **Tariana**, altıncı – **Qenax**, yeddinci – **Kari**, səkkizinci – **Kasi**"dir.

Macar mənbələrində Kavardan başqa Nek, Meder, Kürt və Darmat, Taryan, Yeno Ker, Kesi adları vardır. İlk iki ad fin-uqor, qalanları isə türk mənşəlidir (DAI. II. P. 150; MTE. I-III). Mümkündür ki, Sünik – Zəngəzurdakı Məğri şəhəri subarların Məqəri qanadı ilə bağlıdır, Niq vilayəti (Kasax Aparan) isə Neki soyu ilə bağlıdır. Konstontinin kabarlarının isə Qarabağdakı Kəbirli elatı ilə əlaqəsi ola bilər.

XVII əsrə qədər bu elat hələ Cavanşirilərin tərkibində idi. Cavanşirilər arasında Sabir soyu qrupu var idi, onlar şimaldan Füzulinin əraziləri, həmçinin Hadrut və Xocavənd bölgələrini əhatə edən Vərəndə və Qaraçuq vilayətlərində qeydə alınırlar... Bu sabirlər, ehtimal ki, sabir-subarların və ya erməni kitablarındakı sevordiklərin adlarının daşıyıcılarıdır. Cavanşirlərin Yağlı-Vənd qrupu da bul-

qar-subarlarla bağlı ola bilər, belə ki, tədqiqatçılar vənd hissəciyinin Azərbaycandakı bir çox adlarda bulqarlarla əlaqəli olduğunu müəyyən etmişlər. Vənd hissəciyi Qarabağın Kolanı soyundan olan türklərin yaşadığı Qaravənd-Qərvənd, Sırxavənd, Şıxavənd, Papravənd kimi yaşayış məskənlərində də mövcuddur ki, bu da onların bulqar-suvarlarla əlaqəsini göstərir.

Mümkündür ki, Qarabağ və Zəngəzur arasında yerləşən Qaraçorlu elatı türk-subar tayfası Kürt (Porfirogenetdə Kurtuqermat) ilə əlaqəsi vardır, çünki sənədlərdə bu elat bəzən kürd adlandırılırdı. İki coğrafi Qara Bulaq (Füzuli, Hadrut) adı da məşhur bulqar-suvar birləşməsi ilə əlaqələndirilir. Qara Bulaq adının özü də Qara Bulqar adının modifikasiyasıdır. Yuxarıda qeyd olunduğu kimi, çoxsaylı Karabulaqlar Şimali Qafqaz və Şərqi Avropa xalqlarının etnogenezində rol oynamışlar.

Qarabulaq – Füzuli rayonunda olan Cuvarlı kəndinin adı da Suvar adının izlərini daşıyır.

Yuxarıda artıq qeyd olunduğu kimi, Albaniya dövründə Azərbaycan ərazisində suvar-sabir tayfaları nəinki Uti vilayətində, eləcə də Qəbələ, Şirvan və Bilə-suvar və Bolqar-çay adlarına əsasən, Muğanda da məskən salmışlar.

Aran-Albaniyanın subar və ümumiyyətlə, türk əhalisi çoxsaylı idi. XIII əsrin əvvəllərindəki anonim fars coğrafi traktatında Albaniya türklərinin çoxsaylı olması qeyd olunur: “Arran nemətlərlə dolu bəxtiyar bir yerdir: o, çarların qış iqamətgahı idi.

Dünyanın yaşayış hissəsində Arrandakı qədər tikililər yoxdur. Bu sayda türklərin olduğu heç bir başqa yer yoxdur: orada yüz min türk atlısının olduğunu deyirlər. (N.D.Mikluxo-Maklay, "XIII əsrin Coğrafiya əsərləri”, fars

dilində, s.199). Yüz min türk atlısının olması o dövrdə ən azı 700-800 min canlı əhalinin olması deməkdir və bu, nəhəng qüvvə idi. Görünür, şərqdən səlcuq türklərinin və şimaldan kuman-qıpçaqların meydana çıxmasından sonra suvarlar yeni türklərlə qarışıb onlarla yeni birləşmələr yaratdılar ki, bunun da izlərini Qarabağ, Şəmkir-Gədəbəy və Qazax-Şamşadil elatlarında axtarmaq lazımdır. Bu yeni soy bölgülərinin adlarını XV-XVI əsrlərin arxivlərindən öyrənirik. Bunlar Cavanşir, Cəbrayıllı, Otuzikilər, İyirmidördlər, Kəbirli, Qaraçorlu, Kolanı, Avşar, Qacar və s. Kimi türk qruplarıdır.

Ərəb salnaməçiləri suvarlara çox diqqət yetirmişlər. Belə ki, ərəb salnaməçisi, “Fütüh əl-buldan”ın müəllifi Belazuri (892-ci ildə vəfat etmişdir) Suvarlara (Siyavurdiya / Sevordiklər) toxunaraq qeyd edir ki, Şəmkir qədim şəhərdir və Salman ibn Rabiya əl-Bahili oranı fəth etmək üçün qoşun göndərdi. Bu şəhər Siyavurdiya (Suvarlar) tərəfindən dağıdılana qədər canlı və inzibati şəhər olaraq qaldı. Siyavurdiya (Suvarlar) – Yezid ibn Useidin İrminiyadan gedəndən sonra bir araya gələn tayfalar – bu, Belazurinin sözügedən əsərinin M.Fayd (Ankara, 2002-ci il) tərəfindən Türk dilinə tərcüməsində belə verilmişdir.

İzah edək ki, imperator Yustiniandan (527-565-ci illər) qalan Bizans inzibati bölgü sisteminə əsaslanan ərəblər, Belazuriyə görə, əs-Sisakan və ar-Ranı (Aran) – İrminiya 1, Gurzanı (Gürcüstan) İrminiya – 2, Anadolu ərazilərini (əsasən Arminiya daxil olmaqla) müvafiq olaraq –İrminiya 3 və İrminiya 4 kimi ayırdılar (burada İrminiya – Armeniya). Əl-Belazuri Əhməddən misal gətirdiyimiz hissə ("Ölkələrin fəthi kitabı") P.K.Juzenin rus dilinə tərcüməsində belə verilir ("Azərbaycan tarixinə dair material-

lar", III nəşr, Bakı, Azərbaycanın araşdırması və öyrənilməsi Cəmiyyəti, 1927-ci il).

“...Salman ibn Rabiya əl-Bahili qədim şəhər hesab edilən Şamkur şəhərinə ordu göndərdi və ordu onu işğal etdi. O vaxtdan bəri şəhərin Savarditlərin onu dağıtmaqlarına qədər məskunlaşması və çiçəklənməsi dayanmamışdı. Bu, Yezid ibn Ussaydın Armeniyanı tərk etməsindən sonra müxtəlif tərəflərdən axın edən, güclənən və azğınlıq edən bir xalq idi. Lakin 240-cı (854) ildə Mü'tasimbillahın müştərisi, Armeniya, Azərbaycan və Şimşatın hökmdarı Buqa, Allah ona rəhm etsin, tərəfindən şəhər bərpa edildi və burada Xəzərlərin bir hissəsi yerləşdirildi...”.

N.A.Karaulovun nəşrlə bağlı verdiyi şərhlərdə “B.e. X və XI əsrlərində ərəb yazıçılarının Qafqaz, Ermənistan və Azərbaycan haqqında məlumatları"na dair şərhlərində Şəmkir şəhəri ilə bağlı  qeyd edilmişdir: "Şamkur indiki Şamxordur [Şəmkir]. B.e. VII əsrin birinci yarısında Salman ibn Rabiyə onu ərəb xəlifəsi Osmanın hakimiyyəti altına aldı. Bundan sonra üsyan edən Savardiylər (qonşu sakinlər) bu şəhəri dağıtdılar, lakin xəlifə Müstəsimin azad etdiyi qul Türk soylu Buqa onu bərpa etdi...”.

Yuxarıdakı mətnlərə əlavə izahat verəcəyik. **Suvarlar (Siyavurdiya / Sevordiklər) haqqında söhbət gedən torpaqlarda hələ antik zamanlardan, V-VI əsrlərdən gec olmayaraq (xüsusən V əsrin ikinci yarısından – VI əsrin ikinci yarısı, Hun tayfalarının Sabir ittifaqı dövründə) yerləşmişlər. Suvarlar Qafqaz Albaniyası torpaqlarında sıx kütlə halında yaşayırdılar və əslində Uti vilayətinin tam sahibləri idilər.**

Qeyd edək ki, ümumiyyətlə, Suvarlar (Sevordiklər) 8 əsr (II-IX) Qafqazda və Pont sahillərində yaşamışlar, bun-

lardan 2 əsr (Attilanın ölümündən Xəzər Xaqanlığına girənə qədər 2 əsr) (453-təqribən 650-ci illər) Savirlər Şərqi Ön Qafqazda üstün vəziyyətdə olmuşlar. Üstəlik, gah Persiyanın, gah Bizansın tərəfində çıxış edirdilər, gah Hun, daha sonra Bolqar konfederasiyasına daxil oldular və muxtar bir köçəri və oturaq həyat sürdülər, Qafqazda öz dövlətçiliyinə sahib oldular.

Savirlər özlərinin uzun tarixlərindəki döyüşlərdə taleyüklü məğlubiyyətlər almadılar, ekstremal vəziyyətlərdə isə yaşayış yerlərini dəyişdirirdilər.

Ərəblərin Qafqaz Albaniyası ərazilərini fəth etməsindən sonra (VII ə.) bu ərazilərdə böyük qruplarda və ilk növbədə Uti vilayətində xristianlığı qəbul edən suvarlar ərəblərə qarşı sərt müqavimət göstərdilər. Suvarların torpaqlarının bəzi nöqtələrində (Şəmkir, Tiflis) ərəblər itaəti təmin etmək üçün qala-postlar qurmalarına baxmayaraq, qonşu Suvarlar onlara boyun əymədilər.

Suvarların ərəblərin komandanlığı altında Şəmkir qalasını dağıtdıqları barədə yuxarıda təsvir olunan hadisələr VII əsrin birinci yarısına, Şəmkir qalasının sərkərdə Buqa tərəfindən bərpa edildiyi hadisələr isə IX əsrə aiddir. **Beləliklə, Suvarlar VII əsrə qədər və təsvir olunan hadisələrdən sonra VII əsrdən IX əsrə qədər Uti torpaqlarında hakimiyyətdə oldular.** Suvarların Uti vilayətində erkən orta əsrlərdən X əsrə qədər, daha doğrusu, K.Porfirogenetin diplomatik yazışmaları və Albaniya çarlığının dağılmasına səbəb olan Albaniyadakı konfessional böhranla bağlı dövrə qədər mövcudluğunu izləmək mümkündür.

**Beləliklə, ən azı 5 əsr ərzində Suvarların Uti vilayətinin əyalətində yaşadıqları və öz müstəqil siyasətlərini apardıqları, mərkəzləşmiş Albaniya dövlətinə ta-**

be olmadıqları qənaətinə gəlirik. Albaniya dövlətçiliyinin zəiflədiyi (onun şərti vahid təqdimatı – sol sahildə Albaniya çarı və Kürün sağ sahilində böyük knyaz), həmçinin Aranda ərəb hökmranlığı dövründə Suvarlar əsasən müstəqil olaraq qaldılar və mənşəcə Türk olan Sacilərə xərac verdilər. Yalnız XI əsrdə Albaniya çarlığı süqut edəndən və Albaniya Aran Şəddadi hökmdarları və müvəqqəti olaraq Bağratid Ermənistanı arasında parçalanandan sonra, Suvarlar Salaridlərin qovulması ilə Aranda hakimiyyətə gələn Şəddadilərdən asılı vəziyyətə düşdülər. Daha sonrakı dövrlərdə Səlcuqluların istilası dövründə Suvarların bir hissəsi İslamı qəbul etdi.

Gördüyümüz kimi, Suvarlar xristian olaraq Utikin sahibləri idilər, Ermənistana heç bir aidiyyətləri yox idi və İmperator K.Porfirogenetin diplomatik poçtu onlara xüsusi olaraq ünvanlanırdı. Məhz Dədəvəng monastır kompleksi də onların mülklərində idi.

# V. Qardmanda yaşamış kolanı türkləri haqqında

Xatırladaq ki, Uti vilayəti Ermənistanın indiki ərazinin bir hissəsini, daha doğrusu, Göyçə (Sevan) gölündən Azərbaycan sərhədlərinə qədər olan şimal torpaqlarını, həmçinin Qazax, Gədəbəy, Şəmkir rayonlarının ərazilərini və cənubda Berd şəhərinə qədər və Tərtər çay hövzəsinin böyük bir hissəsini və cənubdan Qarabağda Qarabulaq məntəqəsinə qədər əraziləri əhatə edirdi. Utinin şimalında Qoşavəng-Gədikvəng, Ağbat, Makaravəng, Uzunlar (Odzun), Sanain, Ağtala kimi kilsə-monastır kompleksləri yerləşir. Qeyd edək ki, cənubi Qarabulaq Füzuli adlandırılmışdır. Qarabulaqlar suvarların bir qolu olmuşdur və Füzuli, Xocavənd rayonlarında mövcud olan Qarabulaq və Cuvarlı toponimlərinin adları da suvarlarla bağlıdır. Sabir-suvarlar barədə müsəlman dövrünün yazıçıları da bəhs edirlər. Sabirlər xristian olduqları üçün bəzən onları ermənilər adlandırırdılar.

Xristian türklər və xüsusən də suvarlarla əlaqəli tarixi faktları sadalayaraq və qədim mətnlərdəki dəlillərə istinad edərək, şübhəsiz ki, regionda yaşamış türk tayfaları Sabir / Suvarlar, Qazak(x)-Qarapapaqlar, barsillər, kolanılar və alban-qarqarların, həmçinin xett yazılarındakı kasklar / kasakların mümkün varisliyini və bir-birinə bağlılığı mövcud idi.

Prezentasiyanın bu hissəsində vaxta qənaət etmək üçün biz **kolanılar** tayfasına diqqət yetirək**.**

Kolanılarla bağlı məsələni araşdıraq, ilk növbədə qeyd edək ki, Dədəvəng monastırının yerləşdiyi ərazi Albanların tarixində Mets-Kolmank (Böyük Kolmanlar) kimi keçir. Baxmayaraq ki, Böyük Kolmanlar vilayətinin dəqiq

sərhədləri salnamənin özündə göstərilməmişdir, lakin kitabın özünün mətninə əsasən, bu bölgənin Tərtər və Qarqar çaylarının hövzələri arasında yerləşdiyi aydın olur.

M.Kalankatuklunun gətirdiyi maraqlı tarixi fakt sübut edir ki, ərazi və konfessional baxımdan Böyük Kolmanlar (Mets-Kolmank) bölgəsinin ermənilərə heç bir aidiyyəti yoxdur.

M.Kalankatuklunun "Alban tarixi"ndə albanların danışıqlar aparmaq üçün qüdrətli hunların ölkəsinə göndərdiyi Mets-Kolmank bölgəsinin yepiskopu **müqəddəs İsrailin adı tez-tez xatırlanır**. Bu hadisə ilə əlaqəli hekayədə Qafqaz türklərinin ayinləri qeyd olunur, burada Kuar, Təngri-xan adları çəkilir, yaxud oda, suya və s. Qurbankəsmə mərasimləri xatırlanır. Hunlar və ya xazirlər (xəzərlər) ölkəsini də M.Kalankatuklu Türküstan adlandırır. Müəllif İsrail yepiskopunun onların paytaxtı Varaçandakı moizəsini xüsusi vurğulayır. Mətndən aydın olur ki, İsrailin moizəsi çox uzun olmuş və görünür bir neçə gün davam etmişdir. "Alban tarixi"ndə bu hadisələrə bir neçə fəsil ayrılmışdır ki, bu da ölkə üçün nəticələrin vacibliyi ilə şərtlənmişdir. Kolmank yepiskopu İsrailin türk dilini yaxşı bildiyi və danışmağı bacardığı bəlli olur. Və bu, təbiidir, çünki türklərin yanına moizə oxumağa göndərilən şəxs onların dilinin bilicisi olmalı idi. M.Xorenlinin məlumatlarına görə, Qafqaz türkləri onun çıxışlarını müsbət qarşıladılar, ona dini rəhbər olmağı təklif etdilər, onu buraxmaq və başqa bir vardapeti dinləmək istəmədilər. Ola bilsin ki, onu özlərininki sayırdılar, çünki öz adət-ənənələrinə çox qısqanclıqla yanaşan türklər bir yabançının danışığını belə diqqətlə dinləyə bilməzdilər. İsrailin cavabı diplomatik olmuşdur: Albaniya katolikosunun razılığı olmadan belə bir təklifi qəbul edə bilməz. Belə bir cavabdan sonra Türk-

lərin knyazı Alp İlutver Albaniyada səfirliyi "dost təklifləri və [İsrailin] Hunlar ölkəsinin dini rəhbəri təyin edilməsi xahişi ilə" təchiz etdi. Alp İlutver eyni xahişlə daha bir müraciəti Armeniyaya – "Böyük Armeniyanın yepiskoposapeti (katolikosu) müqəddəs Saaka və Armeniyanın çoxtərifli sərkərdəsi knyaz Qriqora göndərir". Saak və knyaz Qriqorun cavabı maraqlı olmuşdur, burada qeyd olunurdu ki, **“o [Mets-Kolmankın yepiskopu], bizim taxt-tacın yox, Aluank taxt-tacının hakimiyyəti altındadır. Biz istəyirik və razıyıq ki, o həmişə sizin yanınızda olsun, lakin onun üzərində hüquq və hakimiyyət paralel taxt-tacımız Eliazar, Aluankın hayrapetinə məxsusdur. Bu onun işidir” (M.Kalankatuklu, XLV, Hunların məktubuna cavab). Beləliklə, erməni katolikosluğu erməni katolikosunun ortaq taxt-tac adlandırdığı Kolmank dini icmasının Alban kilsəsinə aid olmasını qəbul edir.**

**Bu, erməni kilsəsi tərəfindən Dədəvəng monastırının ərazi və yepiskopluğunun Albaniyanın olaraq tanımasını göstərən vacib faktdır.**

**Bununla yanaşı, ərazidə V-VI əsrdən başlayaraq, kök atmış suvarları nəzərə alsaq, kolanların suvarlara qohumluğu haqqında fikrin yaranması həqiqətə uyğundur.**

Maraqlıdır ki, xəzərlər bununla sakitləşmədilər və **M.Kalankatuklunun** qeyd etdiyi kimi: “Ermənistandan [Aluanka] qayıdan İtqin-xursan və Çat-xəzir paytaxt Partava katolikos Eliazar və knyaz Varaz-Trdatın hüzuruna təşrif buyurdular və ayrılarkən yepiskopu [İsraili] onlara verməsini xahiş etdilər. Lakin onlar İsraili [xəzərlərə] dini rəhbər olaraq vermək istəmədilər. Dedilər: “O, Allahın tamamilə ona əmanət etdiyi dini icmanı tərk edə və sizinlə ola bilməz. Ancaq ona əmr edəcəyik ki, o, imkanları daxi-

lində sizin yanınıza gəlib qayıtsın və sizi Məsih inancında təsdiq etsin və aramızda qurulmuş sarsılmaz sevgini qorusun. Biz buna razıyıq, çünki o, aramızda vasitəçi olaraq düşmənçiliyə son qoyacaq və aramızda sevgi və barış bərqərar olacaq".

Bütün bunları eşidən knyazlar təəccübləndilər və hiddətləndilər. Onlar bu imtinadan narazı qalsalar da, hər halda razılaşmaq məcburiyyətində qaldılar və dedilər: "Qoy [İsrail] bizi ziyarət etməyə gecikməsin ki, onun bizdə əsasını qoyduğu inancın təməli çökməsin və biz yetim qalmayaq, çünki biz başqa bir vardapeti dinləməyəcəyik və ona itaət etməyəcəyik".

Müqəddəs yepiskop [İsrail] öz mehriban xasiyyətinə görə könüllü olaraq Hunların yanına getməyə razı oldu, hər iki ölkəni razı saldı və vəd və ittifaq şərtlərini möhkəm qorumaq üçün yeni din qəbul etmiş Məsih dini icması üzərində qəyyumluq etdi. Mübarək yepiskopun sözlərini bəyənərək, dinlədikdən sonra onlar hədsiz sevincə qərq oldular və Müqəddəs Üçlüyə xeyir-dua verərək əmin-amanlıqla öz yerlərinə qayıtdılar".

Bu fakt türklər tərəfindən xristianlığın qəbul edilməsinin tam aydın təzahürüdür.

**Mets-Kolmankın Dədəvəng monastırı ilə Alban katolikosatına mənsub olmasına dəlalət edən daha bir faktı nəzərdən keçirək.** VII fəsildə (Armeniya katolikosu İovhannesin Aluank katolikosu Ter Abbasa göndərdiyi inancın toxunulmazlığına dair müraciət) M.Kalankatuklu yazır: "Xeyirxah, ədalətli, Allahı sevən [yepiskoplara] və lütfkar qardaşım və taxt-tac ortağımız katolikos Ter Abasa, Baxalat yepiskopu Movsesə, Kabala yepiskopu Qriqora, Amaras yepiskopu hRomikə, Balasakan yepis-

kopu Timotiyə, Şəki yepiskopu Ambakuma, Gardman yepiskopu Johannikə, **Mets-Kolmank yepiskopu** Levonda.

Böyük Armeniyanın katolikosu İovhannesdən, Taron yepiskopu İbrahimdən, Mardpetakan [nəsil] yepiskopu Qriqordan, Tayk yepiskopu Stepannosdan, Horhorunik yepiskopu Maştotsdan, Vanand yepiskopu Gütdən, suriyalıların yepiskopu Abdişudən, Amatunean [nəsil] yepiskopu Papadan, Rştunik yepiskopu Xristofordan, Moks yepiskopu Sekundosdan və digər bütün erməni yepiskoplarından xeyir-dua və salam.

**Bizə kədərli bir xəbər gəldi ki, murdar Pyotr monastırından olan özlərini dilənçi adlandıran, əməllərində isə Məsihə nifrət edən, Müqəddəs Üçlüyü rədd edən qoyun dərisində hansısa yırtıcı canavarlar sizin ölkənizə gəldilər, onlar maneəsiz olaraq günahsız qəlblərə lənətlənmiş Nestorun və Xalkidon məclisinin alaq otlarını səpirlər və onları əbədi ölümə məhkum edərək, pravoslav inancından döndərirlər...”.**

Misal gətirilən mətn V əsrin hadisələrini əks etdirir və erməni katolikosunun həmin mətnindən aydın olur ki, Albaniya katolikosunun ardınca əvvəlcə Alban yepiskopluğu və yepiskopları xatırlanır. **Mets-Kolmank yeparxiyasının iyerarxik olaraq Alban kilsəsinə daxil olduğu açıq görünür.** Üstəlik, erməni yepiskopluğunun erməni katolikosları və yepiskoplarının ardınca verilmiş sadalanma nəzərə alınmaqla, onların hamısının Cənubi Qafqazın xaricində olduqları aydın olur. Üstəlik də Mets Kolmank icması ilə yanaşı, Amaras, Balasakan və Zəngəzurun Şaki icması da Albaniya yeparxiyasının tərkibinə daxil olmuşlar.

Bəs Dədəvəng monastırı ilə Mets Kolmank harada yerləşir? Vurğulayaq ki, **burada Uti vilayətindən bəhs**

**edilir, bu barədə biz K.Porfirogenetin və xüsusən Uti vilayətində yaşayan Sevordiklərlə diplomatik yazışmalarını təhlil edərkən yazmışdıq.**

Kol (Kul) və ya Kolanılar tayfasına aid olan arealları müzakirə edək.

**Birincisi**, Kol etnonimli türk tayfası Uti və Artsaxda – Qafqaz Albaniyasının əyalətlərində, Sünikdə (Zəngəzur) və bugünkü Ermənistanın digər yerlərində kifayət qədər geniş bir yaşayış ərazisini əhatə edirdi. "Kol" köklü coğrafi adlara tarixi Albaniyanın Qazax-Şəmşadil və Tovuz-Daşkəsən bölgələrinin ərazisində rast gəlinir.

**İkincisi**, Kolanı tayfasının əsas yaşayış arealı tarixi **Mets Kolmank (Böyük Kolmanlar)** olmuşdur. M.Kalankatuklunun "Albanlar tarixi"nin məzmunundan aydın olur və bu ad özü də Kolanı türklərinin bu torpaqlarda qədim zamanlardan mövcudluğuna dəlalət edir. Bu ərazi Tərtər və Qarqar çaylarının hövzəsində yerləşirdi. Lakin Kolanılar tarixən Qarabağda (Xaçen-Ərsak, Sodk və Qafqaz Albaniyasının digər bölgələri) yaşamışlar. Burada Kolabağ (Xocalı bölgəsi), Kolatağ çayı (Xocalı rayonundakı Xaçınçay çayının qolu), Kolatağ kəndi (Kəlbəcər rayonu) kimi hidronimlərə və toponimlərə rast gəlirik. Bir sözlə, bu ərazi qərbdə Tərtər çayı, Xaçın-çay boyunca Ağdamdan başlayaraq, Basarkeçərdə Göyçə gölünə qədər ərazini əhatə edirdi.

**Üçüncüsü**, Kolanıların xeyli hissəsi Naxçıvan ərazisində və indi Ermənistanın bir hissəsi olan, Dərələyəz və Məğri ərazilərində yaşayırdılar.

**Dördüncüsü**, bu gün Kolanı türklərinin yaşadıqları yerlərdə Qərvənd (Qaravənd), Sırxavənd (Şixavənd), Papravənd (Pirəvənd), Şahbulaq, Köçəri, Alataxtalı, Qızılvəng, Sıg(ı)nak, Çapaqçı, Qoran, həmçinin Qaramanlı,

Qoyunlu və bir çox digər belə adlara Qarabağın bir çox yerlərində və Azərbaycanın digər bölgələrində rast gəlmək olur, bu da Kolanı türklərinin bölgənin digər türk tayfaları ilə əlaqəsini göstərir. Bununla yanaşı, göstərilən yaşayış yerləri, ilk növbədə Kolanı türklərində qol və soy adlarıdır. "Vənd" sonluğu ilə bitən adlar onların bulqar-türklərlə qədim tarixi əlaqələrini göstərir.

**Beşincisi**, Kəlbəcər rayonunda, Tərtər çayının sağ sahilində Dədəvəng monastırı (Xotavəng, Xudavəng (Azerb.) yerləşir və bu ərazi Kolanı adlanan tarixi tayfaların yaşadığı Azərbaycanın **Ağdaban-Bağlıpəyə** kəndinin ərazisidir.

**Altıncısı**, Qarabağ bölgəsində adları böyük ehtimalla Kolanı türklərinə aid olan xristian əhalisinin yaşadığı Kolamici, Kolatak yaşayış məntəqələri vardır. Tarixən Qarabağda yaşayan Kolanı tayfaları qrupu çoxsaylı olsa da, XVI-XVIII ə. onların bir hissəsi Şirvan-Muğan bölgəsinə, həmçinin tarixi Azərbaycanın Vedibasar vilayətinin İrəvan, Naxçıvan bölgəsinə köçdülər. O cümlədən, M.Barxudaryantsın məlumatına görə, Dədəvəng yaxınlığında yaşayan xristianların bir hissəsi İrəvan bölgəsinə köçdü və burada Yenicə kəndinin (türk dilində “yeni”) əsasını qoydular.

Əlavə olaraq, “kol” kökü ilə qarşılaşdığımız bir sıra toponimlərə də diqqət yetirək. Bu toponimlər, bir qayda olaraq, qədimdir və xüsusən də söhbət Ptolemeydə (V, XII, 9) rast gəlinən Koltene toponimindən gedir, burada “Araz çayı boyunca Koltənə” qeyd olunur. **Naxçıvanda yerləşən digər toponimlər – Kolt (orta əsrlər erməni – Qoxt), yaxud Bizanslı Favstın (Favstos Buzand) 371-ci ildə Ermənistanın Albaniya bölgələrini ələ keçirmə-**

**si ilə əlaqədar olaraq xatırlatdığı Qərbi Albaniyanın eyniadlı bölgəsinin adıdır.**

Bununla yanaşı, qeyd edildiyi kimi, Utikdə Mets Kolmank və Qafqaz Albaniyasının Ərsak bölgəsində Kolt toponiminə rast gəlirik. Ərsakdakı Kolt "VI əsr Erməni Coğrafiyası"nda da əksini tapmışdır və daha sonra, orta əsrlərdə **Kola-yurt** adlandırılır, bu da eynən "Kolanılar mülkü (yaşayış yeri)" mənasını verir.

Bulqarların Şimali Qafqazdan Ararat vadisinə köçürülməsinin təsviri ilə əlaqədar M.Xorenlidə (II Kitab, 9-cu fəsil) qeyd edilən Armeniyanın bir bölgəsi olan Kol toponimini qeyd etməmək olmaz. Eynilə toponim kimi Kogovit adında, hansı ki, Kolovit (Kol vadisi) kimi oxunmalıdır, Kol komponenti ilə qarşılaşırıq (bax: M.Xorenli, II kitab, 23-cü fəsil və Konstantin Porfirogenetin diplomatik yazışmaları).

Bir daha qeyd etmək lazımdır ki, "kol" həm də kul (kül) və hətta kal şəklində də işlədilir və təsadüfi deyil ki, 1727-ci il arxivlərində Naxçıvanda Kul kəndinin adına rast gəlirik. Burada, Culfa rayonunda dağ və Kola dərəsi var, Şahbuz rayonunda Kolanı yaşayış məntəqəsi, Naxçıvan ərazisində Kolavat toponimi qeydə alınmışdır.

Əl-İstəxri (X əsr), İbn-İdris (XII əsr) Qarabağda Kolanqat yaşayış məskəninin mövcudluğunu qeyd edirlər. XIX əsrin müəllifi Mir Mehdi Xəzani “Kitabi-tarixi Qarabağ” kitabında qeyd edir ki, “Tərtər çayının (Uşaçıq qülləsi) sahilindən Yuxarı Göyçə (Sevan) gölünün sərhədinə qədər Kolanı yeridir (“məskənidir”)”. Və bu göstərici Kolanı tayfasının Qarabağdakı yaşayış arealını tam aydın şəkildə müəyyənləşdirir.

Ermənistanın şimal hissəsində əvvəllər qeyd olunan Kol vilayəti elə Tayk əyalətinin ərazisidir. X əsr hadisələri

ilə əlaqədar anonim qədim erməni mənbəyində bildirilir ki, II Sumbat (977-990-cu illər) Abxaziya (Gürcüstan) çarından "Kanqark (Kanqarı-Kengerli) və Kürün sağ sahilində yerləşən Qogşen (oxuyun Qolşen / Kolshen) mahalları ilə birlikdə Kolu zəbt edə bildi". Tanınmış erməni tarixçisi N.Q.Adonts yazıb ki, "qərbdə İberiya ilə Tay vilayəti həmsərhəd idi və ən şimal kanton olan Kol sərhəd məntəqəsi sayılırdı". N.Adontsun Kol haqqında bu məlumatını M.Kalankatuklunun Qafqaz Albaniyasının Kolu və F.Bizanslının (Buzand) 371-ci ildə Ermənistan tərəfindən Albaniya vilayətini zəbt olunması barədə yazdıqları ilə müqayisə etdikdə burada söhbətin eyni Kol bölgəsindən getdiyi aydın olur.

**M.Xorenli (II kitab, 8-ci fəsil) I əsr hadisələrini qeyd edərək, Tsob, Dzor və Kanqark bölgələrinin yanında Kolb mahalı haqqında yazır. Bunlar Gürcüstanla həmsərhəd ərazilərdir, bunlar haqqında həmçinin F.Bizanslı (Buzand) IV kitabda (Fəsil 50) qavarı, daha doğrusu, Dzor və Qardman bölgələrinə bitişik olan Kolb bölgəsini nəzərdən keçirərkən xatırladır.**

**Dzor erməni dilindən tərcümədə "dərə" mənasını verirsə, onda o, tamamilə Akstafa-çay çayının dərəsi ilə identifikasiya edilir. Qardmana gəlincə, bu ərazi hələ Qafqaz Albaniyası dövründən bəri Azərbaycanın indiki Şəmkir rayonu ilə lokallaşdırılırdı, həmçinin əhalisinin əksəriyyətinin azərbaycanlılar olduğu indiki Gürcüstan ərazisinin Qardabani bölgəsini də əhatə edirdi.**

Daha sonrakı dövrlərdə "VII əsr erməni coğrafiyası"nda [4, 52] Utinin qərbindəki Quqark əyalətində **Taşir** (türkcə "taş" = "qaya", daş və "er" (yer), ümumi mənası "qayalı (daşlı) yer") vilayətinin yaxınlığında (Sevan gölü

hövzəsindəki Uti, Urartu mənbələrində Etiuni) gürcülərə məxsus 9 bölgədən biri **Kolbopor** = Kol + por (ermənicə “dərə”) adlandırılmışdır.

Qeyd edək ki, XVIII əsrin əvvəllərində Azərbaycanın Tovuz bölgəsi ərazisində azərbaycanlıların yaşadığı iki Qol kəndi var idi. Ümumiyyətlə, xüsusi vurğulamaq lazımdır ki, adı çəkilən Kolman(k) mahalı = (Kol + adam) = “kol + yaşayış yeri”)) elə Kolların yaşayış yerləridir (türk tayfalarının adları ilə müqayisə et: Karaman, Kuman, Nayman, Şadman və s.).

Toponimlər arasında Kolagirən adına da tez-tez rast gəlinir, bu toponim indiki Ermənistan (əsasən şimal hissəsi) və Azərbaycan ərazilərindəki bir sıra yaşayış məntəqələrinin adları kimi təqdim olunur və onlar da eyni adlı türk tayfaları ilə əlaqələndirilir.

"Kolanı girən" həmçinin Kolagir, Kolayır kimi də səslənir.

O cümlədən, tarixi Göyçə mahalının Aşağı Qaranlıq rayonunda (1930-cu ildən bəri Martuni) **Kolagirən** yaşayış məntəqəsi mövcuddur. Bu yer adına mənbələrdə Kolaqran, Kolanı qıran, Kolanı qran kimi də rast gəlmək olur. Bu ad Ermənistanda 1935-ci ildə dəyişdirilərək, Tsovinar adlandırılıb. Elə orada Göyçə gölünün sahilində Kolagirən qalası vardır. Buradakı ilk ermənilər Osmanlı İmperiyası ərazisindən olan köçkünlər olmuş və 1830-cu ildə meydana çıxmışlar.

Bu toponimlə əlaqəli daha bir neçə nümunə göstərək:

Kolagirən – çarlıq dövründə Tiflis quberniyasına daxil olan Quqarkda (dağlıq Borçalı) yaşayış məntəqəsi. 1948-ci ildə Antaramut adlandırılıb.

Kolagirən, Şamşadildə bir vaxtlar mövcud olmuş qışlaq (qışlaq) adı.

**Kolagirən** – XVI əsrin Osmanlı arxivlərində Lori vilayətində rayon adı. Erməni mənbələrində Dzoraget adlandırılır.

Başqa sözlə, "Taşir Kolagirən" (azərb.) elə "Taşir Dzoreget"dir (erm.) və bu toponimə dağlıq Borçalıda (Ququark) rast gəlirik. Lori bölgəsində Kolagirən ilə yanaşı, bu ad Pəmbək, Ağtala, Taşir və Arpalı rayonlarında da qeydə alınmışdır.

**Kolagir –** Gürcüstanın Bolnisi rayonunda yaşayış məskəni. Yerli sakinlər ona Kolayır deyirlər.

**Kolayır –** Ağstafa rayonunda yaşayış məntəqəsi.

Həmçinin qeyd etmək maraqlıdır ki, qədim Bulqarlar kahinlərə Kolobra (Bolqar orijinalında **Kolobor** və ya **Kolobar**) deyirdilər. Sözün hərfi mənasında Protobulqar dilində bu söz maq, sehrbaz və ya keşiş mənasını bildirir (Feofilakt Simokatta, Fotiy).

Eftalitlər – Avarlarda analogiyası vardır, burada kahinləri Bokolobrlar, yəni invers formada adlandırırdılar.

K.Porfirogenet cənubi rus çöllərində **Kuloba** (kul + oba), etnonim + "yaşayış məskəni", tayfasını qeyd edib, **"kol"** etnonimi isə **"kul"** formasında bir çox türk xalqları – tatarlar, özbəklər, türkmənlər, xakaslar, tuvinlər və s. arasında qorunub saxlanılmışdır.

**Kolanı tayfası ilə əlaqəli materialın təqdimatını Kolanıların hansı türk tayfasına aid edildiyi sualına diqqət yetirərək davam etdirəcəyik.**

Bu məsələdə mütəxəssislərin fikirləri fərqlidir. Lakin Kolanıların köklərinin Hun tayfaları birliyi ilə bağlı olduğu tamamilə aydındır. Belə ki, İoann Katolikos (Drasxanakertsi) öz hekayəsində Utiklərdən bəhs edərək, onları də-

fələrlə honnlar (Hunlar), Sevordlar (onlar da Hun tayfaları birliyindəndir), yaxud " Uti qavarının vəhşi tayfası", "ətrafımızda yaşayan xalq" adlandırır. O, həmçinin müstəsna ola-raq, türk tayfalarından olan Utilərin döyüş taktikalarından bəhs edir. Bir daha xatırladaq ki, Uti vilayəti müasir Ermənistan ərazilərinin bir hissəsini (Göyçə (Sevan) gölündən Azərbaycan sərhədlərinə qədər olan şimal torpaqları), qismən indiki Gürcüstanın Borçalı torpaqlarını, eləcə də Qazax, Gədəbəy, Şəmkir ərazilərini Bərdə şəhərinə qədər və Tərtər çayı hövzəsinin xeyli hissəsini və Qarabağın cənubunda Qarabulaq məntəqəsinə qədər əraziləri əhatə etmişdir. Bununla birlikdə, Kolanıların mənşəyi ilə əlaqədar bəzi mütəxəssislər onların Peçeneqlər, digərləri Peçeneqlərin bir hissəsi kimi tanınan Kəngərlər, Kengerlər, Kengerli olduğunu qəbul edirlər, eləcə də Kolanıların oğuz-səlcuqlardan olduqlarını, o cümlədən, oğuz-qarapapaqlarla qohum olduqlarını fərz edirlər.

**Kolanı qəbiləsi ilə əlaqəli materialın təqdimatını Kolanıların hansı türk tayfasına aid edildiyi sualına diqqət yetirərək davam etdirəcəyik.**

Ümumiyyətlə, Kolanıların Oğuz mənşəyi ilə bağlı nöqteyi-nəzər üstünlük təşkil edir və Türk tayfası olan Kolanıların mənşəyinin Oğuz versiyasını təsdiqləyən mülahizələr haqqında aşağıda danışacağıq.

**Birincisi**, Anadoludakı orta əsr mənbələrində Kilis ərazisində oğuzların bir qolu olan beydili tayfalarının yaşadıqları barədə məlumat vardır və onlarla yanaşı yaşayan Kolanılar onlara aid edilmişdir. Kolanı və oxşar adlara başqa mənbələrdə də rast gəlinir.

**İkincisi**, Kolanılara Qazax-Borçalı bölgəsində yaşamış Oğuzların başqa bir qolu olan Qarapapaxlar arasında da rast gəlinir və öz növbəsində onların bir qolu sayılır.

**Üçüncüsü**, Türkiyədə, Yozgat vilayətində (Kolanlı kəndi) Kolanılar türkmən sayılırdı və bəlli olduğu kimi XI əsrdən başlayaraq, islamı qəbul etmiş oğuzlar türkmənlər kimi adlandırılırdı.

**Dördüncüsü**, Kolanıların bəzi qollarının yaşayış yerlərinin adlarında "vənd" sonluğu işlədilirdi ki, bu da onların bulqar türkləri olan oğuzlarla bağlılığını göstərir.

**Beşincisi,** Anadoluda Oğuz tayfaları ittifaqına daxil olanlar arasında Kolanşamlar da olmuşdur və onlar türkmən sayıldıqları üçün istisna deyil ki, Kolanılarla bir kökdəndirlər, həmçinin XVI əsrdə Anadoluda, Sivasda Kayı-Kolan kəndi mövcud olmuşdur və bu ad Kayı tayfası (oğuz-osmanlı) ilə Kolanılar arasındakı əlaqədən xəbər verir.

**Və nəhayət, altıncı,** Qaraqoyunlu oğuz tayfalarının ittifaqında Kolanıların olması da onların Oğuzlara aid edilməsində bir amildir. Qaraqoyunlu türkmənlər XIII əsrdə Ərbil-Naxçıvan bölgəsində yerləşmişlər və XIV əsrdən başlayaraq, burada digər tayfalarla birlikdə Qaraqoyunlu birliyini yaratdılar. Bununla yanaşı, Kolanılar İğdır vilayətinin tarixi sakinləri sayılırdı və eyni adlı ərazidə yaşayırdılar. Kolanılar Vedi bölgəsinin Xınıt Qaraqoyunlu kəndində yaşamışlar, Şahbuz rayonunun Kolanı kəndində tapılan və Qaraqoyunlu-Ağqoyunlu mədəniyyətinə aid edilən "daş qoç" da onların Oğuzlara aid olduqlarına dəlalət edir. Şərqi Anadoluda Qaraqoyunlu dövlətinin əmiri Səlahiddin Kolani, Türkiyənin şərqindəki Həkkərinin bəyi isə Kolanı tayfasının nümayəndəsi olmuşdur və bütün bunlar Kolanıların Oğuz birliyi Qaraqoyunluya daxil olduğunu təsdiq edən dəlilləridir.

# VI. Əlavə

## Hattilər və onların Qafqaz albanları ilə əlaqəsi

**I. Qədim Mesopotamiya və sakinləri haqqında.**

Belə qəbul edilir ki, şumerlər Uruk mədəniyyətinin daşıyıcıları olublar (e.ə. IV minilliyin böyük hissəsi). Uruk mədəniyyətindən əvvəl isə Ubeyd mədəniyyəti mövcud olub. Bir çox müəlliflər ehtimal edirlər ki, elə onun da daşıyıcıları şumerlər olub. Lakin həmin mədəniyyətin keramika üzərində yeni mixi yazı üslubu və dəfnetmədə dəyişikliklər, eləcə də hansısa daha qədim bir dildən alınma sözlərin mövcudluğu buna şübhə ilə yanaşmağa məcbur edir. Ona görə də ehtimal edirlər ki, Ubeyd mədəniyyətinin daşıyıcıları Şumerdən şimalda Subar ölkəsində yaşayan subarlar olub, həmin mədəniyyət və "banan" dili adlanan həmin dil də onlara xasdır. Görünür, bu səbəbdəndir ki, şumerlər hesab edirdilər ki, onların tarixi bir vaxtlar iki icmadan – Eredu (sırf şumer məskənləri) və Subardan başlayıb. Bununla əlaqədar olaraq ehtimal edilir ki, şumerlər Aşağı Mesopotamiyada e.ə. IV minilliyin əvvəllərində peyda olub, özlərinin sələfləri – subarlar və ya subareyalılarla qaynayıb qarışıblar, bununla da ilk sırf şumer dövrü – Uruk başlayıb, onun sələfləri isə – subarlar daha şimalda yaşamağa davam ediblər. Şumerlər onların şimal diyarını Subar, onların özlərini isə subarlar adlandırırdılar.

Uruk dövründən sonra Cemdet-Nəsr mədəniyyəti (e.ə. IV minilliyin sonu) və daha sonra Mesopotamiya tarixinin erkən xanədanlıq dövrü (e.ə. XXX-XXIV əsrlər) başlayır ki, bu dövrdə şumerlərin şəhər-dövlətləri yaranmış-

dır. Məhz bu dövrdə Aşağı Mesopotamiyada Zaqrosdan olan dağlılar – akkadlılar peyda oldular.

Erkən xanədanlıq dövrü arxeoloqlar tərəfindən III minilliyə (e.ə. III minilliyin əvvəli və e.ə. III minilliyin ikinci hissəsi) aid olaraq, üç mərhələyə bölünüb. 1-ci və 2-ci mərhələlərin əvvəlində mesopotamiyalıların yaddaşında "böyük daşqın" kimi iz buraxan fəlakət baş vermişdi (b.e.ə. təxminən 2900-cu il). E.ə. XXIV ə. sonunda Aşağı Mesopotamiyada Şumer və Akkad birləşməsi baş verdi, Akkad sülaləsinin istibdadı yarandı (b.e.ə. XXIV-XXII əsrlər), onun süqutundan sonra Ur xanədanlığının bərpası baş verdi (b.e.ə. XXII-XXI əsrin sonu). Ur dövləti b.e.ə. təxminən 2003-cü ildə köçəri amoreylərin basqınları altında süqut etdi.

**Qədim Mesopotamiya**




Mənbə: *https://commons.wikimedia.org/wiki/File:Ciudades_de_Sumeria.svg*

**Burada suallar yaranır. Birincisi, şərqi samilər olduqlarını qəbul edilən subarlar və akkadlar kimlər idi?**

**İkincisi, qərbi samilər qismində qəbul olunan sutilər və amoreylər kimlər idi?**

Bu suallara cavab vermək üçün tarixi xronologiyaya geri qayıdaq. Məlumdur ki, Mesopotamiya (əsasən hazırkı İraq) Aşağı və Yuxarı olmaqla iki hissəyə bölünürdü. Dəclə və Fərat çaylarının biri birinə çox yaxın və Fars körfəzinə axın etdikləri, sonradan da Şatt-əl-Ərəbdə qovuşduqları yer Aşağı və həmin çayların bir-birindən kifayət qədər aralı axdığı yer Yuxarı Mesopotamiya sayılırdı. **Qədimlərdə Aşağı Mesopotamiya Şumer də adlanırdı**, özü də Şumer onun əsasən cənub hissəsi (Dənizkənarı) idi, **şimal hissə – Ku-Uri** isə sonradan b.e.ə. II minilliyin sonlarında gəlmələrin adı ilə **Akkad** adlandırılmağa başladı. Aşağı Mesopotamiyanın "Şumer və Akkad" kimi adlandırılması məhz buradan e.ə. II minilliyin sonlarından başladı. Daha sonralar bura Babilistan, Yuxarı Mesopotamiya isə Assuriya (e.ə. I minillik) adlandırıldı və qədim tarixçilər də buna riayət edirdilər. Mahiyyətcə Yuxarı Mesopotamiya-Assuriya həmin torpaqların geniş izahıdır, belə ki, onun qərb hissəsini yunanlar Suriya (Assuriya sözündən götürülmə), yerdə qalan hissəsini isə Mesopotamiya kimi təsvir edirdilər. Belə bir faktı nəzərdə tutmaq lazımdır ki, Mesopotamiya adı ilk əvvəllər yalnız Yuxarı Mesopotamiyaya aid edilirdi, yəhudi dilində İncil adı olan **Naxaraim məhz Yuxarı Mesopotamiyaya aid edilirdi**.

Bütövlükdə tarixçilər ehtimal edirlər ki, e.ə. IV minillikdə Şimali Ərəbistandan köçmüş, şumerlərin yaşadıqları ərazilərin şimalında "akkadlar" adı (Ki-Uri vilayətinin şumer adı) almış şərqi samilər həmçinin orta Dəclədə, yəni

Yuxarı Mesopotamiyada da məskunlaşdılar. Şumerlərlə qarışan birinci qrup babilistanlı, ikinci qrup isə – assuriyalı xalqın etnik əsasını təşkil etdi. Belə alınır ki, Babil və Assuriya dilləri eyni – şərqi sami (akkad) dilinin müxtəlif dialektləridir, hansılar ki, e.ə. III-II minilliklərin kəndarında bir-birindən ayrılmışdı. Həmin şərqi sami dili e.ə. III minilliyin sonunda Şumer və Akkadı birləşdirməklə yaradılmış Akkad çarlığının yaradılmasından sonra akkad adını almışdır. Belə hesab edilir ki, Aşağı Mesopotamiyanın şumer-akkad dilli əhalisi (babilistanlıların əcdadları) və Orta Dəclənin akkad dilli əhalisi (assuriyalıların əcdadları) özlərini vahid ikidilli super etnos kimi dərk edirdilər. Yalnız e.ə. III-II minilliklərin kandarında akkadlar şumerləri tam assimilyasiya etdikdən sonra şumerlərin dili elm və dinin ölü dilinə çevrildi və nəhayət b.e.ə. II-I minilliyə doğru onlar sadəcə babilistanlılara çevrildilər, möhkəmlənmiş Assuriya dövləti isə özünü onlardan tam ayırdı, burada söhbət artıq b.e.ə. VII əsrdə Assuriya imperiyasının süqutuna qədər bir birinə qarşı çıxan assuriyalılar və babilistanlılar barəsində gedir.




Yuxarıda göstərilənlər Şumer tarixinin qəbul edilən versiyasına da uyğundur, xüsusən də biz B.S.Lyapustin, A.A.Nemirovski və digərlərinin redaktəsi altında yazılan ən mötəbər rus tarix dərsliklərindən biri – "История Древнего Востока" (Moskva, 2009. "Drofa") əsərinə istinad etdik. Bizim istinad etdiyimiz hissənin müəllifi tanınmış professor A.A.Nemirovski tərəfindən yazılmışdır. Bununla yanaşı,

gəlin akkadların dilinin, məhz sonradan samiləşdirilmiş (arameyləşdirilən) deyil, ilkin akkad dilinin xarakteri haqqında mülahizələrin nə qədər ədalətli olmasını araşdıraq.




Bu məqsədlə haşiyəyə çıxaq və ən tanınmış dilçi-tarixçi olan Fransua Lenormanın (François Lenormant) “Первичный язык Халдеи и туранские идиомы. Филологические и исторические этюды, следующие из аккадской речи (словаря)”, Париж, 1875) elmi əsərinə müraciət edək.

Müəllif ikinci hissədə “Akkad dili Turan dili hesab olunurmu?” sualı ilə öz nöqteyi-nəzərini digər tədqiqatçıların baxışlarına, ilk növbədə M.Haleviyə (Alevi) qarşı qoyaraq, yazırdı ki, “əgər söhbət akkad deyimlərinin hansısa konkret olaraq hansısa uqro-fin yaxud türk-tatar qrupuna aid dillərdən birinin bənzərliyindən getsəydi, o zaman mənim rəqiblərim haqlı olardılar”. Lakin müəllif təsdiqləyir ki, akkad dili “zəngin turan dili ailəsinə”, yaxud “altay ailəsinə” (bizim onları necə adlandırmaq istədiyimizə uyğun) aid olmalıdır. Bununla belə, Lenormanın fikrincə, akkadların yazılarındakı deyimlərin türk və monqol dili ilə bir sıra oxşarlıq olduğuna baxmayaraq, onlar uqro-fin dillərinə, habelə Midiya sakinlərinin qeyri-ariy dilinə daha yaxındır.


THE
*Student's Manual of Oriental History.*

A MANUAL
OF THE
ANCIENT HISTORY OF THE EAST
TO THE COMMENCEMENT OF THE MEDIAN WARS;
BY
FRANÇOIS LENORMANT,
*Sub-Librarian of the Institute of France.*
AND
E. CHEVALLIER,
*Member of the Royal Asiatic Society, London.*

VOL. I.
COMPRISING THE HISTORY OF THE ISRAELITES, EGYPTIANS, ASSYRIANS, AND BABYLONIANS.

New Edition.

PHILADELPHIA: J. B. LIPPINCOTT AND CO.

Müəllif protomidiya və akkad dillərinin bənzərliyindən irəli gələn vacib xüsusiyyəti qeyd edir və bu zaman o, Əhəməni üçdilliliyinin imkanlarına əsaslanır. Bu, müasir zamanda Westergaardın, M.De Sauleyin, Norrisin, ən nəhayət, M.Oppertin və M.Mordtmanın apardıqları tədqiqatlar sayəsində mümkün olur. Onlar protomidiya dilinin turan və altay dilləri ailəsi ilə oxşarlıqlarını müəyyən edirlər, ələlxüsus ki, Midiya – Xaldeya ilə qonşu ölkədir.

Sonra müəllif nümunə olaraq “oude” dilini göstərir. Müəllifin fikrincə, məhv olmaq təhlükəsi ilə üzləşən bu dil, müəllifin qeyd etdiyi kimi, Ləzgistan və Gürcüstan arasında yerləşən bir neçə kəndlərində danışıq dili olaraq qalıb. Bu dilə parlaq dissertasiyalar həsr olunub. Onlardan biri

M.Schiefnerə (Şiefne) məxsusdur və burada bu dilin təsnifatı aparılır və o, mövcud olan turan deyimlərinin yeganə parçası olaraq təqdim edilir. Qədim zamanlarda bu dildə əsasən Suziana və Xaldeyadan Fars körfəzinə qədər olan Asiyanın böyük bir hissəsində danışırdılar ("les Memoires de l Academie İmperiale de Saint-Petersbourg, 7-ci ser. VI cild). Müəllif yazır: "...hələ bizim zamanlarda belə bu dil ailəsi həqiqətən də coğrafi sərhədlərdən kənardadır və bir çox erudit keçmiş turan xalqlarını bu günün (coğrafi) çərçivəsində" (fransız dilindən tərcümə K.İmanovundur). "Akkad dili ilə müqayisədə, biz burada çox ibrətamiz və əhəmiyyətli bənzətmələr görürük. Əgər bu gün "oude" "kalkala" (çox böyük) deyirsə, deməli burada nəinki eyni qrammatik üslubdan, hətta əsrlər əvvəl akkad dilində olan "galgal" sözünün özündən istifadə edilir. Həmçinin, "oude" dilində də - "katzkatz", yəni "bölmək, hissələrə ayırmaq", bu, akkad dilində "xasxas", yəni çox təkrarlanan "xas" – "dayandırmaq, kəsmək" deməkdir (bax: türk dilində "kəsmək" feli və törəməsi "kəs").

***"Xaldeyanın qədim turan xalqı: özünün varlığı ilə bağlı ənənələrdə iz qoyubmu?" adlı əsərinin 3-cü hissəsinə dair*** müəllifin fikrincə, "Xaldeyanın turan xalqı özünün ixtira etdiyi yazısını saxlayıb və sonrakı sami əhalisi tərəfindən istifadə edilib. Bu dilin mövcudluğunu və xüsusiyyətlərini biz təsvir edilən hadisələr, ən nəhayət Aşurpanibal zamanında Assuriyalı yazarlar tərəfindən surəti köçürülən zəngin ədəbiyyat əsasında tədqiq etmişik, eyni zamanda, bu əsərlər vasitəsi ilə bilgilər verilirdi və tərcümələr edilirdi... Və bu dil Fərat və Dəclə hövzəsində tutduğu qərəzli mövqeyinə baxmayaraq, geniş ərazi üçün kifayət edirdi".

Assuriya və akkad sözlərinin mənşəyinin fərqi üzərində dayanaraq, müəllif diqqəti “Assur” tanrısının adına yönəldir. “Assur” tanrısı Assuriya üçün bənzərsiz idi, lakin Babilistanda və Xaldeyada ona sitayiş etmirdilər. Onun ayrıca akkad adı olardı. Assuriyalılar coğrafi cəhətdən öz Tanrılarını [◣⋎◢] şəklində ifadə edirdilər və bu işarə etimoloji olaraq “yaxşı Tanrı” deməkdir. Bəziləri (məsələn, M.Halevy) təxmin edirlər ki, bu sözün kökü akkad terminidir, lakin bu termindən Babil mənşəli sami mətnlərində istifadə edilmir. Yalnız bir dəfə Aşşur Tanrısının adı liturgiyanın himnində (Mus. Brit. K 4624) səslənir və fonetik olaraq, “Ausar” şəklində xarici ad kimi yazılıb və bu forma Assuriyaya qədər məlum olan ən qədim yazılarda oxunan forma ilə tam eynidir və dilin yaranışından əvvəl olan bu adın akkad mənşəli olmasını deməyə kiminsə haqqı yoxdur”.

“Babilistan” adı üzərində dayanaraq, müəllif qeyd edir ki, qədim akkad adı olan “Din-tir”i daha son dövrlərin Xaldey çarları Babilistanı “Ka-dingira” adlandırırdılar, Assuriya dilində bu ad “Bab-ilu” kimi səslənirdi və eyni dini məna kəsb edirdi. Müəllif belə hesab edirdi ki, ümumiyyətlə, Fərat və Dəclə hövzəsində yerləşən Babilistan və Xaldeya şəhərləri burada yaşayan turanlılar və samilərin yaşayan əyalətləri əks edirdi və belə bir vəziyyət Mesopotamiyanın şimal hissəsində turan əhalisinin çoxalmasının göstəricisi idi.

Akkad dilində qonşuları adlandırmaq üçün iki xarici forma qəbul olunmuşdu: “Martu”, yəni – “Qərb” – Suriyanı, “Nimma”, yəni “Yuxarıdakı ölkə” - Susiananı işarə edirdi. Assuriyalılar bu ölkələrdən birini “Aharri” adlandırır, yəni “Arxadakı ölkə”, (qərbə nisbətən), digərini isə - Elam.

Elam adı İncildə istifadə olunur, lakin Susian - yazılarında bu ad heç mövcud deyildir.

"Babilistanın qonşuluğunda yerləşən və Nergal Tanrısına sitayiş mərkəzi sayılan, Assuriya dilində **Kute**, Akkad dilində **Tiggaba** və **Tiggab-bir** adlanan şəhər" xüsusi maraq doğurur. İncildə bu şəhər Assuriya formasından irəli gələrək adlanır. Lakin klassik coğrafiyaçılar başqa cür edirlər, belə ki Pliniy "Digba", Ptolomey Διγουα şəklində verir. Peutingerin xəritəsində isə "Diqubis" formasında qeyd olunur. Bütün bu formalar Akkada mənşəli – Tiggaba-dan qaynaqlanır, hansı ki orfoqrafik olaraq Roma imperiyası zamanından qorunub saxlanılan ənənələrə uyğundur. Biz **bu coğrafi məntəqədə xüsusi dayanacağıq, ona görə ki, aşağıda da göstərilən kimi, bura Hattilərin paytaxtı ilə əlaqəlidir**.

Müəllifin göstərdiyi digər nümunə "Cənubi Xaldeyanın qədim yaşayış məskənlərindən biri – Our (Ur), Ouruk (Uruk), yaxud Larsa ilə, – Ea Tanrısının müqəddəs şəhəri ilə əlaqəlidir. Eyni ilə sami Bel tanrısı tərəfindən assimilyasiya edilmiş Moul-ge tanrısının mərkəzi Nipour kimi. Dənizdən bir qədər uzaqda məskunlaşan assuriyalılar onu öz sənədlərində Eruti, Akkad mətnlərinə isə Rat-b adlandırırdılar. Lakin Ptolomey onun adını akkad formasına uyğun və danışıq dildə istifadəsi üstünlük təşkil edən Patta kimi qeyd edir. Akkad coğrafi nomenklaturasının sami nomenklaturasına paralel olduğunu və nəticə etibarı ilə bəzi yerlərdə son zamanlara qədər istifadə olan danışıq dilində varlığını sübut etmək üçün əlavə iki misal gətirək.

Müəllif qeyd edir ki, Assuriya sərkərdələri (kapitanları) "sak", yüksək rütbəli zabitlər isə "sud-sak" adını daşıyırdılar və bu daha qədim Xaldey dövrlərindən alındığını

göstərir. Bu xalis Akkad sözləridir, çünki "sak" – "başçı" (baş, şef), "sud-sak" – "kapitanların böyüyü", "daha qüdrətli" deməkdir, "sud" kapitandan daha üstündür. Buradan da gibrid kompozisiya olan assuriyalı "Rab-sak", yəni "le qrand sak" ("Baş Sak"), yaxud ("Sakların şefi") anlayışı yaranır ki, bu da "sak" adının Assuriya dilinin təbəəliyinə keçməsindən sonra mümkün ola bilərdi. Müəllif Xaldeyada və Assuriyada mövcud olan "dubsar" – "yazar" adının daha bir nümunəsini göstərir. Bu, sami ifadəsi deyil, xalis Akkad birləşməsidir, çünki "dub" – "plitə" və "sar" – yazmaq deməkdir.

Digər nümunə Babilistan sənədlərində istifadə olunan "sakkanakku" sözü ilə bağlıdır. Bu söz iki coğrafi işarədən əmələ gələn "ayaq" və "qulluqçu" mənasını verən "vicaire" ("vikariy") terminindən qaynaqlanır. Bu termin Babilistanda müqəddəs kral hakimiyyətinin ən yüksək rütbəsini işarələyirdi. Məsələn, kral (çar) Bel tanrısının "sakkanakku" su hesab olunurdu. "Sakkanakku" söz olaraq, suverenlik, hakimiyyət ideyası ilə bağlıdır, eyni ilə "iskunka" şəklində səslənən və Bisutun (Behistun) kitabələrində protomediya dilində pers dilində "sakuka" kimi səslənən Sakların yaxud Asiya skiflərinin başçılarının dəqiq adı kimi. Bundan başqa, susien (suzian) "sinki" – "imperiya" və "sunki-k" (suveren) deməkdir və bu, protomidiya dilində "sunku-k" – suveren olaraq öz əksini tapır. "Sakkanakku" ifadəsindən Babilistanın cənub hissəsində uzun müddət istifadə edilirdi.

Bəzi hallarda Assuriyalılar tərəfindən istifadə edilən, lakin sami, eyni ilə ərəb dilində olan, "nuab" sözü ilə tez-tez əvəzlənən "Patesi" adı da sami dilinə aid deyil. "Patesi" sözünə erkən Akkad yazılarında rast gəlinir və hökmdar hakimiyyəti altında böyük şəhərləri idarə edən

vitse-krallar, sərdar deməkdir (məsələn, Ur şəhərində). Bundan başqa, Samariyada qalib gələn Sarqon özü haqqında danışanda “Assur tanrının patesi” olaraq deyir, bu da “nuab Assur” ifadəsinə bərabərdir.

**Sonda müəllif vurğulayır ki, qədim Xaldeyin qeyri-sami xalqı sami dillərindən köklü şəkildə fərqlənən Turan dillərinə mənsub olmuşlar. Qrammatik və leksik cəhətdən bu dil fin-uqor, samodi, türk, monqol və tunqus dillərinə bənzəyir, yəni spesifik Turan dil ailəsinə daxildir.**

Xaldeyanın bu qeyri-sami xalqı aşağı Dəclə və Fərat ölkələrinin coğrafi adlarında, arxiv sənədlərdə, sonrakı müəllif və klassiklərin mixi yazılarında və İncildə öz mövcudluğu haqqında çoxlu tarixi izlər buraxıb. “Qədim mənbələr Babildə və Xaldeyada iki irqin mövcudluğunu müəyyən edir”.

Berosa və Yevseviyə istinad edən F.Lenormann, Xaldey-Babil imperiyasının qeyri-sami mənşəli tayfalar tərəfindən yaradıldığını göstərir. Berosa görə əsasını Xaldey təşkil edən Babilin ilk sakinləri əcnəbi idi. Həmin əcnəbilər bu ərazilərə Oannes tanrısı tərəfindən şəxsən gətirilən digər irqin nümayəndələri idi. Aydındır ki, burada söhbət Berosun zamanında olan babillilərdən, yəni Berosun özünün aid olduğu sami mənşəli xalqa münasibətdə əcnəbilərdən gedir. Bu bir daha sübut edir ki, sivilizasiyanın yaradıcıları samilər deyildi. İlk Sələvkilər dövrünə aid abidələr, müqəddəs kitablardan toplanmış və Turan dillərinə aid olduğu danılmayan dövrün mətnləri bunu təsdiqləyir.

Müəllif hesab edir ki, Şumer və Akkadların etnoqrafik ikililiyinin yalnız siyasi mənada şərh olunması yanlış bir nöqteyi-nəzərdir, və bu gerçəklik əslində həm etnoqra-

fik, həm də linqvistik məna daşıyır. Müəllif yazır ki, “Şumer və Akkadın ikililiyi əslində etnik cəhətdən iki əsaslılığa söykənir və bunu Assuriyalılar ən başından dərk etmişdilər”.




Qeyd olunanlara onu da əlavə etmək istərdim ki, hal-hazırda Müəllif Hüquqları Agentliyi tərəfindən 2017-ci ildə kitabı nəşr olunan tarixçi-dilçi Elşad Əlilinin “Akkad dilində türk kəlmələri və erməni dilində akkad sözləri” adlı tədqiqat işi əsasında hazırlanmış Akkad dilində türk kəlmələrinə dair geniş məlumatlar var.

Bununla, haşiyəyə çıxaraq və qısa tarixi təqdimatı davam edərək, subarlar mövzusuna qayıtmalıyıq. Aşağı Mesopotamiyada Şumer cəmiyyətin formalaşmasından sonra subarların məskən saldığı ərazilər Yuxarı Dəclə, Şimali və Mərkəzi Zaqros boyunca yerləşən torpaqları əhatə edirdi və sonralar akkad dilində “Subartu / Şubartu” kimi səslənən “Subarlar ölkəsi" adlandırılmağa başlandı. Bundan əlavə, ehtimal edilir ki, III minillikdən II minilliyə keçid dövründə Subarlar onların şimal-şərq qonşuları olan və İncildən “xorey” kimi tanınan Hürrilər tərəfindən assimilyasiya edilmişdilər. Məhz o zamandan bəri onlar Mesopotamiya mənbələrində “subaru / şubaru” kimi adlandırılmağa başlanıldı.

Tarixi tədqiqatlarda fərz edilir ki, Şimali Ərəbistan ilə həmsərhəd olan Dəclə və Fərat çaylarının aşağı axarından cənub-qərbdə ubeydlərin məskunlaşdığı ehtimal edilən areal - “Eann dağları”, bundan qərbdə və şimal-qərbdə, Fəratdan Mərkəzi Suriyaya qədər ərazilərdə suti sami tayfaları yerləşirdi və bu Şumerin qərb sərhədləri idi. Şi-

mali samilər və ya eblaitlər (eblalılar) (Suriyadakı Ebla şəhərinin adı ilə) Şumerdən şimal-qərbdə yerləşirdi. Ebla ərazilərini Şumer-akkadlar Martu (şumercə) və Amurru (Akkadca) adlandırırdı və hər iki halda "şimal-qərb" (coğrafi baxımından həqiqətən Aşağı Mesopotamiyadan bu istiqamətdə) mənasını daşıyırdı.

Şimali Suriyadakı Aman dağlarından Mərkəzi Zaqrosa qədər ərazilər, yəni Yuxarı Mesopotamiyanın əksər hissəsi isə Subarilərin ölkəsi – Subar adlanırdı. Eblalılar və Subarilərin bu ərazilərdə bir zamanlar mövcud olmuş nom dövlətləri digər şəhərləri də özlərinə tabe etdirə bilmişdi və Ebladakı qazıntılardan verilən nümunəyə görə Amurra (Suriya və ətraf ərazilər) e.ə. III minilliyin ortalarında Eblanın hakimiyyəti altındakı dövlətə daxil idi. Güman edilir ki, Eblalılardan o tərəfdə finikiyalıların qərbi-sami əcdadları (Biblos, Uqarit və s.) yaşayırdı, Subarilərdən şimal və şərq tərəfdə, Van və Urmiya gölləri arasında isə hürri dağ tayfaları, müasir İran Azərbaycan və Zaqros dağlarının şimal-şərq qollarında isə Kutilər / Qutilər məskunlaşırdı. Hazırda qutilərin şərqi-qafqazlı vaynaxların, Kutilər isə Dağıstanlıların qohumları hesab edilir (qeyd edək ki, bunlar əlavə elmi sübutlar tələb edən versiyalardı). Daha sonra onlardan şərqdə Dravidlərin yayıldığı areal gəlirdi, cənub-qərbi İrandan – Fars sərhədlərindən Mesopotamiyaya qədər ərazilərdə isə Mesopotamiyada Elam (Akkadca "yüksək, dağlıq ölkə") adlandırılan tayfalar yaşayırdı. Mərkəzi İranın ərazisində Şumer ilə əlaqəsi olan qədim bir dövlət – Aratta da yerləşirdi. Xüsusilə qeyd edək ki, Elamın, Mesopotamiya və Subarilər və Kutilərin yaşadığı ərazilərin birləşdirdiyi Zaqros dağları rayonu şumerlər tərəfindən "Dağlıq sidr ölkəsi" adlandırılırdı və son-

ralar burada Elamlılara qohum olan dağlı-lullubilərin diyarı vardı.

İndi isə siyahıda sadalanan qəbilə və dövlətlərin əlaqələri haqqında söz açaq.

Qədim Sarqon (e.ə. 2316-2261-ci illər) tərəfindən yaradılan Akkad dövləti onun nəvəsi Naram-Sinin (e.ə. 2236-2200-ci illər) dövründə süqut etdi. O, əvvəlcə hücum edən "şimal barbarları" ("Umman Manda, döyüşkən manda" adlanan, Kutilər və Lullubilərdən ibarət yarıköçəri tayfalar) dəf etmiş, lakin sonra Kutilər onu məğlub etdi və ölkəni öz hakimiyyəti altına aldılar. Akkad imperiyasının süqutundan sonra, Kutilərin hakimiyyəti dövründə Yuxarı Mesopotamiyada da dəyişikliklər baş verirdi. E.ə. XXII əsrdə (ortaları – ikinci yarısı) şimaldan bu ərazilərə hurilər (İncildə – Xoreylər), cənubdan sutilər soxuldular və o dövrdən bu bölgənin əhalisinin əsasını təşkil etdilər.

# Qədim Babilistan dövründə Mesopotamiya



Bir çox müəlliflərin tarixi mənbələrində qeyd edildiyi kimi, hürrilər subariləri assimilyasiya etmiş və daha sonra onların adı altında hərəkət etmişdilər. Sutilər isə öz növbəsində eblalıları (şimali samilər) assimilyasiya etmiş, mesopotamiyalılar isə sutiləri əvvəllər şimali samilərə tətbiq olunan "Amurru" (Amoreylər, Amoritlər) adı ilə adlandırmağa başlamışdılar. Sutilərin bir sıra tayfa ittifaqları mövcud idi, o cümlədən, sutilərin özləri, xaneylər və s. Üçüncü minilliyin sonu və sonralar onları artıq **amoreylər** və ya **suti-amoreylər** adlandırırdılar.

**Təqribən e.ə. XXII ə. başlayaraq, subari-hürrilər simbiozu subarilər adı ilə, emblait-sutilər simbiozu isə amoreylər (suti-amoreylər) adı ilə çıxış edirlər.** Bununla yanaşı, birinci halda etnonim assimilyasiya olunmuş hissə tərəfindən saxlanılmış, ikinci halda isə yeni bir etnonim ortaya çıxmışdır. Bu hadisələr III Ur sülaləsini əvəz etmiş və öz növbəsində kutilərin hökmdarlığının ləğvindən sonra iqtidara gəlmiş Urdan olan İssin çarlarının sülaləsi dövründə (e.ə. 2017-1794-cü illər) baş vermişdir.

Beləliklə, yerli əhali ilə birlikdə Mesopotamiyada suti-amoreylər yaşayırdı. Yarı köçəri həyat tərzinə görə onların başçıları çadırlarda, sıravi amoreylər isə şəhərlərə yaxın, otlaq üçün yararlı yerlərdə məskunlaşırdılar. Hər bir Amorey (suti) tayfasının özünün hökmdarı, tayfa başçısı vardı və onlar zamanla güc mərkəzlərinə çevrilir, Mesopotamiyanın digər vilayətləri üzərində hökmdarlığını təsis edirdi. Bu dövlətlərdən cənubda Ur sülaləsinin mirasına iddia edən yamutbala tayfa ittifaqının Lars çarlığı (e.ə. 1800-cü il) dominantlıq edirdi, mərkəzdə amnanu tayfa ittifaqının paytaxtı – Babil, Orta Fəratda isə Xaneylərin tayfa ittifaqının paytaxtı – Mari hökmdarlıq edirdi. Bir qədər sonralar keçmiş Mari çarlığı və Assuriya dövləti də daxil

olmaqla, bütün Yuxarı Mesopotamiya Xaney hökmdarı Şəmşi-Ədədin (e.ə. 1824-1777-ci illər) qədim Subartu adı ilə "möhtəşəm" adlandırılmış böyük dövlətinin tərkibinə daxil oldu.

E.ə. XVIII əsrdə məşhur Babilistan çarı Hammurapi (e.ə. 1792-1750-ci illər) Mesopotamiyanı yenidən birləşdirdi və bundan sonra bu dövr (e.ə. 1895-1595-ci illər) Qədim Babilistan dövrü adlandırıldı. Hammurapi ilk olaraq (e.ə. 1790-cı ilə qədər), Şəmşi-Ədəd və onun Haney çarlığı Subartunun Mesopotamiyada başçılığını qəbul etdi, lakin sonuncunun ölümündən sonra onun ölkəsi hissələrə parçalandı, birincilik isə Elam çarı Kedorlaomerə (elamca Kutir-Laqamar, e.ə. 1770-ci il) keçdi. Və bu barədə İncildə belə bir hekayə var ki, Elamın çarı Kedorlaomer digər 7 Mesopotamiya dövlətlərinin bir sıra başçılarını, o cümlədən, Senaardan Amrafeli (qədimi yəhudi dilində Babilistanın və Hammurapinin adları) birləşdirib Transiordaniyaya yürüş edərək, Mesopotamiyanın çarlarının çoxunu (Kedorlaomerin mənşəyi barədə biz ayrıca dayanacağıq) özünə tabe etmişdir. E.ə. 1764-cü ildə Hammurapi Marinin hökmdarı Zimrilimlə ittifaqda Elamda hakimiyyəti devirmiş və ardınca Şəmşi-Ədədin oğlu İşmi-Daqanin başçısı olduğu Subartunun qalıqlarını özünə tabe etmiş, bundan sonra isə Maridən olan müttəfiqini də devirib, Elamı işğal edir və bununla da e.ə. 1755-ci ildə Babilistan mərkəzi olmaqla ümumi Mesopotamiya imperiyasını yaradır. Hammurapinin varisi Samsunlunun dövründə (e.ə. 1749-1712-ci illər) Hammurapinin dövləti "kass" (akkadca "kassu", hazırda ümumqəbul edilmiş – kassilər) tayfaları tərəfindən darmadağın edildi. Bir sıra müəlliflər güman edirlər ki, "kass" özadlandırma kimi "kaspe" səslənirdi və onlar kaspilər idi. Qandanın başçılığı altında kas-

silər Babilistanı iki hissəyə böldülər, davam edərək Orta Fəratda məskən saldılar və yerli amoreylərlə birgə Terka şəhəri paytaxt olmaqla kassi-amorey Xana dövləti yaratdılar. Yuxarı Mesopotamiya Babilistandan aralanmış oldu və Aşşur da daxil olmaqla kiçik siyasi vahidlər ərazisinə çevrildi.

E.ə. 1722-ci ildə zəifləmiş Babilistandan cənub Dənizkənarı çarlığı qopdu, e.ə. XVIII ə. sonunda elamilər Suzanı (Şuşanı) geri qaytardılar, Babilistana yürüşlər etməyə başladılar, sonralar Yuxarı Mesopotamiyanın əsasən amoreya hissəsi şimaldan və şimal-şərqdən gəlmiş hürrilər tərəfindən ələ keçirildi. Hürrilər burada Hanihalbat adlı dövlət yaratdılar, onun özəyini amoney-haneylərin keçmiş torpaqları təşkil etdi. Bu dövlətin adı "Haneylərdən kəsilmiş (qoparılmış)" deməkdir və buradakı yeni sülalə dövründə e.ə. XVI ə. başlayaraq, Mitanni adlanmağa başlamışdı. Bütün bunların nəticəsi kimi e.ə. 1595-ci ildə Hett çarı I Mursili Babilistana yürüş edib Hammurapi sülaləsinə son qoymuşdur. Bundan sonra Babilistanda hakimiyyət dağlı-kassilər sülaləsinə keçdi. Bu Orta Babilistan dövründə (təqribən e.ə. 1595-1150-ci illər) kassilər dövləti Babilistanda Karduniaş adlanırdı. Kassitlər Babilistanı birləşdirdi, Dənizkənarını özlərinə tabe etdi, Mitannidən Orta Fərat vadisini aldılar. Onların tarixi torpaqları "Kaşşu ölkəsi" cənub-mərkəzi Zaqros dağlarında idi. Kassit sülaləsi dağlı-elamitlərin hücumları nəticəsində süquta uğradı və e.ə. II minilliyin sonuna qədər olan sonrakı dövr pers istilasına qədər Yeni Babilistan dövrü adlanır. Babilistanda Kassit sülaləsinin hökmranlıq etdiyi dövrdə (e.ə. XIV ə.) şumer-akkad arealının şimal əyalətində yerləşən Aşşur / Assur yüksəlişə keçdi, o, geniş ətraf əraziləri özünə tabe edərək, qədim Şərqin – Assuriyanın qüdrətli dövlətlərin-

dən birinə çevrildi. Mahiyyət etibarı ilə həmin dövlət nom şəklində orta Dəclədə e.ə. III minillikdən mərkəzi eyni adlı Aşşur şəhəri olmaqla mövcud oldu. Elmi nəşrlərdə ehtimal edirlər ki, onlar akkaddilli tayfaların əsas kütləsindən qopmuş "assuriyalılar" adlanan əhali idilər. Bu yerlərdə onlar hələ e.ə. təxminən 3000-ci ildən məskunlaşmışdılar. Aşşur e.ə. XXIII-XXI əsrlərdə Akkad və Ur dövlətlərinin tərkibinə inzibati mərkəzlərdən biri kimi daxil olmuşdu. III Ur sülaləsinin süqutundan sonra Aşşuru hürrilər ələ keçirdi və assuriyalılar öz dövlətçiliyini bu tarixdən hesablamağa başladılar. Qeyd edilməsi mühümdür ki, tarix dərsliklərində ehtimal edilir ki, e.ə. təxminən 1970-ci il-də Aşşurda hakimiyyəti yerli aşşurlar (assuriyalılar) sülaləsi ələ keçirdi və altı əsr ərzində həmin nom özünüidarə icması siyasi müstəqilliyə malik oldu. İstisnanı e.ə. XIX və XVIII əsrlər təşkil edir ki, bu dövrlərdə Aşşura torpaqları Şəmşi-Ədəd və Xamurapi çarlıqları tərəfindən işğal edilmişdi. Həmin dövlətin tarixini qədim Assuriya (e.ə. XX-XVI əsrlər), orta Assuriya (e.ə. XVI-XV əsrlərdən e.ə. XI-X əsrlər, aramilərin gəlişinə qədər) və yeni Assuriya (e.ə. XI-X əsrlərdən e.ə. VII əsrə, Assuriyanın Babilistan və onun müttəfiqləri tərəfindən məhv edilməsinə qədər) dövrlərinə bölürlər.

## Xett çarlığı (e.ə. XV-XIII ə.)



**2. Hattilər haqqında.**

**Hattilər haqqında məlumat.**

Bizim nəzər-nöqtəmizə görə, Arme / Erme / Armi / Arminiya sözlərinin mənşəyi klassik mənbələrə və qədim mətnlərə əsaslanaraq, buraya Herodot, Strabon, Kalisfen, Berros, Pindar, İncil, Hett, Assiriya, Misir və s. yazıları, İ.Şopen, R.B.Byörton, O.R.Henri, E.Renan, A.N.Seys, Anati və s. kimi bir sıra tanınmış tarixçilərinin, eləcə də zəif işıqlandırılmış C.R.Konderin, A.P.Uott, Xammel, Opperta, U.Vinkler, Xelsveld, Roumensonun və tamamilə istifadə edilməmiş A.T.Qaley, R.O.Fessenden, C.Kempbell, Levis, B.Paton və başqalarının əsərləri də daxildir. Adı çəkilən müəlliflərin bəzi elmi araşdırmaları sovet və daha sonra Rusiya tarixçiliyində zəif istifadə olunurdu və o cümlədən, rus dilinə tərcümə edilməyib, amma ingilis və fransız dillərində mövcuddurlar ki, biz tərcümə edərək onlara istinad edirik.

Formalaşan nəzər nöqtəsinə əsasən Arme / Erme / Armi və Arminiya terminləri hattilərə (ibtidai hettlərə, İncil hettlərinə) gedib çıxır, qəbilələr icmalarından birinin bu etnonimi, eyni ilə onların yaşadığı arealla əlaqədar olan oxşar toponimdir.

Biz sübutlarımızı hattilər haqqında qısa məlumatdan başlamaq istərdik. Məlum olduğu kimi Hattilər (ingilis.: Hittites; yəhudi: Hebrew), בני־חת. חתים ; Septuagində: Chettai LXX Χετταῖοι, Χεττείν, υίοὶ [τοῦ] Χέτ; Vulgate (Vulqata), "Cetheai" , "filii Heth", Assyrian (Assiriya), "Khatti", Egyptian (qədim Misir), "Kh-ta", eləcə də Khiti, Khatai, Kitai və s. kimi İncil annallarında, Misir, Assuriya, Urartu və öz mənbələrində qeyd edilir.

Hatti (Heth) adında birinci hərf boğaz sait səsidir və təsadüfi deyil ki, Septuaqinda (Septuagint) bu sözü

Chettai kimi verir ki, bu da etnonimin səslənmə formasına müvafiqdir.

Hattilər – qədimi İncil xalqıdır, belə ki, İncildə (Genezis: 10: 15) Hett Sidondan sonra Xanaanın (qədim Fələstinin adı) ikinci oğludur. Herodota görə, hattilər – "suriyalıdırlar", Strabona görə isə - "ağ suriyalıdırlar". Bununla yanaşı, hattilər – turan mənşəli xalqdır (J.Cempbell "The Hittes. Their İnscriptions and their Histroy, Montreal, Toronto, Villiamson Co, 1890, A.H.Sayce "The Hittites. The story of forgetten Empire", Fleming H.Revell Co. N-Y., Chicago: C.R.Conder "Altaic Hieroglyphes and Hittite İnscriptions", A.V.Watt "Palestine exploration Fund, 1889").

- Hattilər – tipik turanlılardır və İncilə ("Genezis") görə Hamath-ların nəslindən olan Xanaanlardır (C.Kempbell).

- Nuhun oğullarının övladlarında (Genezis (Bıtye), 10-cu fəsil) oxuyuruq: "Və Ханаан Sidonun atası idi, onun ilk oğlu və Het, həmçinin yevuslular, amorlular, qirqaşlılar, xivlilər, arkeylilər, sinlilər, arvadlılar, zematelilər, hamatiyalılar."

- C.Kempbellə görə, Ханаанanın ilk iki - tayfa adlarından əvvəl gələn yeganə adlar – nəslindən olan "Hivitlər və Amoritlər" Sidona, hamathitlər (hamateylər) isə Heth-ə mənsubdurlar. Ханаан (Canaanitic) ailələrindən yalnız ikisi - Sidonians və ya Phoenicians (finikiyalılar), daha çox Horites (xorritilər və ya xuritilər), Hivites və ya Amorties (amoritlər) və Heth (hattilər) kimi tanınan tayfalar imperiyaya yüksəldi. Onlardan birincisi [Sidonians], heç olmasa, danışıq nitqində tamamilə semitləşdi, ikinci tayfa isə tipik Turanians (turanlılar) olaraq qaldı.

İncilə (“Yaradılış (Genezis XII, 7) görə, Shinaar (Mesopotamiya, qədim Babil) imperiya dağıdılanda və “Peleg torpaqlarının bölünən günlərində” “Sidon nəslindən olan Canaanites Shinaar-dan qərbə, Aralıq dənizinə, onların Cush nəslindən olan qardaşları isə cənubdan Ərəbistana köçdülər. Bu dağılmadan 5 nəsil sonra Abram Xanaana torpağına girdi”. [Ханаан - Fələstinin, Suriyanın və Finikiyanın və ya İncildə “Vəd edilmiş torpaq” adlandırılan Aralıq dənizi və Ölü dəniz arasındakı ərazinin ən qədim adıdır.]



- Hattilərın mənşəyi barədə verilmiş sxem İncildə (Ветхий Завет), ("Yaradılış (Genezis XII, 10-cu fəsil) olan məlumatlara və C.Kempbellin şərhlərinə uyğundur. Patriarx Avraam (Peyğəmbər İbrahim, Quran) Fələstin torpağında Hattilər ilə, bu torpaqları idarə edən Ephron (Hatti evinin banisi Ashchur'un nəvəsi) ilə qarşılaşdı və arvadı Saranın (Махпел mağarası) dəfn edilməsi üçün bir yer əldə etmək üçün ona müraciət etdi.

- Hattilər Fələstinə Şimali Mesopotamiyadan gəldilər, harda ki, onların Kutha (Babilin şimalı, Assuriya adı Kute və əsl Turanca adı Tiggabaki), Ptolemeyə Digona və ya Tekoa adlanan paytaxtları var idi. "Kutha-dan olan qədim yazılar Hatti imperiyasının yaranmasından bəhs edir". Təqdim olunan məlumatı prof. C.Kempbell Smitin "Chaldean Account of Genesis» и «Records of the Past" və "Records of the Past" v.166. istinad edərək verir. Təqdim edilmiş sxemdən görünür ki, C.Kempellə görə hattilərin və hatti qəbilələrinin Fələstində peyda olması, Hatti evinin banisi Ashchur'un iki evliliyindən olan 7 oğlu ilə bağlıdır. Məhz ilk Hatti evinin torpaqlarını genişləndirmək üçün Kutha-nı (Tiggaba) tərk edən 7 oğul idi, baxmayaraq ki, onların köçü Fəratın daşması və sonrakı daşqınla əlaqəli ola bilərdi.

- ✓ Assuriyalı tacirlərin sənədlərinə əsasən, "Hatti" ölkəsi Divriqa yaxınlığında idi [Lewis Bayles Paton "The Early History of Syria and Palestine"];

**Beləliklə: hatların ilkin məskunlaşma arealı – Şimali Mesopotamiya, Fələstin, Şimali Suriya, Mərkəzi Anadolu, Kipr.**

Hattilər Fələstində (cənub hissədə) onun yəhudi istilasına qədər olan dövründə yaşayıblar (Əhdi-Ətiq, E.Anati "Palestine before the Hevrews", Campbell, Sayce –

müəlliflərinin yuxarıda göstərilən əsərləri və həmçinin O.R.Henrinin “Hettlər” əsəri). Hattilər Fələstinə Şimali Mesopotamiyadan (qədim paytaxtları Kutha və ya Hattilərin dilində Tiggaba) gəldilər və sonradan Şimali Suriyada, Mərkəzi Anadoluda, Kiprdə və s. (J.Campbell) məskunlaşdılar. Hattilərin Suriyada məşhur şəhərləri – Hammath, Kadeş, Karkemiş (Şimali Suriyada hattilərin paytaxtı). Hattilərin yaşadığı areala cənubda Kommagenlər daxil idi ki, onun da ən erkən sakinləri demək olar ki, əzəldən Taurus dağlarının (cənubda Kilikiya, şimalda Kappadokiyaya və şərqdə Arminiyaya qədər: onların ilkin vətəni Mother-Country (Ata yurdu) – şimaldakı ərazilər idi) hər iki cəbhəsində məskunlaşmışdılar, bunu da burnu dik çəkmələr, əlcək və ya dağlar şəklində olan heroqlifləri sübut edir (Sayce).

Hattilərin **cənuba ilkin miqrasiya yolları:**

Qafqazdan yol – narıncı rəngdə



R.O.Fessendenə görə, hattilər Ab-Ur (Günəş – od pərəstişkarları) tayfalarından törəmiş, Cənubi Qafqazdan Fərat çayı vadisinə oradan Ərəbistana miqrasiya etmiş və sonradan sutilər kimi tanınmışdılar. Sonradan şimala qayıdaraq və qiksoslar və hattilər (hettlər) kimi tanınaraq Armeniyanın dağlıq hissəsində hakimiyyət qurmuş, buradan da Şərqi Qafqaza və Qara dəniz sahillərinə geri qayıtmış və skif-saklar kimi tanınmışlar (R.O.Fessenden, "The Deluged civilization of the Caucasus isthmus", Ch. I-XI, 1923-1927, Cambridg, Massachusetts, USA, Kanada). Sakların, sutilərin, qiksosların və hattilərin qohumluğu haqqında E.Rennan da "История израильского народа" əsərində yazmışdır.

**Hattilər Fələstində**




**Mənbə**: *I.Chron., iv, verses 5-7c J.Campbellin şərhləri ilə*

Qısaca Hatti dili üzərində dayanaq.

Qeyd edək ki, Hatti dili iltisaqi (aqqlyutinativdir) və bunu tədqiqatçı professorlar (Fessenden, Campbell, Sayce və başqaları, Svyatiçanın Ural-Altay qrupu dilləri, turan dilləri ilə bağlı əsərlərinə görə bax) göstərirlər.

Bu dilin böyük təsiri mövcud idi. Belə ki, Suriya və Mesopotamiyanın müxtəlif dialektlərindəki qədim Hatti dili Persiyanın turanlılarının, Hindistanın hind-sakların və başqa xalqların dilinin əcdadı olmuşdur (C.Kembell).

Qafqazdan gələn və turanlı olan hattilərin öz dilləri var idi. Məlumdur ki, turan dilləri aqlyutinativdir, aqqlyutinasiya müasir Qafqaz dillərinə də xasdır. Fessendenə görə isə "protoqafqazlıların dili aqqlyutinativ idi". Hattilərin da dili aqqlyutinativ idi. Bu dil Proto-Midiya və qədim Xaldeylərin dilləri ilə oxşar Akkadia (qədimi Akkadia) dilləri ilə oxşar idi (Conder, Campbell) ki, onlar ilk növbədə Ugro-Altay dilləri – fin, macar, türk dilləri ilə yaxındırlar (Lenomant, Conder, Jevishensyslopediya).

Hatt dili qismən Qafqaz dilləri ilə də oxşardır (J.Campbell, Sayce), Qafqaz dilləri isə Yafət dilləridir ki, bu və ya digər dərəcədə aqqlyutinativdir. Akademik Marr hesab edirdi ki, hatt dili aqqlyutinativ və sami dillərin qarışığından əmələ gəlib. Eləcə də qeyd edək ki, Hatt qədimi yazıları Kipr və Van (Urartu) yazılarına, eyni ilə də elamit (new Elamitic), Kassit (Cossaen) dillərinə yaxın idi (Lenormant, Hommel). Hattilərin dili həmçinin müasir çuvaşların dili ilə də oxşardır. Çuvaş dili (türk qrupu, bulqar şaxəsi, hardasa türk və uqrofin qrupları arasında yerləşir) bak, etrusk, Qafqaz dilləri kimi (J.Campbell) hattilər və Qafqaz yafətidləri arasında bir körpüdür (J.Campbell, Marr).

Elə bütövlükdə də turanlıların və şumerlərin aqqlyutinativ dili ilə çuvaş dili arasında oxşarlıqlar qeyd edilir

(Marr). Nəhayət Hatt (Hammathite) heroqlifləri hecalı Kupr əlifbasının da mənbəyi olmuşdur (Sayce, Conder və s.). Və bu olduqca mühümdür. Təkrarən, bir daha qeyd edək ki, axı məhz alban tarixçi M. Kalankatuklu albanların mənşəyinə işarə edərək yazırdı: "... Onlardan, kittilərdən – Yafətin oğullarından kiprlilər ayrılıb" (Kitab 1, fəsil 2.).

Bu barədə daha ətraflı məlumatları K.İmanovun "Qafqaz Albaniyası və Kiçik Asiyanın hattları" (Bakı, Müəllif Hüquqları Agentliyi, 2015 – 2017) kitabından əldə etmək olar ki, burada Kiprin qədimi adı – Kittium və hattilərin buraya miqrasiyası qeyd edilir.

Hattilər haqqında mənbələrə və tədqiqatlara əsaslanaraq, təqdim edilən qısa məlumat üzrə hattilərin Kuti, Lullubi, kassitlər və Sak tayfaları ilə bütövlükdə qohum olmaları barədə qənaətə gəlmək olar. Belə ki, Lullubi və Kuti Uman-Manda adlandırılırdı, onlar da saklar idi (Uqo Vinkler, Xelsfeld), öz növbəsində Kuti çarlığını Babilistanı ələ keçirən protomidiyalılar təşkil edirdi (Berros), midiyalılar isə Kuti və ya aşquzların bir qolu – Sak idi (J.Oppert "On the Median dynasty", London, 1876, eləcə də Rowlinson). Yaxud hattilər və kassitlər (kasslar) saklar idilər (A.T.Glay "Personal name from cuneiform inscriptions of the Cassite period").

**3. Mənbələrə və araşdırmalara görə Hattilərlə qohum tayfaları bir daha qısaca sadalayaq.**

- ❖ Ər və kassitlər, Septuagintə görə, xETTa COS (Err və ya xETTEy) və xETTEIµ KASI adlandırılırdı (1911, Britannica Ensiklopediyası).
- ❖ Lulubi və kuti həm də Umman-Manda (Uqo Vinkler, Heltsveld) və ya Saka, hattlardan törəmişdir.

- Кути Çarlığı Babil (Berruz) üzərində hakimiyyət quran Protomidyanlardır.
- Kuti Şumerlərinin bir qolu olan Midiyalılar, onlar da Aşquzlar (Saka) adlanır (J.Oppert "On the Median dynasty", London, 1876, Rowlinson).

**Beləliklə,**

- Hattilər və kassitlər sakalardır (A.T.Glay "Personal name from cunui form inscriptions of the Cassite period").
- **Buna görə də hattilər, kassitlər, kuti, lulubi və midiyalılar qohum tayfalardır.**




Mənbə:
https://ru.wikipedia.org/wiki/%D0%A5%D0%B0%D1%82%D1%82%D1%8B_(%D0%90%D0%BD%D0%B0%D1%82%D0%BE%D0%BB%D0%B8%D1%8F)







Mənbə: https://en.wikipedia.org/wiki/Hittites

**Qafqaz Albaniyası aspektində saklar və hattilərin genetik yaxınlığı prinsipial rol oynayır, buna görə qeyd edirik ki:**

- Chabiri və ya Hab / piri (döyüşkən tayfalar, işğalçı-gəlmələr) Amarn yazılarında saklar olaraq tanınır və aşkar edilmiş şumer ideogramlarında (Glay, G.Johannes Botterweck və s. "Qızıl Testamentin Teoloji Lüğəti") SA.GAZ, SA.GAZ.ZA, SA.GA.AZ, SAG.GAZ, GAZ kimi adlandırılır.
- Chabiri = Hittita xalqından biri – Mittannian (Mitanlı-hattilər) (Glay, M.Greenberg "The Hab / piry", Americ. Orient. Soc. New Haven, 1955).




**Şumer ideoqramları**
**Saklar (skiflər) = suti = giksoslar hattilərdir**

Mənbə: *Fessenden və E.Renan "İsrail xalqının tarixi"*

**Sakların / Skiflərin mənşəyi haqqında bir neçə söz:**

- Sakyas (saklar) və ya Skyths (skiiflər) qeyd edildiyi kimi, Sucathites və ya Socho xalqından gəlir, onların əcdadı Hatt – Cherpher / Herper / Heber – Ashchur'un ikinci arvadından olan ikinci oğludur. Cherpher'in (Chedorlaomer) nəsilləri Elamda ilk Hatti imperiyasını yaratdılar – "Subartu insanları"; Cherpher'dan "Kipr" adı gəlir; Achshtari nəsilləri ilə qohumlaşaraq giksoslar arasında olublar (J.Campbell "The Hittites").

- Saklar / hattilər həm də giksoslardır:

"Ashchur" adı Shachar ilə eynidir, "alef" hərfini nəzərə alaraq (J.Campbell "The Shepherd Kings of Egypt"), burada 'hac' (hak) "lider" ("hakim") mənasını verir, daha tam formada isə "Hyksos" – "Giksoslar". Eynilə "Achuzam" adı da Ashchur'un ikinci evliliyindən olan böyük oğlu (Achuzamites – ən məşhur Hatti ailəsi) ilə bağlıdır, buradan da "hak" gəlir, həmçinin "Casium" (dağ və ərazi) adı, giksosların yerleşdiyi Sachisu adlanır (J.Campbell).

- C.Kempbellə görə, misir adı ola "Misir / Misr" Musara adı vasitəsilə də Ashchuzam adına keçdiyi, son "m" hərfinin dəyişməsi ilə bağlıdır. Və təsadüfi deyil ki, Ashchuzamites yalnız "Giksosların liderləri" deyil, həm də Misir tarixinin yaradıcısıdırlar. Eyni zamanda, Fessenden və D.Rollun ("Генезис цивилизации") fikrincə, M'Acr ("Из Асера ") adı Aser (Osiris) adı ilə bağlıdır;

- Bizim fikrimizcə, Ashchuzam adı "Ashchuz" kökünə malikdir, "Askuz / Aşkuz" kimi oxunur və ya "alef" hərfini atdıqda "skuz / şkuz" olur ki, bu da erkən oğuzların – Skiflərin (Sakların) semit adları ilə üst-üstə düşür. Eyni şəkildə "Ashchur" adı - Ashchuzam'ın atası, "Askxur /

Askur / Aşkur" kimi səslənir və turan (türkdilli) dillərində "r" hərfini "z" ilə dəyişdirmək tipik əvəzləmə yolu ilə Askuz / Aşkuz-a gətirib çıxarır. Həmçinin, "Ashchuzam" adından "m" hərfini sözün əvvəlinə keçirərək və "z" hərfini "d" ilə əvəz edərək, Mashchud / Machud (massaget, maskud) əldə etmə ehtimalını qeyd edək.

**Beləliklə, saklar (skiflər) = sutilər = giksoslar hattilərdir** (Mənbə: Fessenden və E.Renan "İsrail xalqının tarixi").

Onu da qeyd edək ki, hattilərin inancları günəş ilə bağlı idi.



**Hattilərin Günəş diski**

**Hattilərin Elam, Anadolu, Ərəbistan, Misir, Assuriya və s. ərazilərə çoxsaylı köçlərini qeyd edərək, onlardan kipr və qafqaz köçləri üzərində dayanacağıq ki, bu da Hattilər – Kitti – Sakalar – Albanlar arasında əlaqəyə dəlalət edir** [Əlavədə Fələstində Hatti suverenliyinin banisi Ashchur'un oğullarının köç yollarını göstərir].

Hattilər bir sıra miqrasiyalar etmişlər və bunlardan Kipr və  Qafqaz miqrasiyalarını qısaca olaraq, xüsusi qeyd edirik.

## Kipr miqrasiyası

- ✓ Bəllidir ki, Kiprdə ən qədim yaşayış yeri Kittimdir (Xirokitia) (e.ə. IV minilliyin ortaları).
- ✓ Kiprin qədim tarixinə görə, tunc dövründə (e.ə. 3500-2750-ci illər) adaya hattilər gəlmiş və qədim semit əhalisini özlərinə tabe edərək kitti xalqını və ya etnokipriotları yaratmışlar.
- ✓ E.ə. XIII əsrdə Hett İmperiyası və Misir arasında Suriya və Fələstinə sahib olmaq uğrunda müharibə hettlərin qələbəsi ilə başa çatmış və e.ə. 1200-cü ilə qədər Kitim Hett çarlığının asılılığında olmuşdur.
- ✓ Hettlərin frigiyalılarla müharibəsindən və axeylər ("dəniz xalqları") tərəfindən məhv edilmiş Troyanın (e.ə. 1200-cü il ətrafında) süqutundan sonra Hett dövləti çökmüş və Kittim axeylərin əlinə keçmişdir.
- ✓ Axeylilər, Fələstini ələ keçirərək yerli xalqlardan "filimstimlilər" adını almış və Kittimdən (yəni, Kiprdən) və Krit adasından gəldiklərini bildirmişlər.
- ✓ Davidin Fələstindəki üsyanından sonra (e.ə. XI əsr) Kittim müharibə nəticəsində etnokipriotlar və axeylər arasında bölüşdürülmüşdür.

- ✓ Kiprdə tez-tez olan finikiyalı tacirlər və dənizçilər adanı Kittium adlandırmış və Axeylər tərəfindən tamamilə dağıdılmış Kittion-u bərpa etmişlər.
- ✓ Kittimin etno-kipriot dili Hatti və etrusk dilləri ilə oxşardır, hatti yazıları (Hamatit heroqlifləri) Kipr səsli əlifbasının mənbəyidir (Sayce, Conder və b.).

**Qafqaz miqrasiyası**

- E.ə. I minillikdə Albaniyada yaşamışlar: albanlar, saklar, qarqarlar, kaspilər və bir az sonra e.ə. 1-ci əsrdə şarvanlar, şamaxlar, bakanlar, kabirlər, gellər, katailər, erlər, utilər, leqilər, qatılar və s. (Mənbələr: Strabon və digər antik və qədim erməni məlumatları, M.Kalankatuklu və Sarmatiyanın 54 qəbiləsi (e.ə. III-IV əsrlər) hunların gəlişinə qədər "Erməni coğrafiyası" VII əsrdən). Bununla yanaşı, M.Kalankatuklu Pliniyə görə silv, lupen, didur və sod qəbilələrini - "gəlmə" adlandırır.
- Onlardan ən qədim etnik komponentlər saklar, albanlar və qarqarlardır.

**Hattilərın yaşayış arealının genişlənməsi C.Kempbellə görə aşağıdakı kimi baş vermişdir:**

- ✓ Hattilərın bir qolundan (Cherpherites) (Hatti evinin atası Ashchur'a-nın ikinci evliliyindən olan oğullarından biri, III Hatt suverenliyi nəsilində Fələstində hökmranlıq edən) -**Cherpher'a** (hansı ki, "Kipr" adı da buradandır) öz oğlu Chedorlaomer'in səyləri ilə Elamda (Suziana) ilk Hatti imperiyasını (Khubur – Subarti dinastiyası) yaratmışdır ki, buna "Subarti insanları" adı verilmişdir. Onlar həmçinin Sucathites-in - "Socho" - saklar xalqlarının əcdadları hesab edilir.

Başqa sözlə, **subarilər hattilərla və saklarla qohumdur;**

- ✓ İkinci qol – Ashchur'un ikinci oğulundan – **Temeni** (Temenitlər) Yafətdlər ilə birgə Sinai da Küşam (Kuş) ələ keçirmiş və Bibliyada Amalek (Amalekitlər) kimi qeyd olunmuşdur. Onlarla birlikdə Temeni nəslindən Edom hökmdarı da var idi;
- ✓ Hattilərin üçüncü qolu – Ashchur'un ikinci evliliyindən olan oğulunun nəslindən – **Achashtari** (Achashtarilər) Avraam dövründə İordan çayının şərqinə getmiş və Bibliyada Ashteroth (Astarte) kimi qeyd olunmuşlar. Onların bir hissəsi Achashtari-nin oğlu Chelub'a (Chelubitlər) adı ilə tanınırdı, onları Misirlilər Mesopotamiyada Naharaime kimi, assiriyalılar isə Nairi kimi tanıyırdı (onlar eyni zamanda Herodotun Neuri'si, skiflərdən). İtaliyada onlar Naharcer (etruskların bir hissəsi) və həmçinin Navarrese (navarçılar) adını almışdır. Achashtari-nin oğlu olan digər nəslin bir hissəsi – Shuah'a (Shuhitlər).
- ✓ Ashchur'a və Naarah arasındakı evlilikdən olan böyük oğlu Achuzam, Hattilərin dördüncü qolu idi və onun məşhur nəsli Ammonitlərdə və Yahdadada (Jahdaites-Adites) hökmranlıq edirdi, həmçinin Misir tarixində iştirak etmişlər.
- ✓ Hattilərin evinin atası Helah ilə birinci evlilikdən olan oğullara gəldikdə, qeyd edək ki, C.Kempbellə görə, böyük oğlu Zereth'dan gələn nəsil El-Assar'a şəklində Assur adını vermişdir və məhz onlardan, Kembellə görə, Subarilər və onların başçısı Şəmşi-Ədəd yaranmışdır. Burada xüsusi vurğulanır ki, **məhz Zerethilər şumerlərin qohumları olmuş, onlardan kassitlər yaranmışdır və onların nəslindən alarodlar (ura-**

**qurtiyalar) gəlmişdir.** Ashchur'a-nın birinci evliliyinin – ortanca oğlu Zohar idi, onun oğlu, Kempbellə görə, Avraamla Maxpel mağarasının satın alınması məsələsində Bibliyada əlaqə saxlayan Efron idi.

- ✓ Nəhayət, Ashchur'un kiçik oğlu, Hattların atası – Ethan Edomda hökmranlıq edən ilk kral idi.

Hattilərin qısa nəslini tamamlayaraq, diqqətimizi Hattilərlə qohum olan tayfalara yönəldək.

## Albanların tayfası

M.Kalankatukluya görə, albanlar kittilərdən, yəni hattilərdən gəlir (yuxarıya bax). Məhz hattilər ("Land of Yatu"dan olan insanlar, Commagen yaxınlığında, Karxemış = Hatti konfederasiyasının paytaxtı) Ude – albanların çarlığını yaratmışdır, hansı ki, paytaxtlarından biri Berdaa (Bərdə) (Kasi – Kumuk – kazi - kumuklar və udilər = onların birbaşa nəsilləridir) idi (C.Kempbell). Qeyd edək ki, bir sıra alimlərin, ilk növbədə prof. F.Kırzıoğlunun fikrincə, Berdaa adı Sakların hökmdarı Partatuyaya aiddir.

Hattilər = saklar haqqında əvvəl verilmiş məlumatlara əlavə edək:

- ✓ Albanların Hatti-Sakların qollarından biri olmasını, onların "massa-getlər", yəni masa-hattilər kimi qeyd edilməsi də təsdiqləyir (Marçelin)
- ✓ Massagetlərin çarı Sanatruk / Sanatürk eyni zamanda Albaniyanın çarı (Favst Bizanslı) kimi təqdim olunurdu, həmçinin onun mənşəyinin Ar-sakilər (sakların) sülaləsindən (nəsilindən) olduğu qeyd olunurdu.
- ✓ Massagetlər = "masaha-hunlar" (Aqafangel).

- **Sakların** (sakasenlər) **tayfası** Sakasendə (Gəncə bölgəsi) yerləşmiş, əvvəllər məskunlaşmış saklardan və saklardan (əs-quz, Aşquz) ibarət idi.
- Bununla yanaşı, İberiya ilə Şirvan arasında, o cümlədən, Şəki, Qax, Zaqatala (Kürün sol sahili), Kambisene, Qəbələ, Göyçə gölünün ətrafında, Arazdan cənubda (Balasakan / Baytakaran) Mil düzənliyində yaşayırdılar.

Başqa sözlə, bunlar Qafqaz Albaniyasının yerli əhalisi idilər. Qeyd edək ki, **Saklar Sakasenlər və ya Artsax (Ər Saq'a) = Qarabağ** adı "Arsak" adı ilə bağlıdır – etnotoponim = Ərsaq = Ər(Ap) + saq(sak) = "sakların (tayfanın) kişiləri (döyüşçüləri)" (M.Seyidov).

Saq = Sa + oq (yay, sim + ox) = yay – ox (yay = qırmızı, yay) (M.Seyidov, E.Əlili).

Saq (saк) = sayıq = "sayıq, yuxusuz". Bizim fikrimizcə, Artsax → Saq (saк), şaq, çaq (türk), Arşak – erməni alınması kimi bir etimologiyanın da qəbul edilməsi mümkündür.

M.Seyidov "bağ"ı = düyün, soy birləşməsi (tayfa birliyi), "kara"nın (qaranın) = başçı, böyük, güclü ("başçı", "böyük", "güclü") mənalarından biri, yəni Qarabağ (Qarabağ) = "güclü, böyük soybirləşməsinin başçısı" (tayfa birliyinin əsas, baş hissəsi) kimi verir (M.Seyidov).

- ✓ **Ümumilikdə,** albanlar = Temenites nəslindən (Ashchur-un kiçik oğlu və Naarah-ın ikinci arvadı) (İs-

tinad: bunlar İncildə Amalek kimi tanınan Sinaydakı Huşamı (Kuş) fəth edənlərdir) (C.Kempbell).

- ✓ Arazan hövzəsinin sakinləri = Lipoksayın (Tarqitayın böyük oğlu, skiflərin atası) nəsilləridir, hattilərin Zerethites qəbiləsindən (Ashchur-un Helah ilə 1-ci nikahından olan böyük oğlu), onlar troyalılardır, Asareel (Assuriyanın qurucuları), Krit, Kipr sakinləri.
- ✓ Çar skifləri (sakları) (Paralatae) Kalaksaydandır (Tarqitayın kiçik oğlundan), onlardan Alarodians və Urartu.
- ✓ Təmiz skiflər (saklar) = Beerothites (Temenites-in qohumları) = "Subartu insanları", Elamın fatehləri (Temeni-nin qardaşı Cherpher-dən <u>törəmişlər</u>), I Hatti imperiyasının qurucusu (C.Kempbell).

## Qarqarların tayfası

- Alban ittifaqından olan Khar-khar (qarqarlar) Hatti xalqıdır (C.Kempbell), yəni saklardır.
- **Diqqət!** Bizim fərziyyəmiz ondan ibarətdir ki, albanlar = saklar, qarqarlar = saklar Alban tayfa ittifaqının baş tayfasıdır. Buraya Uti də daxildir (C.Kempbell). Onlar Aranın (Sisakdan) ilk hökmdarının əfsanəvi nəslindən sayılırlar, yerli əhalidirlər.

**Əsas:** Qafqaz Albaniyasının bütün yerli əhaliləri Hett (Hatti) mənşəlidir (M.Kalankatuklunun məlumatı və verilmiş tarixi faktlar).

Mövzunu davam etməzdən öncə bir haşiyəyə çıxaq.

Armi / Erme-Armini adlarının etimologiyası, hansı ki, C.Kempbellə görə, hattilərdən törəmiş Nairi xalqlarından birinin adıdır. Eyni zamanda, Kalisfen və Pindar qeyd etmişlər ki, bu adı daşıyan armilər Kilikiyada olan Kalika dağlarının ətrafında yaşayıblar və buna görə də qonşu dağlar arimlər adını daşıyırdı. Kempbell həmçinin qeyd etmişdir ki, Armeniya / Armini / Arminiya adları Arima / Arimi / Erme mənşəyindən əmələ gəlir və həm də Nairi-Hattilərin bir hissəsinin adı idi. Bunlar İncildə göstərilən Ashtheroth-un (Ashashtari) nəslindən idilər. Misirlilər onları Mesopotamiyalı Naharain, Tövratda – Aram Naharaim, assuriyalılar isə onları Nairlər adlandırırdılar. Nəhayət, Herodot onları saklardan əmələ gələn neurilər (nevrlər) hesab edirdi, İtaliyaya köçənlər isə Naharçer (Etruskların bir hissəsi), İspaniyada, Navarrada olanları isə navarreslər kimi tanınırdılar. Hittlərdan əmələ gələn Arimi / Erme tayfaları Xubur-Subartu (subareylər) xalqları ilə sıx bağlı idilər. “Xronika”ya istinad edən C.Kempbellə görə, hattilərin suverenliyinin başlanğıcında Ashchur dururdu ki, onun Helah və Naarah adlı iki zövcəsi olmuşdur. Hattilərin şərh edilmiş qohumluq əlaqələrinə aydınlıq gətirmək üçün bizə Ashchur-un şəcərə budağına baxmaq lazımdır. Biz C.Kempbellin şərhinə uyğun olaraq bunu göstərə bilərik.




Ashchurun 7 oğlu müxtəlif Hatt qəbilələrinin və birliklərinin baniləri idilər.

Tarixi sənədlərə əsasən, Ashchur paytaxtı Tekoa olan Şimali Mesopotamiyada Hatt hökmranlığının üçüncü nəslinə başçılıq edirdi. Tekoa şəhərinin səmtini eyniləşdirən C.Kempbell qeyd edirdi ki, İudeyada bu adda yer mövcuddur. Kempbell bunu Ashchur-un şəcərəsinin yəhudilərdən qaynaqlanması ilə əlaqələndirirdi. Eyni zamanda, C.Kempbell tərəfindən aparılmış qədim coğrafi siyahıların təhlili göstərir ki, bu şəhər Dəclə çayına yaxın olan şimali Babilistanda yerləşən Kutha Kuta / Quta idi, assuriyalıların adlandırdıqları Kutenin, Turan adı Tiggaba-ki (qədim Hatt formasında – Tiggaouki) idi. Ptolemey bu şəhəri Diqoua adlandırmışdı, Kempbellin fikrincə isə, şəhərin erkən çağlarda adı iki sözdən ibarət olan Cheth və Tekoa idi. A. Leo Oppenxeym “Древняя Месопотамия” adlı işində (M., “Наука”, 1980) bu şəhəri Hita adlandırmışdı, onun olduğu yeri də həmin yerdə göstərmişdir.

Kuthadan gələn qədim yazıları Hatt imperiyasının meydana gəlmə tarixini təqdim etmək imkanı verir və bu haqda C.Kempbell ingilis assiroloq C.Smitə (C.Smit “Chaldean Account of Genesis”), həmçinin “Records of the Past” mənbəyinə istinad edərək yazır.

## Kuthadan Hattilərin miqrasiyası




Hatt xanədanının qurucusu Ashchur-un iki nikahdan doğulmuş yeddi oğlu yaşayış yerlərini genişləndirmək üçün sonradan Kutadan çıxıb getdilər, amma, mümkündür ki, onların gedişi yaxınlıqda yerləşən çayların daşması və torpaqlarında baş verən sel ilə əlaqədar idi, bu proses, C.Kempbellin qeyd etdiyi kimi, sami tayfaların və assuriyalıların onları bu torpaqlardan qovmasından əvvəlki dövrə qədər davam etmişdi. Lakin əvvəlcə Hattilər əraziləri samilərlə bir ittifaqda genişləndirdi və həmçinin yüksələn Assuriya əleyhinə birgə hərəkət etdilər.

Nairilərin soylarının və Arima / Arimi / Erme adlarının haradan gəldiyini göstərmək üçün qayıdaq hattiləri nəslinə.

Ashchur-un oğlu Cherpher (C.Kempbellə əsasən, Kipr adasının adı onun adından yaranıb) oğlu Charep-in səyi sayəsində Elamı (Suziana) istila etmişdir və o, I Hatt

imperiyasının banisi kimi Chedorlaomer-in adı ilə tanınırdı.

Professor Seysə görə, elamitlər onu Apharsites (Apharsitlər), həmçinin "Hubur və ya Subarti xalqı" kimi də adlandırırdılar. Qeyd edək ki, elam dilində Kedorlaomer adı Kutir-Laqamar kimi səslənir, lakin mənası "[İlahə] Laqamar – himayəçi qadın" deməkdir. V.Xints qeyd etdiyi kimi, Elamda "Государство Элам" ("Наука", 1977) ilahi güc "kiten" adlandırılırdı, ona görə də Xubur-Subartidən olan bir çox hökmdarların adlarının kökündə "kut" sözü var idi. Həmçinin qeyd edək ki, e. ə. 2260-cı ildə Qədim Sarqonun nəvəsi Akkad hökmdarı Naram-Sinlə ittifaq müqaviləsi bağlayan Elam hökmdarını Xita adlandırırdılar (V.Hints).

Kut / qut məşhur qədim türk teonimidir, kutilər / qutilər isə e.ə. II minilliyin sonunda 100 il Akkad-Şumerdə hökmranlıq edən Zaqrosun dağətəyi yerlərindən gələn döyüşkən tayfadırlar.

Müasir Xuzestan əyalətinin (paytaxtı Şuşa (Suzi) olan tarixi Elam ərazisi) müasir əhalisi fars, ərəb, bəxtiyar və lur dillərində danışan və yerlilərlə qarışmış iranlılar və ərəblərdən ibarət idilər, lakin burada yaşayan qaşqaylar türk dilində danışırdılar. Bu gün lurlar və bəxtiyarlar iranlılaşdırılmış hesab olunurlar və belə güman olunur ki, lurlar – dağ elamitlərinin nəslindəndir, lakin bəxtiyarlar – türklər hesab olunurlar (Elize Reklyu "Земля и люди", Всеобщая география, т. IX, Передняя Азия. СПб, 1987). Elamitlərin etnik təsnifatı çətin də olsa, V.Xinsin məlumatına əsasən, "...ehtimal var ki, elamitlər şimal-şərqlə onlara həmsərhəd olan Lulubi dağ tayfaları və "su insanları" adlandırılan qəbilələrlə ümumi xüsusiyyətlərə malik idilər". "Su insanları" dedikdə "subareylər" nəzərdə tutulur.

C.Kempbellin əvvəllər yazdığı "The Hittites. Their Inscriptions and their History" və qiksoslara həsr olunmuş "The Shepherd Kings of Egypt" adlı xüsusi elmi işində qeyd olunur ki, Hatt xanədanının atasının adı "Ashchur" ("alef" hərfi nəzərə alınmaqla) Shachar adı ilə praktiki olaraq, eynidir və "Sakyas" (saklar) və ya Skyts (Skiflər) ulu babası Çepher (Herper / Heber) olan Sucathites-dən və ya Socho xalqından əmələ gəlirlər. Onun digər qardaşı Achshantaridən isə əlavə qohumluq bağlarından irəli gələn giksoslar törəyib. Bu mülahizələrdən görünür ki, subarlar hattilərlə, saklarla və qiksoslarla qohumdur, həmçinin Hattilərin Kiprdən köçmələrinə görə, etno-kiprlilər və nəticə etibarilə, Qafqaz albanları – saklarla qohumdurlar.




Hattilər tərəfindən yaradılmış İkinci imperiya (ərəb alimləri hesab edirlər ki, bu – Birinci imperiyadır) Temeni adı ilə bağlıdır. Temenlilər Arkamdan gələn Jerachmeelites-lər nəslindən olan yafetidlərlə birlikdə şərqdə Sinay Huşamı (Huş) istila etdilər və bu İncildə Amalek kimi qeyd olunmuşdur (C.Kempbell). Huşamda hökmranlıq edən Temenidlərin hökmdarı ilə bərabər bu nəsildən olan Jabab adlı digər hökmdar Edomda hökmranlıq edirdi. C.Kempbell qeyd edir ki, bu hökmdar Avraamın nəsli ilə qohum idi, məhz Temenid Elon idi, Esaunun zövcəsinin babası (İsava), lakin Esanın qayınatası Hamath-dan ola Beerothites-lərin ulu babası skiflər – saklara aid olan Beeri idi.

Ashchur-un Naarahla olan nikahdan doğulmuş böyük oğlu – Achuzam, C.Kempbellə görə, özünün ən məşhur nəslini yaratmışdır. O, kiçik qardaşı Achashtari kimi, İbrahimin dövründə İordaniyadan şərqə çıxıb getmiş qəbilələrin başçıları arasında idi. Ham ammonitlərin (Ammonites) nəslindən olan zuzimlərin (Zuzimes) paytaxtı idi və bu ərazi Hebrow-da yerləşmirdi, o, Achuzamın hökmranlığının təsiri altında idi. Misirlilər onun nəslini Qaqama assuriyalılar isə – Zamzuni formasında Qamqumi (yəhudi Hebrow ilə əlaqəli) adlandırırdılar. C.Kempbellə əsasən, Achuzamanın oğlu Haran məşhur Jahdatisin (Adites) Yaxdad ulu babası idi, onların nəsli isə Misiri işğal edən zaman qiksosların başçısı və Misir tarixinin yaradıcılarından biri idi (Açhuzamanın nəvəsinin Gazez-in oğlu – Jabez).

Qeyd etmək lazımdır ki, Achuzam adının kökündə Achuz var və ya birinci hərf olan "alef"siz kuz / skuz / şkuz, hansı ki, sakların və ya ilk oğuzların – skiflərin samilik adları ilə uyğun gəlir. Oxşar anlayış və Hatt xanədanının atası Ashchur-un öz adı isə Aşxur / Asxur / Askur / Askxur kimi səslənir, sonuncu "r" hərfinin "z" hərfinə dəyişməsi Aşkuz və s. sakların nəslinin adı kimi səslənir.

Bununla yanaşı, C.Kempbellə görə ("The Shepherd Kings of Egypt") Achuzam adından "hak" sözü əmələ gəlir ki, bu da "öndər" mənasını bildirir, həmçinin daha dolğun "Hyksos" sözüdür. Bununla bərabər, Achuzam adı qiksosların Sachisu adlanan Kasium (Casium) regionuna verildi (dağ və ölkə). Bizim fikrimizcə, Sac-hisu sözünün kökünə diqqət yetirmək, "sak" və "şasu" adı ilə əlaqəni axtarmağa dəyər.

Biz xüsusi olaraq Ashchurun – Naarah nikahından doğulan kiçik oğlu Achashtarinin üzərində dayanırıq. Bu

nəsil İncildə Ashteroth (Astarte) kimi qeyd olunur, ona görə ki, onlar Bashah və Ashteroth Karnaim-in əsasını qoyublar. C.Kempbellin fikrinə əsasən, Achashtarinin iki oğlu çox məşhur idi. Shuah Shurites nəslinin əsasını qoyub və onların törəmələri Zuzimdə yaşayırdılar. Onları Emim adı ilə çağırırdılar, lakin misirlilər özlərinə uyğun olaraq Shurites-lərə Amu deyirdilər və bu terminlə qiksosların işğal etdikləri torpaqları işarə edirdilər. Öz növbəsində assuriyalılar Ama, yaxud Amatu sözü vasitəsilə bütün cənub insanları işarə edirdilər. Shurites xətti ilə Achashtarinin törəmələri və Achashtarinin böyük qardaşı Achuzam-ın nəslindən olanlar bir-biri ilə qohumluq əlaqələri ilə bağlı idilər bu səbəbdən də onlar qiksoslara aid edilirlər. Achashtarinin özü ən böyük qiksoslardan sayılırdı. Hətta C.Kempbell, qeyd etdiyi kimi, yerli ənənələrə görə Achashtari Nuhun prototipi qismində iştirak edirdi. O, yazır ki, Kuthadan (Cutha) olan hattilərin dağılmasının mümkün səbəblərindən biri yerli daşqındır və bu fəlakətin İncil daşqını ilə sarmaşması Berosus-un Sisitus, yaxud Xisutrus, Babil tabletlərində isə Hasisadre kimi göstərilən əsas qəhrəman Achashtari ilə bağlıdır. Achashtarinin digər məşhur oğlu Chelub idi. O, Chelubites sülaləsinin əsasını qoydu. Məhz Chelub-un nəslindən olanları misirlilər Mesopotamiyada Naharaime kimi tanıyırdılar. Assuriyalılar onları Nairi, Herodot isə Neuri (Nevrı) adlandırırdı. Qeyd etdiyimiz kimi, İtaliyada onlar etruskların bir hissəsi olaraq, Naharcher, Navarrada isə Navarresse olaraq adlanırdılar.

Beləliklə, deyilənlərə əsasən, belə bir nəticəyə gəlirik ki, Nairilər – Achashtari nəslindən olan hattilərdir və onlar Misir tarixində böyük rol oynayıblar. Məlum olduğu kimi, Misir tarixində ən erkən üç hakim sülalə – Auritae,

Aegypti və Mestraeidir. C.Kempbellə görə, Auritae Qafqazdan, Aegypti Caphtorimdir, yəni koptlardır, Mestraei isə –Hatt nəslinin nümayəndələridir. Onları 7 Cabiri kimi təqdim edirdilər və onlar Ashchurun 7 oğlu idi.

Və sonda bir neçə söz Ashchurun birinci zövcəsi Helah ilə nikahdan olan oğulları haqqında. Onların böyük oğlu Zereth Zerethites nəslinin əsasını qoyub və C.Kempbellə görə, onun törəmələri Jehaleleel, Asareel-dir. Asareel yəhudilər tərəfindən El-Assar olaraq dəyişdirilib. Məhz bu xətt assuriyalılara öz adını vermişdir. Assuriyanın ilk çarı isə Arioch olub. Onlardan Dardanians əmələ gəlib. Onlar Troya eponiminə Llus adını vermişlər. G.Smit "Early History of Babylonia" əsərində qeyd edirdi ki, Urux adlanan ərazidə Zirgulla Xaldeydə Sar-ili, yaxud Tanrıların çarına həsr edilmiş bir məbəd tikdirir. C.Kempbell göstərir ki, bu məbəd ivrit dilində dəyişdirilərək El-assar, yəni Assara adlandırılan Hatt Asare-el ilə əlaqəlidir. Zereth haqqında söz açaraq, biz Subaru və Hattilərin əlaqələri barədə danışmaya bilmərik.

C.Kempbellə görə, subarilər Hatt nəslindən olan Zerethiteslərdən əmələ gəlmişlər. Qeyd edildiyi kimi, Zereth "Hattilərin atası" Ashchur-un birinci zövcəsindən olan böyük oğludur. C.Kempbell Subarunun yerləşdiyi ərazini belə müəyyən edir: "Subair – Chaboras yaxınlığında ölkədir. Bu ad Zerethites ailəsindən olan Heber / Cheber-in şərəfinə qoyulub və Ashchuru-un törəmələri olan bu ailə Şimali Mesopotamiya işğal edildikdən və imperiya yaradıldıqdan sonra onlar xaric edilib". Digər tərəfdən C.Kempbell qeyd edir ki, "Zereth xətti Assuriyada hakimiyyəti ələ keçirdi və Assuriya hökmdarlığının süqutuna qədər bu hakimiyyəti qoruyub saxladı". Bununla yanaşı, C.Kempbell qeyd edir ki, Zerethites-lər hər zaman

Moabite regionunda hökmranlıq edirdilər. C.Kempbell yazırdı ki, yeni yaradılan Assuriyada başçı subarilərdən olan Şəmşi-Ədəd idi və vurğulayırdı ki, o, hattilərdən idi, onun oğlu İsmi-Daqan isə Beerotites soyu ilə bağlı idi. Yəni o ailə ki, İsmi-Daqan-ın və Gundumu-nun mənşəyini və Chemi-dag adlandırırdı. Beerothites isə Misirin şərqində Nil vadisinə daxil olanlardır. C.Kempbell Chemi-dag-ı Xaldey taxtının sahibi olan Amnonla əlaqələndirirdi. Amnonun oğlu Chemidag-ın atasından sonra o torpaqları Ammanu adlandırdı. Beləliklə İsmi-Daqan şərq çarlarından birincisi idi ki, ondan Tiqlat Palasar da çəkinmirdi, o, özünü onun davamçısı adlandırırdı (Müasir tarixi əsərlərdə İsmi-Daqan – Assuriyanın çarıdır).

Digər bir yerdə müəllif yazır ki, Assuriyanın və Babilistanın tarixi Japhlet və Renob ailələrinin bir-biri ilə əlaqələrinə əsaslanır, yəni Assuriya hökmdarlarının Beerothites ailəsi ilə əlaqəlidir.

Zeretitheslərin qohumluq əlaqələrini və davamçılarını qeyd edərək C.Kempbell yazır:

Zerethiteslər Babilistanda və Cənubi Fələstində Şumerlərin yaxın qohumları və müttəfiqləri idilər;

Kassitlər Zerethites xəttindən olan hattilər idilər;

Zerethiteslərin davamçıları alarodlar idilər (Urartu) və onları tez-tez tibarenilərlə eyniləşdirirdilər;

Friqiyalılar – Zerethiteslərin adamları idilər. Onlar öz çarları üçün Gordius adını qoruyub saxlamışlar, onlar Berigahın törəmələri idilər;

Zerethiteslər qədim zamanlardan midianiteslərin müttəfiqləri idilər və friqiyalıların davamçıları hakimiyyətdə bir-birini belə əvəz edirdilər: Gordius və Midas. İki Hatt qəbiləsi Messopotamiya Liberiasının Subair hissəsini əl-

də etdilər, lakin sonralar Assuriya hökmdarı bu torpaqları fəth etdi.

Asur – Ach-Bal öz yazılarında Messopotamiyada Nairinin, Kirkhinin və Subarinin, Nireb torpaqları ilə birlikdə fəthi barədə bəhs edir.

Ashchurun ortancıl oğlu Zohardır, onun oğlu isə Ephrondur. İncilə görə, Abraam onunla ünsiyyətdə olub və Maxpel mağarasını dünyasını dəyişən həyat yoldaşı Sarra üçün istəyib. Zoharın nəsli – Zoharites, yaxud Tsocharites Shingarda hakimiyyətdə idilər (hökmdar Amraphel ona qarşı qiyamı yatırmaq üçün Elam hökmdarı Kedorlaomerlə müttəfiqi oldu). Herodotun məlumatına görə, Tsochariteslər Cherpheriteslərlə müttəfiq idilər. Tsochariteslər Teucri kimi də adlandırırdılar. C.Kempbell yazırdı ki, troyalılar onların davamçılarıdır.

Ashchurun kiçik oğlu – Ethan Edomda hökmdarlıq edən ilk çar idi. Onun törəmələri Ethamites-lər ərəblərdə müvafiq olaraq, Adhan və Adhanites olaraq keçirlər və Aqardan olan İbrahimin oğlu İsmayılın nəslindən hesab olunurlar.

İndi isə İncildəki hattilərlə qüdrətli Hett səltənəti arasında əlaqələr üzərində dayanaq. Bu məqsədlə biz bir neçə tədqiqatı cəlb edəcəyik. Onlardan birincisi – Garry Beckmanın işidir.

Dieter Kuhn və Helga Stahlın redaksiyası ilə 2001-ci ildə hazırlanan "Die Gegenwart des Altertums" adlı topluda Gary Beckmanın (Miçiqan Universiteti) "Sargon and Naram-Sin in Hatti: Reflections of Mesopotamian Antiquity among the Hittites" (Hattidə Sargon və Naramsin: hettlərdə Messopotamiyanın qədim tarixi barədə düşüncələr") maraqlı məqaləsi var. Hett dövlətinin yazılarında Mesopotamiya hadisələrinin bir-biri ilə əlaqələri-

nə dair dolayısı cavab tapmaq olar. Müəllif yazır ki, e.ə. XVIII əsrdə Hett dövlətinin qurucusu, məlum olduğu kimi, hind-avropalılar olublar, baxmayaraq ki, ölkə əvvəlki kimi, orada ilk məskunlaşmış və turan mənşəli xalq olan hattilər şərəfinə Hatti adlanırdı. Bizim eradan əvvəl 1350-ci ildə Hett imperiyasının tərkibinə bir çox xalqlar daxil idi, eyni zamanda o, Şimali Suriyanın böyük bir hissəsinə hakim idi. Hett dili inzibati məqsədlərlə istifadə edilirdi, hattilərin bürünc əsrin sonunda yox olmalarına qədər (b.e.ə. 1180-cı il). Hatt dili isə dini mətnlərdə daha çox istifadə edilirdi və hettlər tərəfindən bir çox hallarda mənimsənilmişdir.

Müəllif yazır ki, "... hettlər mədəniyyət modelini qədim Qərb Asiyasının ən görkəmli sivilizasiyası olan Mesopotamiyada tapdılar... və öz cənub qonşularından yazılı kitabələri qəbul etdilər, onun öz dillərinin ifadəsi üçün uyğunlaşdırılması, nəticədə onları Suriyanın hüdudlarından kənara çıxararaq, mənşəyinə doğru – Assuriya və Babilistana gətirdi. Hettlər hər iki əsas Mesopotamiya dillərinin ifadələrini qavrayaraq və hettlərin dilində olan nümunəvi ədəbiyyata əlavə olaraq yazmağı öyrəndilər". Müəllifin əsas fikri ondan ibarətdir ki, "Babilistan konvensiyaları və təcrübələri hettlərin Hind-Avropa irsinin elementləri ilə müqayisədə o qədər üstün idilər ki, hattilər ölkəsi barədə Mesopotamiya mədəniyyəti olaraq düşünmək daha məqsədəmüvafiqdir, nəinki Hind-Avropa diasporunun təmsilçisi kimi".

Hettlər tərəfindən istifadə olunan Mesopotamiya irsinin daha parlaq və şəffaf nümunəsi olaraq müəllif diqqəti Akkadlı Sarqon və onun nəvəsi Naram-Sinin (Naramsuena) dövrünə, yəni təxminən bizim eradan əvvəl XX ə. ortalarına təsadüf edən qədim Mesopotamiyaya yönəldir. Məlum olduğu kimi, Şumer və Akkad döv-

lətlərini birləşdirərək, Asiyada bütöv imperiya yaradan Sarqon onun sərhədlərini Qərbi İrana və Şimali Suriyaya qədər çatdırdı. Sarqonun imperiyası əsrdən çox mövcud oldu və onun nəvəsi Naram-Sine zamanında dağıldı. Ənənəvi olaraq, hesab edilir ki, bu, Sarqonun hökmdar olaraq, "şərəf və müvəffəqiyyətinin" və tam əksinə olaraq Naram-Sinin "Tanrıya olan laqeydliyi və ədalətsizliyinin" nəticəsidir. Hesab olunurdu ki, Assuriya və Babilistanın hər bir hökmdarı seçim edə bilərdi: "ya Sarqonun şərəfli yolu ilə getmək, yaxud da onun nəvəsi kimi allahları məhv etmək və torpaqları xaraba qoymaq". Bu ənənələr bizim eradan əvvəl ikinci minilliyin ortalarında hettlər arasında geniş yayılmış və Misirə qədər gedib çatmışdır. Hett mənbələrindən bura habelə bizim eradan əvvəl XIV əsrdə "Döyüş kralı" dastanının nüsxələri çatmışdır. Bu dastan Sarqonun Anadoludakı zəfərlərini tərif edir. Müəllifin fikrincə, Hett hökmdarları bununla "yerli tarixi daha geniş dünya tarixinə bağlayırdılar və analoji olaraq hettlər Gilqamış haqqında Mesopotamiya dastanını tərcümə edir və uyğunlaşdırırdılar. **Burada xüsusi olaraq dastanın qəhrəmanının yaşadığı məkana – Gedar Forest (Sidr meşəsi) diqqət yetirilir. Onlar hesab edirdilər ki, bu meşə onların nəzarətində olan Şimali Suriya ərazisinə daxil idi".**

Mesopotamiya nümunələrinin, həmçinin özünü Sarqonla eyniləşdirdiyi və öz nəaliyyətlərini Sarqonun əməllərindən üstün tutduğu I Xattusilinin salnamələrində də geniş yayılmış istifadəsi çox şey haqqında danışır. O barədə fikirləşmək olar ki, Mesopotamiya ənənələri Hett paytaxtına Şimali Mesopotamiyadan və ya Şimali Suriyadan olan vasitəçilərin köməyi ilə gəlib çatmışdır və ya mü-

əllifin güman etdiyi kimi, Babil yazarlarının Hattuşda yerləşməsi sayəsində.

Bununla yanaşı, müəllif vurğulayır ki, Cənub-Şərqi Anadoludan olan Kanaşdakı (müasir Gültəpə) Assuriya ticarət koloniyasının bu yaxınlarda nəşr olunmuş mətn "hətta Hett dövlətinin yüksəlişindən və tacirlərin assuriyalı məskunlaşmalarından imtinasından 100 il sonra Anadoluda akkad çarlarının yaddaşlarda qalmasınının ehtimalını çoxaldır".

**Bizim fikrimizcə, bu yaddaş təxminən Qədim Sarqon dövründə Mesopotamiyadan Anadoluya gəlmiş qədim hettlərin yaddaşıdır.**

Növbəti əsər Trevor Braysın "The kingdom of Hittites" əsəridir (Oksford Univ., ABŞ, 2005). Bu əsər müəllifin sonuncu araşdırmalarından biridir ki, o burada Anadolu və Mesopotamiya sivilizasiyalarına əsaslanaraq, hettlərin tarixini nəzərdən keçirir. Müəllif qeyd edirdi ki, sonuncu arxeoloji məlumatlar sayəsində demək olar ki, Hatti – Hett dövləti öz çiçəklənmə dövründə Son Tunc dövrün böyük dövlətlərindən biri idi və "nəticə etibarı ilə e.ə. XIV ə. özünün iki ən güclü müasirləri olan Mitanni və Misiri üstələyirdi". Axırıncı iki onillik ərzində davam edən qazıntılar nəticəsində, ən əsası paytaxt Hattuşda, dövlətin regional mərkəzlərində (Cənubi Anadolu və başqa regionlarda), o qədər yeni məlumat əlavə olunur ki, *Hett dünyasının ancaq müvəqqəti tarixindən* danışmaq mümkündür (kursiv bizimdir). İlk sakinlərindən Hatti adlanan Hett dövlətinin tarixini şərti olaraq Qədim Çarlığa (e.ə. XVII ə. əvvəlində birinci çar I Labarnanın hökmdarlıq dövrünün əvvəlindən) və Yeni Çarlığa (birinci çar Tuthaliyə görə e.ə. XV ə. axırı – XIV ə. əvvəli) ayıraraq, müəllif bu hökmranlıqlardan əvvəlki dövrü araşdırır. O yazır ki, qə-

dim tunc dövründə e.ə. III minilliyin ortalarına Anadoluda əhəmiyyətli sivilizasiya mərkəzləri yer almışdır (Şimal-Qərbdə Troya, Cənub-Qərbdə Beysesultan və Cənub-Qərbdə Kilikya düzənliyində Tarsus). Müəllif qeyd edir ki, “ən azı mərkəzi Anadolu dövlətlərinin yerləşdiyi region Sarqonun Akkad İmperiyasının dövründən Hatti torpağı kimi tanınırdı”. Məlumdur ki, Zipanı adlı Kaneş (indiki Kayseride Gültəpə kurqanı) çarı hökmdarlığı Fars körfəzindən Mərkəzi Anadoluya qədər yayılan Akkadlı Naram-Sinin (e.ə. 2254 – 2218 illər) hakimiyyətinə qarşı on yeddi yerli hökmdarların üsyanı ilə tanınır. Pampa adlı Hatti çarı üsyançıların arasında idi və bu, hind-avropalı gəlmələrə qədər erkən Tunc dövründə Anadolu regionunda mütəşəkkil çarlığın mövcud olduğunu göstərir. Müəllif qeyd edir ki, alimlərin fikrinə görə, hatti adlanan hind-avropalılara qədərki əhali və “hatti” sivilizasiyası daha qədim hett arxivlərindən identifikasiya olunmuş dini və mədəni xarakterli mətnlərdəki hatti dilinin qalıqları ilə təsdiq olunmuşdur.

Bəzi rayonlarda e.ə. 2300 ilə qədər kəskin dəyişikliklərin edilməsi haqqında sübutlar var, əsasən də böyük yanğınların əlamətləri olan cənub-qərbdə. Bir sıra alimlər bunu hind-avropalı gəlmələrin Anadoluya işğalı ilə əlaqələndirir.

Hind-avropalı gəlmələrin üzərində dayanaraq, müəllif yazır ki, “hind-avropalıların gəlişi haqqında bizə inandırıcı arxeoloji dəlillər gətirilməyib, lakin biz e.ə. III minilliyin əvvəlində Mərkəzi Anadoluda Hind-Avropa varlığının olduğundan əmin ola bilərik, çünki e.ə. II minilliyin əvvəllərində regionda ticarət koloniyaları yaradan Assur tacirlərin yazılarında hind-avropalı şəxsi adlar peyda olur”. Həm də biz bilmirik ki, onlar birdən birə və ya tədricən peyda olub,

yəni “immiqrantların gəlməsi, onların işğalçı və ya dinc sakinlər olub olmamasından, kiçik qruplarla müəyyən bir dövr ərzində və ya bir sıra hadisələr ərzində baş verib verməməsindən asılı olmayaraq, onlar yerli əhali ilə qarışırdılar və onların mədəniyyətlərinin bir çox elementlərini qəbul etmişdilər”.

Müəllif məzarların Alaca-Göyükdə yerləşməsi məsələsində məşhur türk arxeoloquna və digər alimlərə istinad edir, yüksək standartları ilə xanədan mənsublarına aid edilən məzarlar və onların Hind-Avropa üslubunda işlənməsi Hind-Avropa gəlmələrinin varlığını təsdiq edir.

Müəllifin fikrincə immiqrantlar Nesdə cəmləşmişlər, burada isə müəllifin hürrilərə aid etdiyi ara-sıra Hattinin yerli əhalisi yaşayırdı (e.ə. II minilliyin əvvəlləri). Həmçinin müəllif etnik münaqişələri istisna etmir. Buna baxmayaraq o, vurğulayır ki, əhali özünü “Hatti xalqı” kimi eyniləşdirirdi.

Bu məlumat onu göstərir ki, hattilər Anadoluda e.ə. 2300-cü ildən gec olmayaraq mövcud idilər və onların yaratdıqları dövlətlər hind-avropalıların gəlməsinə və e.ə. II minilliyin əvvəllərində hakimiyyətin immiqrantların – nesitlərin əlinə keçməsinə baxmayaraq, e.ə. XVII əsrdə tam formalaşan Qədim Hett dövləti və Hatti etnikonu 1500 il mövcud olub.

Və son olaraq, biz məşhur türk arxeoloqu Akurgalın əsərlərini təqdim edirik. Qədim sivilizasiyanın görkəmli araşdırmaçılarından biri olan Əkrəm Akurgal “Anadolu kültür tarihi” (TÜBİTAK, Ankara, 1997-ci il) əsərində Hatti sivilizasiyasının dövrünü e.ə. 2500-2000 / 1700-ci illər dövrü kimi qiymətləndirir. Hatt-Hett sivilizasiyasının dövrü e.ə. 2100-1700-ci illər üçün müəyyən edilib, Hett sivilizasiyası dövrü isə – e.ə. 1660-1190-cı illər üçün.

O xatırladır ki, bu günə bəlli olan Anadolunun ən qədim adı – “Hatti ölkəsi”dir və hattilərin qədim sivilizasiyasına dair ilkin məlumatlar Akkad xanədanının (b.e. 2350–2150-ci illər) yazılı mənbələrində qeyd olunur. Hattilər haqqında fikirlərə e.ə. VII əsrə qədər rastlanılırdı və bu, Assur mənbələrində e.ə. 630-cu ilə qədər davam edir. Beləliklə, “Hattı ölkəsi” təxminən 1500 il mövcud olmuşdur.

İş ondadır ki, e.ə. 2200-cü ildən başlayaraq, Anadoluya yeni gələnlər Hittit-Het mənşəli hind-avropalılar hettlərin torpaqlarında məskunlaşmış və “Hetti (Hett) ölkəsi”-nin adını istifadə etməkdə davam ediblər. Hattuşa / Hattusi-dən yazıları ilk dəfə oxuyan filoloqlar tamamilə fərqli dildən istifadə edən yeni bir qəbiləyə Hatti adını vermişlər. Yazılar yenidən oxunduqda isə aydın oldu ki, həmin hind-avropalı xalq özlərini Nesitlər adlandırmışlar (onlar nesit dilində danışırdılar). Ancaq qədim tarixin dövründə Hind-Avropa hettləri üçün “Hettlər” adını dəyişdirmək mümkün olmamışdır. Yeni gələnlərin, yəni hind-avropalıların özlərini “Nesita” adlandırmasına gəldikdə isə bu, yalnız Mərkəzi Anadolu torpaqlarının hind-avropalıların yerləşdiyi hissələrinə aid idi. Onlarla yanaşı, digər Hind-Avropa qəbilələri, məsələn, Luvilər və Palalar (Palayanlər) kimi adları ilə məskunlaşmışlar.

“Hatti” adının hind-avropalı qəbiləsi üçün məqbul olmadığını anlayan filoloqlar İncildə “Heth” və “Hittim” (alman dilində – “Hethiter”, ingilis “Hitit”, fransız “Les Hitites” və ilk türkcədə “Eti” və indi “Hitit”) adlarına müraciət etmişlər.

Və burada, Akurqalın fikrincə, “Proto-Hitit” və ya “Proto-Hatti” ifadələrini istifadə edərkən yanlış şərhə diqqət yetirmək lazımdır. Belə ki, Hatti əvəzinə Proto-Hitit-in

istifadəsi, hititlərin, yəni hettlərin hattilərdən əmələ gəlməsi anlamına gəlir, halbuki, burada söhbət həm dil, həm də etnik cəhətdən iki fərqli xalqlardan gedir. Digər tərəfdən Hatti – Xatti tayfasını Proto-Hatti (Hatti) adlandırdıqda absurdluq yaranır. Beləliklə, Anadolu Hatti çarlıqları prototarix, ibtidai sivilizasiyalar ocağı idi. Güman ki, onların yazı dili mövcud olmayıb, lakin onların danışıq dili, tanrıları və adət-ənənələri Hitit-Hettlərin sayəsində bizə məlum olur.

"Hattili" adlanan Hett dili haqqında məlumat azdır. E.ə. XIV – XIII əsrlərə aid olan Hattuşidəki yazılardan aydın olur ki, Hitit – Hett din xadimləri öz yazılarında bəzən Hett dilinə mənsub olmayan ifadələrdən istifadə edirdilər, və qeyd olunurdu ki, "...burada kahin hattili (hattili) dilində danışır". Bununla yanaşı, "dağ", "çay", "şəhər", tanrı adlarından, bir sıra dini və mifoloji mətnlərdən hett dilini bərpa etmək mümkün oldu və bunun üçün ən mühüm istinad qaynağı rolunu hatt və hett dillərində bilinqva ilə yazılan "Gökten düşən Ay Tanrısı" ifadəsi olmuşdur. Beləliklə, müəyyən edilmişdir ki, "hattili" Hind-Avropa və sami dillərindən köklü şəkildə fərqlənən müstəqil dildir.

Arxeoloq hind-avropalıların e.ə. 2100-1900-cü illərdə keçdiyini qeyd edir. O, Alauma Hoyukda aşkarlanan 13 məzarlığı araşdırır və hind-avropalıların Maykop məzarlarına bənzər olduğunu göstərir. Təmtəraqlı atributlardan görünən budur ki, həmin məzarlar çar və çar ailələrinə məxsusdur. Akurgal və bir sıra digər alimlər, hattilər və hettlərin zahiri görünüşü arasında əhəmiyyətli fərqlərin olduğunu qeyd edirlər. Misir tarixçilərinin uzun burunlu Hatti əsgərləri haqqında qeydləri və Ə.Akurgalın Hett hökmdarlarının tamamən fərqli zahiri görünüşü barədə yazıları bu cür düşünməyə əsas verir. Ə.Akurgala görə, "hattilər Hett dövründə əhalinin əsas hissəsini hələ də təşkil edir-

dilər... və Misir məbədində Kadeş döyüşünü əks edən təsvirlərdə hattilər tamamilə fərqli etnik tipə aiddirlər" (E.Akurgal. "The Hattian and Hittite Civilizations").

Və sonda hattilərin-hettlərin ilkin ümumiliyini nəzərdə tutan bir sıra məqamı qeyd edək. Məlumdur ki, Hatt çarlarından birinin adı Hattusili olmuşdur. Ancaq biz güman edirik ki, bu –"Hett çarı" anlamına gələn Hatt formasının Kxita-siridir (Khita-sir). Hett çarlığında metalların emal yeri "kata-patuka" adlandırılırdı və bu işlə saklar-tiborenlər qəbiləsi məşqul idi. "Tiboren" termini, Hett çarlarının titulunu ifadə edən hett sözü "tabarna" ilə əlaqəlidir, mahiyyətcə isə bu söz "dəmirçi" deməkdir.

Beləliklə, söylədiklərimiz aydın şəkildə göstərir ki:

- Armi / Arme / Erme, Armeniya / Arminiya terminlərinin yaranmasına hay-ermənilərin heç bir aidiyyəti yoxdur və hattilərdən bəhrələnir.

Təhlil göstərir ki, həmin terminlər turan mənşəlidir və hay-ermənilər bunları orta əsrlərdə mənimsəyiblər.

## Epiloq

Burada hattilərin albanlar ilə bir soy köklü olmasına iki əlavə dəlillər gətirəcəyik.

**1. Əhəmənilərin süqutu ərəfəsində Cənubi Qafqazın şərqində Qafqaz albanlarının tarixi səhnəsinə çıxmasının etnik özəlliyi ondan irəli gəlir ki,** Assuriya, Babil, Hett dövləti, Urartu yazıları və qədim yunan müəlliflərinin Homer dövrünə aid mixi yazı mətnlərində qeyd edildiyi kimi, nax-Dağıstan və ayrı-ayrı iran tayfaları ilə yanaşı, kimmer-saklar ilə güclü etnik qatları var idi.

Lakin, əgər Herodotu (e.ə. V əsr) izləsək, skif-sak-kimmer tayfaları cənubi Qafqazda və Qafqaz Albaniyası ərazisində e.ə. VI-VII ə. meydana çıxır. Bu məlumatlar həmişə mixi yazı mətnlərinə və yazılara uyğun gəlmir, bəzi hallarda isə digər qədim yunan müəlliflərinin, misal üçün Strabonun, Siciliyalı Diodorun və başqalarının məlumatları ilə ziddiyyət təşkil edir.







Mənbə: *prof. F.Məmmədova*

**Suallar yaranır:**

− Bütün qədim müəlliflər üçün **Cənubi Qafqaz və Kiçik Asiya kimi,** Eshildə (e.ə. VI-V əsrlər) "ucqar skif diyarı", "Zəncirlənmiş Prometey Lukman"da (e.ə. II əsr) “skiflər üçün acınacaqlı mənzərə” olan ərazi necə oldu ki, alban sakinlərinin məskunlaşdığı Albaniyaya çevrildi?

− Qafqaz Albaniyasının tayfalarının və ya onların əhəmiyyətli hissəsinin sak-skiflərlə hansı ümumi etnik platforma ilə bağlaya bilər?

Və nəhayət, Albaniya haradandır və albanlar kimlərdir?

**2.** Alban etnosu və onların yaşadığı areal ilə bağlı qoyulmuş suala cavab vermək üçün əvvəlcə alban salnaməçisi M.Kalankatlı və ya M.Kalanqatukluya (Kalankatuklu) müraciət edək [M.Kalankatuklu "Albanların tarixi"].

**Diqqət:** bu sitat Albanların mənşəyi haqqında yuxarıda göstərilən alban müəllifindən götürülmüşdür: "Onlardan, kittiylərdən – Yafətin oğullarından ayrılaraq kiprlilər bütpərəst adalara getdilər, şimal ölkələrində yaşayanlar isə kittiylərin həmtayfalarındandır, bunlardan Aluanlar törəmişlər" (M.Kalankatlı, kitab 1, fəsil 2). Verilən sxem alban müəllifinin öz xalqının mənşəyi haqqında dediklərini təsvir edir.



Sxemdən göründüyü kimi, birbaşa kittiylərin identifikasiyası Alban kökünün müəyyən edilməsi deməkdir və biz bu yola üstünlük vermişik.

Qeyd edək ki, Q.Qeybullayev albanların soykökünü müəyyən etmək məqsədilə şimalda yaşayan kittiylərin soyköklərinin müəyyən edilməsi yolunu seçir və "şimalda yaşayanlar" dedikdə qədim erməni mənbələrinin və M.Kaqankatuklunun bəhs etdiyi türk dilli xalqları (basillər, bulqarlar, hunlar, xəzərlər və s.) nəzərdə tutur. Üstəlik, Q.Qeybullayev V əsrin hadisələri ilə bağlı erməni tarixçisi Yeqişedə "haylandur" və M.Kaqankatukluda "haluandur" Şimali Qafqazın hun qəbiləsinin adına diqqət yetirərək, göstərir ki, qəbilənin əsl adı "aluandur"dı ("x(h)" hərfi erməni variantında əlavə protezdir) və həmçinin Ptolemeydə [V, 8, 23] "olond" kimi qeyd olunmuşdur, özü də "aluandur-olond" "alan" deyil, "aluan-alvan" deməkdir və qoşulmuş "dur" şəkilçisi türk qəbilələrinə aid edilən söz sonluğudur ("bayandur", "cavandur", "utidur" və s.). Q.Qeybullayev onu da qeyd edir ki, XIX ə. Şimali Qafqaz toponimi "Albanoviçi" mahiyyətcə "Alban"+türk "oba" və patronimik "içi"ndən ibarətdir. Başqa sözlə Q.Qeybullayevə görə, Hun birliyində albanların olması mümkündür.

**Dərhal qeyd edək ki, bizim versiyamız belədir:** kittiylər – hattilərdir və ya ibtidai hettlərdir (hittitlər). Bunun sübutuna bu kitabın bölmələri həsr olunacaq.

**3.** Tarixi Albaniya, bugünkü Azərbaycan torpaqlarında mövcud olan mədəni irsdən söhbət getdiyi halda, bu ərazidə yaşayanların – albanların kimliyi məsələsi ön plana çıxır. Bu tədqiqatda bütün istinadlar qədim mətnlər və klassik mənbələr əsasında aparılır.

Tədqiqatımıza həmyerlimiz, Azərbaycanın Yevlax şəhərinin sakini, anası Olqa (Solomiya) Saparova tərəfin-

dən alban olan Pavel Florenskinin öz mənşəyi ilə bağlı çox dəyərli fikirləri ilə başlayırıq. Pavel Florenski, öz nəsil şəcərəsini tədqiq etmiş görkəmli ilahiyyatçı, keşiş və riyaziyyatçı idi və onun tədqiqatının nəticələri öz əksini “Mənim uşaqlarıma. Keçmiş günlərin xatirələri"ndə tapmışdır (M., "Moskva fəhləsi", 1992-ci il) [«Детям моим. Воспоминания прошлых дней». М., «Моск. раб.», 1992 г.].

Florenskidən gətirdiyimiz sətirlər 1916-1925-ci illərə aiddir. Arayış üçün qeyd edək ki, P.Florenskinin atası Zaqafqaziya dəmir yolunun mühəndis-inşaatçısı olan Aleksandr Florenski pravoslav rus olmuşdur. Anası 1859-cu il təvəllüdlü O.Saparova tanınmış Qarabağ məliklərinin nəslindən idi (Alban kilsəsinin **hiyləgərliklə mənimsənilməsi** və onun erməni kilsəsinə birləşdirilməsindən sonrakı dövr).

P.Florenski yazır: “Saparovlar Armeniyanın müxtəlif və etnik cəhətdən pis qarışan sakinlərinə aid olan bir neçə tayfası sırasında olmuşlar, ermənilərin özləri bu tayfa budağını “albana” adlandırmışlar. **Bu, Aralıq dənizi irqi adlandırılan Aralıq dənizi hövzəsinin ən qədim sakinlərinin bir qoludur. Etnik bir altlıq olaraq bu irqin tarıxi Homer Yunanıstanına qədər uzanır. Onun qalıqları daha təmiz şəkildə Midiya və Friqiyalıların ən qədim tayfalarını vermişlər. Şimal-şərqin dərinliklərinə qədər gedib çıxmış bu nəsil ətrafdakı Ararat əhalisi ilə qismən qarışdılar və bir hissəsi isə burada etnik qrup olaraq sağ qaldılar”.**

Başqa bir yerdə o, fikrini birbaşa bildirir: **"Anam tərəfdən məndə hetteylərin qanı axır"**. Qeyd etmək lazımdır ki, bu nəticə M.Kalankatuklunun albanların mənşəyi ("Albanların tarixi") barədə fikirləri və hetlərin / hatla-

rın Kipr və Qafqaza miqrasiyası haqqında məşhur tarixi dəlillərlə tamamilə uyğun gəlir.

Alban salnaməçisi M.Kalankatuklu qeyd etmişdir: "Onlardan, kittiylərdən – Yafətin oğullarından ayrılaraq kiprlilər bütpərəst adalara getdilər, şimal ölkələrində yaşayanlar isə kittiylərin həmtayfalarındandır, bunlardan Aluanlar törəmişlər" (M.Kalankatuklui, I kitab, 2-ci fəsil) [Kittim (Xirokitiya) Kiprin qədim adıdır və onun qədim tarixinə görə eramızdan əvvəl IV minillikdə Hatilər tərəfindən istila edilmişdir].

P.Florenski daha sonrakı qeydlərində başlıca nəticəsini çıxarır: "**Qarabağ erməniləri əslində ermənilər deyil, xüsusi bir tayfadır... Qədim dövrlərdə onları alban adlandırırdılar, ermənilər isə onlara axavan deyirdilər"** (kursiv bizimdir). **"Onlar əvvəlcə Göyçə gölü yaxınlığında yaşayırdılar. Cənubdan sıxışdırılaraq, əfsanəvi əcdadları Bəylərin soyadını daşıyan knyazları ilə birlikdə Qarabağa köçdülər**".

Qeyd edək ki, Saparovlar ailəsi də Gürcüstanda məskunlaşan Bəylərovlardan törəmişlər. **Florenski öz "Xatirələr"ində bunu vurğulayaraq yazır ki, Bəylər – Bəylərovların törəmələrindən müasir Gürcüstanda məskunlaşan və Qarabağa qayıtmayan bir neçə nəsil, o cümlədən, Saparovlar nəsli çıxmışdır ki, onlar "son dərəcə mədəni və çox zəngin olmuşlar".**

Daha sonra, hələ 1915-ci ildə yazmağa başladığı "Anam haqqında qeydlər"də göstərir: "Məlik-Bəylərovların əsas şəcərəsi IX əsr Talışi İncilinin ilk vərəqlərində qeyd edilmişdir. İncil Məlik-Bəylərovların nəsil kilsəsində, onların malikanəsinin xarabalıqlarının hələ də qaldığı Xorek dağında saxlanılırdı...", "...onlar kəndlilər tərəfindən oğurlanmışdı", "erməni katolikosunun sərt əmrləri və hətta kil-

sədən qovulma təhlükəsi bunları [kəndli] kilsəyə qaytarmağa məcbur edəcək qədər güclü deyildi...". Məlik-Bəylərovların tarixinə dair daha bir qeyd Bolnisi kəndinin kilsəsində qorunan Bolnisi İncilində vardır”.

Və nəhayət, “P.Q.Saparovun tərcümeyi-halına dair qeydlər”də (təxminən 1923-cü il): “Ailənin tarixi yerli bölgənin müqəddəs Şulaver əlyazması İncilində qeyd edilmişdir. Bu İncil Pavel Gerasimoviç Saparov tərəfindən yenidən bağlanılmışdır...” [Florenskinin babası, anasının atası].

P.Florenskinin yuxarıda göstərilən sitatları eyni alban məliklərindən törəyən zadəgan alban ailəsi Saparovların yaşayış coğrafiyasını anlamaq baxımından çox vacibdir.

**Birincisi**, Göyçə gölü bölgəsindən köçürüldükdən sonra P.Florenskinin əcdadlarının Qarabağda yaşadığını görürük. Qarabağ isə mənbələrdən məlum olduğu kimi, Qafqaz Albaniyasının ərazisidir. IX əsrdə yazılmış nəsil şəcərəsi Talış İncilində hazırlanmışdır. Bəlli olduğu kimi, Talış Azərbaycanın Tərtər rayonunun yaşayış (kənd) məntəqəsidir (1921-1991-ci illərdə Mardakert rayonu). Bəylərov məliklərinin iqamətgahı 1716-1750-ci illərdə məhz burada yerləşmişdir və P.Florenskinin anası tərəfindən nəsli də onlardan törəmişdir. Qeyd edək ki, əvvəllər erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş həmin kənd 3 oktyabr 2020-ci ildə Azərbaycanın nəzarəti altına qaytarılmışdır.

XVI əsrdə P.Florenskinin əcdadları öz kəndliləri ilə birlikdə Gürcüstanın Kvemo-Kartli bölgəsindəki Marneuli ilə həmsərhəd olan (bütövlükdə Borçalı adlanan) Tiflis quberniyasının hazırda azərbaycanlıların yaşadığı Bolnisi yaşayış məskəninə köçdülər. P.Florenski həmçinin Şula-

verdəki nəsil tarixinin yazıldığı İncili də qeyd edir. Şulaver tarixi addır və Gürcüstanın Kvemo-Kartli bölgəsinin (Borçalı) Marneuli rayonunda yerləşir.

Göstərilənlərdən belə nəticə çıxır ki, **P.Florenskinin "Xatirələr"ində qeyd olunan coğrafi ərazi Qarabağ və Borçalını (indi Azərbaycan, Gürcüstan və Ermənistan sərhədindədir) əhatə edir. Qafqaz Albaniyasının məhz bu əraziləri aşağıda bizim diqqət mərkəzimizin predmeti olacaq.**

**4. Prof. C.Kempbellin elmi işlərinə uyğun olaraq təqdim edilir.**


Hattilərin nəsil xronologiyası
Ashchur + Helah
Zereth
Zarthan
Dardanians
Ilus (Troya eponimi)
Sardinlər
Zereth Shachar
Yehaleleel
Assurların eponimi
(Ashchur (Assur)) ilə yanaşı
Assuriyanın 1-ci hökmdarı Arioch (Assara'nın oğlu)
Yəhudilərdə El-Assar
Cherith
Cherith
Cherethites
Kritlər, kürdlər
Zohar
Ephron
(İbrahim,Mahpela mağarası)
Yephunnen (Pacok)
Pan
Evander
Caleb
Iru (Giru) Elah, Naam
Machaor
Nasamones
Tsocharites, Garamantes
(Herodota görə Chepherites ilə əlaqə)
Tsocharites
= Teucri (Tsuckhi)
törəmələri: Troyalılar, Ceteans adlandırılan
müasir albanlar, hunlardan olan Orpelians
törəmələri:
Tsochari = Tochari
onların sırasında Aparni
Ethan
Belag (Bela)
Beor (Begor)
Ethanitesin (ərəblərdə Ethan - Adhan) törəmələri
İsmayılın (İbrahimin oğlu) törəmələri
Edomun 1-ci hökmdarı
Achuzam
(Xettlərin ən məşhur ailəsi)
(amonitlərdən olan Zuzimlərin paytaxtının yaxınlığında yaşayırdılar)
Misir Gagama
Assuriya Gamguni
Haranın oğlu
Əcdad Yahdaites (Adites)
Gazezin oğlu + Yahdai
Qiksosların lideri
oğlanları: Regem, Yotham, Gesham, Pelet, Ephan, Shaaph
(Misir tarixinin yaradıcıları)
Misirin yetirməsi
Mümkündür: Ephan Achuzam və Haran arasında
Ashchur + Naarah
Cherpher
Chareph (
Elamın istilaçısı)
Chedorlaomer
(Apharsites)
= Subartunun adamları= 1-ci Xett imperiyası
Achashtari ilə əlaqə (Laadah vasitəsilə)
Temeni
(onlar Jerachmeelitesdən olan yafətlərdir) Sinayda Xuşamı istila ediblər (Kuş),
İncildə Amalek kimi qeyd olunurlar.
Achashtari
(İncildə adlar Ashteroth kimi gedir (Astarte), şərqə gediblər, Berosusa görə Xisustrusun (Nuhun) prototipi)
törəmələri:
Chelub
Chelubites (Misirlilər Mesopotamiyada Naharaime, Assuriyalar Nairi kimi, Herodot –skiflərdən Neuri (Nevrı), İtaliyada– Naharcer = etruskların bir hissəsi, Navarra = Navarrese kimi tanıyırdılar)
Shuah
Shuhites
Shelah
Roshun ailəsi (Korach, Tappuach, Maon, Shemag)
onun oğlu Chebron, törəmələri Mesopotamiyada və Lidiyada
Shuhites Achashtari (törəmələri Zuzimdə yaşayırdılar (bax Achuzam))
Emim (Misir Amu (qiksosların torpağı)
Assuriya Ama = Amata)

## "Hattlilərin nəsil xronologiyası" cədvəlindən nəsillərlə bağlı nəticələr

1. **Zereth'in nəsilləri:** dardanellilər, sardiniyalılar, Ilus (Troyanın eponimi), **assurlular,** kritlilər, **kürdlər.**

2. **Zohar'ın nəsilləri:** qaramantlar, Teucri (Tsuckhi), **troyanlar,** müasir albanlar, hunlardan olan Orpelians (II əsr), (Chepherites ilə birlikdə), Tochari nəsilləri, **toxarlar** (**Aparni** daxil olmaqla).

3. **Ethan'ın nəsilləri:** İsmaililər (İbrahim'in oğlundan).

4. **Achuzam'ın nəsilləri: giksos** liderləri, ehtimal ki, Misirlilər.

4*. **Cherpher'in nəsilləri: subarlar,** Elamın hökmdarları.

4**. **Temeni'nin nəsilləri:** Sinayda Huşam'ı (Kuş) fəth edənlər, İncildə – Amalek.

5. **Achashtari'nin nəsilləri:** nairilər, skiflər-nevrilər, etruskların bir hissəsi, navarçılar, Lidiya, Amu.

## "Hattilərin nəsli (şəcərəsi)" cədvəlinin əlavə nəticələr (davamı)

1. **Zereth'in nəsilləri:** skiflər (Celtic və yafətid qarışığı ilə), Beerothites-dən təmiz skiflər=Parfiyalılar
(Heber'dan) ≡ Iberiyalılar, subarlər
(Jehaleleel-dən) – Alarodianslar.

2. **Zohar'ın nəsilləri:** Chalybes, Vanlar, hunlar.

3. **Achuzam + Zuzim birgə nəsilləri:** giksoslar = Moschi (Kapadokiyalılar).

4. **Achuzam + Temeni birgə nəsilləri:** parfiyalılar.

P.S. **Parfiyalıların qalıqları:** Alanlar (Temenitlər (Elon'dan)), Avarlar (Zerethites (Heber'dan)), Hunlar və Lombardlar (Zocharites + Ethanites (Jephunneh'dan)).

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.